


## "DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ"
(Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)

mövzusunda

# BEYNƏLXALQ KONFRANS

ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi

UNESCO BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası

# INTERNATIONAL CONFERENCE

on the theme of

## "STRENGTHENING RELIGIOUS TOLERANCE"
(Azerbaijan's model, challenges in the OSCE region and beyond its borders)

# "DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ"

(Azərbaycan modeli, ATƏT regionu
və onun hüdudlarından
kənarda çağırışlar)

mövzusunda

## BEYNƏLXALQ KONFRANS

107692

*Bakı, 17-18 noyabr 2014-cü il*

ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi

Azərbaycan Milli Kitabxanası

[2015]

738-11,0+3211,0,10+2214(2A)70



*Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının qərarı ilə nəşr edilir.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin 22 oktyabr 2014-cü il tarixli sərəncamına əsasən konfransın təşkili və keçirilməsi ilə bağlı yaradılan Təşkilat Komitəsinin üzvləri:*

*Sabir Həsənli (Təşkilat Komitəsinin sədri), Salman Musayev, Qəmər xanım Cavadlı, Fuad Nurullayev, Simran Həsənov, Müqəddəs Payızov, Rəhimə Dadaşova, Zülfüqar Fərzəliyev, Əlirza Qafarov, , İsa Vəkilov.*

*Nəşrə məsul*
***Zülfüqar Fərzəliyev***
QMİ-nin Nəşriyyat şöbəsinin müdiri

*Redaktorlar*
***Etibar Cəbrayıloğlu***
QMİ-nin Nəşriyyat şöbəsinin müdir müavini

***Hilal Ağamoğlanov***
QMİ-nin Nəşriyyat şöbəsinin aparıcı mütəxəssisi

*Fotoların müəllifi* ***Həmid Bağırovdur***

*Çap koordinatoru*
***Hacı Akif Qismətoğlu***

İSBN: 978-9952-844-05-4

0503020907
------------------------ qrifli nəşr
036-(3.2.9.7)-2015

ARXİV



## GİRİŞ

Son illər dünya dövlətləri arasında öz mövqeyini daha da möhkəmləndirən Azərbaycan bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edib. Sürətli və davamlı inkişafa nail olan ölkəmizin paytaxtı Bakıda, eləcə də ayrı-ayrı bölgələrimizdə keçirilən müxtəlif sammitlərdə, qlobal forumlarda və konfranslarda bütün dünya üçün önəmli sayılan mesajlar səsləndirilib.

Qafqaz Müsəlmanları İdarəsi də bu vacib işə öz töhfəsini verməkdədir. Qafqazın tarixi dini mərkəzi kimi QMİ son illər Azərbaycan dövlətinin dəstəyi, beynəlxalq qurumların yaxından iştirakı ilə müxtəlif tədbirlər keçirib.

2010-cu il aprelin 26-sı və 27-də keçirilən Dünya Dini Liderlərinin Bakı Sammiti, 2013-cü il aprelin 15-də gerçəkləşən MDB Müsəlmanları Məşvərət Şurasının II iclası və həmin il 16-17 aprel aralığında reallaşan "MDB müsəlmanları sülh və stabil inkişaf tərəfdarlarıdır" Beynəlxalq elmi-praktiki konfrans məhz belə tədbirlərdəndir.

Təkcə regionda deyil, bütün dünyada sülhün, sabitliyin və dinlərarası dialoqun tərəfdarı kimi çıxış edən Qafqaz Müsəlmanları İdarəsi bu sahədə səylərini davam etdirməkdədir. 17-18 noyabr 2014-cü ildə "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən Beynəlxalq konfrans buna bir daha sübutdur. Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycan hökuməti, ATƏT-in Bakı Layihə Əlaqələndiricisi və UNESCO-nun Azərbaycan Respublikasının Milli Komissiyası ilə birgə təşkil etdiyi bu tədbir BMT-nin Beynəlxalq Tolerantlıq Gününə həsr olunmuşdu.

Beynəlxalq konfrans ölkəmizdəki tolerantlıq mühitinin təşviqi baxımından mühüm bir toplantı sayıla bilər.

Azərbaycan Prezidenti İlham Əliyevin Beynəlxalq konfransda iştirak üçün Bakıya gələn Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini

qəbul etməsi, tədbir iştirakçılarına təbrik məktubu ünvanlaması toplantının əhəmiyyətinə verilən dəyərin göstəricisidir.

Belə tədbirlərin aktuallığını və vacibliyini qeyd edən Prezident İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına göndərdiyi təbrik məktubunda deyilirdi: "...Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizmin, ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur.

Nüfuzlu beynəlxalq təşkilatların, dövlət və hökumət rəsmilərinin, tanınmış din xadimlərinin, alimlərin və ekspertlərin iştirak etdiyi belə bir faydalı tədbirin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir. İnanıram ki, aktual bir mövzuya həsr olunmuş beynəlxalq konfransınız işini səmərəli müzakirələr şəraitində quracaq, dinlərarası və mədəniyyətlərarası dialoqun, həmrəylik, tolerantlıq və qarşılıqlı anlaşma kimi bəşəri dəyərlərin inkişafına öz dəyərli töhfəsini verəcəkdir..."

İki gün ərzində beynəlxalq konfransda edilən çıxışlar, işgüzar şəraitdə aparılan müzakirələr müasir dövrdə belə toplantıların tez-tez keçirilməsinin vacibliyini bir daha sübut etdi.

Beynəlxalq tədbirdə iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən Bakıya gələn qonaqlar müasir Azərbaycanın əldə etdiyi uğurlarla yaxından tanış oldular. Qədim və zəngin mədəniyyətə malik olan ölkəmizdəki multikultural durumu, tolerantlıq mühitini yüksək dəyərləndirdilər.



ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi



## *QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASI ÜZVLƏRİNİN QƏBULU*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda Beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul etdi.*

Görüş iştirakçılarını salamlayan **Prezident İlham Əliyev** dedi:

- Sizi yenidən Bakıda görməyimə şadam. Xoş gəlmisiniz. Şadam ki, görüşlərimiz müntəzəm xarakter alır, Bakıda və Azərbaycanın digər yerlərində tez-tez görüşürük. Həm də əlbəttə ki, dini dözümlülük, tolerantlıq məsələlərini müzakirə edən beynəlxalq konfransda iştirak edirsi-

niz. Bu, bizim regionumuzda, bütövlükdə dünyada, Yaxın Şərqdə və Avropada hazırda çox mühüm mövzudur. Azərbaycan öz tərəfindən müxtəlif dinlərin nümayəndələri və xalqlar arasında daha çox anlaşma olması üçün səy göstərir. Biz müntəzəm tədbirlər keçiririk. Dini həmrəylik və tolerantlıq mövzusunda dörd dəfə Beynəlxalq Humanitar Forum keçirmişik. Bu, əsas mövzudur. İki dəfə Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq konfrans keçirmişik. Həmçinin Bakıda dünya dinləri rəhbərlərinin Sammitini keçirmişik. Yəni, tarixi, coğrafi mövqeyi və bugünkü reallıqlar nəzərə alınmaqla Azərbaycan bu istiqamətdə mühüm rol oynayır.

Əlbəttə ki, bizi təhlükəsizlik, sülh məsələləri birləşdirir. Qafqazda bunlar bizim ümumi mövzularımızdır. Qafqaz bizim ümumi evimizdir. Qafqazın təhlükəsizliyi, inkişafı və tərəqqisi bizim ümumi qayğımızdır. Dini liderlərin rolu gənc nəslin bizim ənənələrimiz və əməkdaşlıq ruhunda tərbiyəsi baxımından, eləcə də ağsaqqalların, dini rəhbərlərin tövsiyələrinin mötəbər sayılması cəhətdən çox böyük əhəmiyyət kəsb edir. Biz də bu ənənələri qoruyub saxlamalı və möhkəmləndirməliyik. Bizim respublikaların gəncləri dini, milli ənənələrimiz ruhunda böyüməlidirlər. Bizim ənənələrimiz xeyirxahlığa, sülhə, qardaşlığa əsaslanır. İslam sülh dinidir. Dünyanın kütləvi informasiya vasitələrində dinimizi süni surətdə ləkələmək, İslamı terrorçuluqla, ekstremizmlə eyniləşdirmək cəhdləri bizi çox narahat edir. Bu informasiya fonu həm də konfessiyalararası sülhün bütün dünyada bərqərar olmasını istəməyənlərin dəyirmanına su tökən bəzi siyasətçilərin məsuliyyətsiz bəyanatları ilə möhkəmləndirilir. Buna görə də bu konfrans baxışlarımızı, mövqeyimizi, nöqteyi-nəzərimizi, dini dəyərlərimizi geniş dünya ictimaiyyətinə çatdırmaq və qarşılıqlı anlaşmanın, hörmətin olması üçün daha bir imkandır. O zaman dünya daha təhlükəsiz olar.

Qarşılıqlı hörmət, beynəlxalq hüquq, ədalət, dini dəyərlər dünyanın müsbət istiqamətdə inkişafı üçün mühüm təməldir. Təəssüf ki, biz bunun əksini görürük. Qafqazda həm təhlükəsizliyi, həm əməkdaşlığı, həm də inkişafı birgə səylərlə möhkəmləndirəcəyik. Bir daha sizi səmimi





qəlbdən salamlayıram. Ümid edirəm ki, sizin bu konfransda iştirakınız xoş və faydalı olacaq.

**Şimali Qafqaz Xalqlarının Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının Müftisi İsmayıl Berdiyev** çıxış edərək dedi:

- Çox sağ olun, İlham Heydər oğlu. Biz həqiqətən buraya məmnuniyyətlə gəlirik. Çünki Azərbaycanı sevirik. Bakı daim getdikcə gözəlləşir. Hər dəfə yeniliklə üzləşirsən, düşünürsən ki, daha nə etmək olar?! Gəlirsən və tamam başqa mənzərə görürsən.

İsmayıl Berdiyev Azərbaycanda inkişafın sürətlə getdiyini, paytaxtda ən böyük məscidin inşa olunduğunu vurğulayaraq bildirdi ki, görülən işlər Prezident İlham Əliyevin soy-kökünə bağlıdır: "Sizin atanızla Şeyxülislam Kəbə evində olub, sonra Sizinlə də gedib. Bütün bu işlər bundan irəli gəlir".

**Prezident İlham Əliyev:** - Mən dostluğumuzu, şəxsi münasibətlərimizi, sizin Şeyximizlə olan münasibətlərinizi çox yüksək qiymətləndirirəm.

Biz əsrlər boyu dostluq və sülh şəraitində birlikdə yaşamışıq və gələcəkdə də belə yaşayacağıq. Əlbəttə ki, bu dəyəri qorumalıyıq. Xalqlarımızı yaxınlaşdırmaq, eləcə də dini-mənəvi dəyərlərin ölkəmi-zin inkişafının əsasını təşkil etməsi üçün biz öz tərəfimizdən əlimizdən gələni edirik.

Görüş ərəfəsində bizim əvvəlki görüşlərimizi yada saldım. Biz Bibiheybət məscidinin genişləndirilməsi, bərpası, əslində yenidən qurulmasından sonra açılış mərasimində, sonra Əjdərbəy məscidinin təmirdən sonra açılışında, Şamaxıda Azərbaycanın ən qədim məscidinin açılışında birgə iştirak etmişik. Həmçinin ümid edirəm ki, Bakıda inşa edilən ən böyük məscidin açılışı sizin iştirakınızla olacaq. Əminəm ki, əlaqələrimiz gələcəkdə daha da möhkəmlənəcək.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə:** - Cənab Prezident!

Siz İslam, din, xalq üçün çox böyük işlər görürsünüz. Bu tolerantlıq günündə mən istərdim ki, Ulu Öndər Heydər Əliyevi yada salım.

Çünki bu gündə o həmişə bizi bir yerə yığardı, bizimlə görüşərdi, danışardı və bizə yol göstərərdi. Çünki bu tolerantlığın bünövrəsini qoyan Heydər Əliyev həzrətləri olmuşdur. Bu ənənə bu gün də davam edir. Bu, bir daha Sizin, bayaq dediyiniz kimi, öz kökünüzə, İslama, mənəviyyata verdiyiniz qiymətdir. Ona görə də Sizə minnətdarlığımı bildirirəm. Bu gün Qafqaz Müsəlmanları İdarəsi Sizin mənəvi dəstəyinizlə imkan daxilində böyük işlər görür. Bu gün Azərbaycan hökuməti, Qafqaz Müsəlmanları İdarəsi, ATƏT-in və UNESCO-nun ölkəmizdəki nümayəndəlikləri birlikdə, özü də ilk dəfə belə bir konfrans keçiririk.

Bu da Azərbaycanda din, vicdan azadlığının və tolerantlığın bir nümunəsidir. Bu da Sizin bizim üçün yaratdığınız bir şəraitdir. Ona görə də Sizə minnətdarlığımızı bildiririk.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən bir daha Qafqazda sabitliyin, təhlükəsizliyin, inkişafın möhkəmləndirilməsi işində rolunuza görə minnətdarlığımı bildirirəm.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan və Şimali Qafqaz xalqları arasında tarixən dostluq münasibətlərinin hökm sürdüyünü dedi. Azərbaycanda yaşayan Şimali Qafqaz xalqlarının, Şimali Qafqaz respublikalarında yaşayan azərbaycanlıların bu dostluğun daha da möhkəmləndirilməsində mühüm rol oynadıqlarını vurğulayan dövlətimizin başçısı dedi: - "Konfrans Murtuza Muxtarovun evində keçirilir. O, Azərbaycanın ən zəngin adamlarından biri və mesenat olub. Bu evi də o, həyat yoldaşına hədiyyə kimi inşa etdirib. Onun həyat yoldaşı Osetiyadan idi. O, həmçinin öz vəsaiti hesabına Vladiqafqazda məscid tikdirib. O, çox ləyaqətli insan idi. O, faciəvi şəkildə həlak olub. Bolşevik inqilabından sonra əsgərlər onun evinə soxularaq, onu öz evindən çıxarmaq istəyirdilər. Çünki Bakının əksər tarixi binalarını varlı insanlar tikdiriblər. Onların əksəriyyəti ləyaqətli insanlar idi. Onlar sərmayə qoyaraq məktəblər, xəstəxanalar inşa etdirirdilər. Bizim indiyədək istifadə etdiyimiz Şollar su kəməri varlı adamlardan biri və mesenat Zeynalabdin Tağıyevin vəsaiti hesabına tikilmişdir. O zaman Murtuza Muxtarov quldurlara mənzilini ləkələməyə imkan vermədi. Silahı çıxararaq





hücum edənlərin bir neçəsini məhv etdi və özü də həlak oldu. Əhvalat bax belə olub.

Sovet dövründə, təbii ki, hər şey milliləşdirilib. Orada müxtəlif kontorlar fəaliyyət göstərib. Sonra ora nikah evi kimi fəaliyyət göstərərək "Səadət" sarayına çevrildi. Mənim də nikahım orada qeydiyyata alınıb. Sonralar bu ev pis vəziyyətə düşmüşdü. Biz bir neçə il ərzində oranı bərpa etdik. Çünki binanın tarixi hissəsini qoruyub saxlamaq və yeniləşdirmək lazım idi. İndi bura, həm də nikahların qeydə alındığı saray kimi fəaliyyət göstərir. Burada rəsmi nikah mərasimləri, həmçinin müxtəlif dövlət tədbirləri keçirilir.

Bilirsiniz ki, Azərbaycanda bütün tarixi məscidlər bərpa olunub, son illər ərzində yüzlərlə yeniləri tikilib. Ancaq ürək ağrımız odur ki, işğal edilmiş ərazilərdə, Dağlıq Qarabağda, Şuşada məscidlər dağıdılıb. İnternetdə fotoşəkillər də var. Erməni işğalçı qüvvələri, həmçinin Ağdam məscidini və bir çox digər məscidləri dağıdıblar.

Bakıda isə biz erməni kilsəsini bərpa etmişik. Şəhərin mərkəzindədir. Hamı baxa bilər. Bax, bu, kimin hansı niyyətlərlə yaşadığını göstərir. Sizin müzakirə etdiyiniz mövzunun nəticəsi bax, elə budur – tolerantlıq. Hətta müharibə şəraitində bəşəri və dini normaları pozmaq olmaz. Təəssüf ki, biz bununla qarşılaşırıq. Dağıdılmış məscidlərimiz vandalizmin sübutudur. Digər hallarda da ümumbəşəri davranış və mənəviyyat normaları elə bu cür pozulub. Bir neçə il əvvəl bizim bir qəhrəman şəhid olub. O, təkbaşına 10-dan çox işğalçını məhv edib. Özü də həlak olub. Aşkar ölümə gedib. Onun cəsədini bir neçə ay qaytarmırdılar. Təsəvvür edirsiniz, bir neçə ay! Heç bir dində belə vəhşilik yoxdur. O, qəhrəmandır, öz torpağını müdafiə edirdi, öz torpağında həlak oldu. O, yad yerdə həlak olmamışdır. Bax, belə epizodlar, əlbəttə ki, Qafqazdakı vəziyyəti ağırlaşdırır. Biz - Qafqazda minilliklər boyu yaşayanlar, yeni köçənlərdən fərqli olaraq, ənənələrimizi qoruyuruq və qoruyacağıq. Biz xalqlarımızın həyatını daha da yaxşılaşdırmaq üçün əlimizdən gələni edəcəyik".

**Qafqaz Müsəlmanları İdarəsinin Moskvadakı səlahiyyətli nümayəndəsi Şafik Pşixaçev** çıxış edərək dedi:

- Mən də Sizə öz tərəfimdən təşəkkür etmək istəyirəm. Çox sağ olun. Həqiqətən də Bakıya gəlmək həmişə xoşdur. Bakı inkişaf tempi ilə bizi həmişə heyran qoyur. Amma daha çox Sizin daimi qayğınız, bizimlə görüşəndə dediklərinIz dəyər istiqamətləri, cəmiyyətin inkişafının dini-mənəvi tərkib hissəsi ötəri deyil. Bu, heç bir parametrlərlə ölçülməyən böyük dəyərə malikdir.

Bildirmək istəyirəm ki, Sizinlə görüşmüşük. Sizin köməyinizlə, İnşallah, gələn ildən Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasında nümayəndəliyi tamhüquqlu fəaliyyətə başlayacaq. Bütün hüquqi sənədlər tərtib olunub, hər şey Rusiya Federasiyasının qanunları, Azərbaycan Respublikasının yeni qanunları ilə uyğunlaşdırılıb. İnşallah, biz səfirliklə, Moskvada Heydər Əliyev Fondunun nümayəndəliyi ilə birgə işləmək niyyətindəyik. İnşallah, qəti əminik ki, bu nümayəndəliyin işi Rusiya Federasiyasının və bizim qardaş Azərbaycanın xalqlarının daha da yaxınlaşmasına, səmərəli qarşılıqlı fəaliyyətinə xidmət edəcək. Çox sağ olun. Biz Sizə məlumat verəcəyik, biz işləyəcəyik. Məsuliyyətimizi dərk edirik. İnşallah, bu istiqamətdə iş görəcəyik.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən də çox şadam ki, artıq Moskvada nümayəndəliyiniz var. Bu, xüsusən də son dövrdə bizim olduqca fəal və dinamik inkişaf edən əlaqələri, dövlətlərarası münasibətləri nəzərə almaqla çox vacibdir. Həmçinin deyərdim ki, bizim Şeyxlə bütün Rusiyanın Patriarxı, Əlahəzrət Kirill arasında qardaşlıq münasibəti mövcuddur. Bu münasibətlər dostluğa, qardaşlığa əsaslanır. Bu, çox vacibdir. Həm Rusiya, həm Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Ona görə də bizim ölkələrdəki sülh bütün dinlərin nümayəndələrinin qarşılıqlı fəaliyyəti, qarşılıqlı anlaşması və qarşılıqlı dəstəyindən asılıdır. Buna görə də biz Rusiya ilə ikitərəfli formatda qarşılıqlı fəaliyyət göstəririk. Əlbəttə ki, Patriarxla Şeyx arasında şəxsi münasibətlər də mühüm rol oynayır. Mən Patriarx Kirillin Bakıda olduğunu, həmçinin məscidi ziyarət etdiyini xatırlayıram. İlk dəfə idi o, məscidi ziyarət edirdi. Bunun Azərbaycanda baş verməsi rəmzi məna daşıyır.



ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi



**Səlahiyyətli nümayəndə Şafik Pşixaçev:** Bu cür tolerantlıq təkcə bir-birinə qarşı dözümlülük nümayiş etdirmək deyil. O səmərəli və fəal qarşılıqlı fəaliyyət kimi qəbul edilir. Deməli, gələcəkdə də bu istiqamətdə birgə irəli getmək lazımdır.

**Prezident İlham Əliyev:** Bu, tamamilə doğrudur. Çünki indi tolerantlıqdan çox danışılır. Amma bu anlayışı düzgün müəyyənləşdirmək lazımdır. Bu cür konfranslar da buna xidmət edir. Bu, öz dəyərlərindən imtina etmək, kosmopolitizm, qloballaşmanın hər hansı bir hissəsi deyil. Hesab edirəm ki, bu, ilk növbədə öz dəyərlərinə və xalqına bağlılıq, öz dininə və başqa dinlərə də hörmətdir. Siz doğru deyirsiniz ki, bu, bir-birinə dözmək deyil, əksinə əlaqələrin, münasibətlərin və anlaşmanın daha çox olmasına xidmət etməkdir. Çünki müxtəlif kütləvi informasiya vasitələrində açıq antiislam təbliğatı aparılır. Biz buna dözə bilmərik.

Biz burada, beynəlxalq forumlarda, BMT və İslam Əməkdaşlığı Təşkilatı çərçivəsində fəaliyyətimizdə də bunu bəyan edirik. Bəyan edirik ki, buna son qoymaq lazımdır. Biz BMT Təhlükəsizlik Şurasında sədrlik edəndə qaldırdığımız mövzulardan biri İslam Əməkdaşlıq Təşkilatı ilə BMT arasında bu məsələlərlə bağlı qarşılıqlı fəaliyyət idi. Ona görə də bax, bugünkü gün də, hətta, bu konfrans da, digər tədbirlər də İslamın sülh dini olduğunu sübut edir.

Biz İslam dinini ayrı-seçkilikdən, indi necə deyirlər, qara piyar-dan hərtərəfli qorumaq üçün daha güclü olmalı, daha səmərəli işləməliyik və xarici qonaqları dəvət etməliyik. Bilirəm ki, xarici ölkələrdən Şimali Qafqaz respublikalarına çoxlu insanlar gəlir, tanış olur, inkişaf, müasirlik görürlər. Hörmətli Şeyx də dəfələrlə televiziyada Çeçenistan Respublikasında inkişaf barədə danışıb. Müasir şəhər, müasir infras-truktur. Bax, bu inkişafın göstəricisidir.

Sonra **Rusiya Federasiyası Şimali Osetiya - Alaniya Respublikasının müftisi Hacımurat Qatsalov** respublika başçısının xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.







## *BELARUS DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATI*

Bakıda "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən Beynəlxalq konfransın iştirakçılarının şərəfinə noyabrın 16-da Qafqaz Müsəlmanları İdarəsi tərəfindən ziyafət verildi.

Ziyafətdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadəyə Belarusun "Fransisk Skorina" ordeni təqdim olundu. Ordeni təqdim edən Belarusun Azərbaycandakı səfiri Nikolay Pastkeviç bildirdi ki, Prezident Aleksandr Lukaşenko Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şurasının həmsədri, MDB Müsəlmanlarının Məşvərət Şurasının sədri, Qafqaz Xalqlarının Ali Dini Şurasının sədri, Şeyxülislam Allahşükür Paşazadəni Belarus - Azərbaycan dövlətlərarası dialoqunun inkişafına verdiyi mühüm töhfəyə, ölkələri-

miz arasında ticarət-iqtisadi və mədəni əlaqələrin genişlənməsindəki fəaliyyətinə və dinlərarası razılığın möhkəmləndirilməsində gördüyü işlərə görə bu mükafatla təltif edib. N. Pastkeviç çıxışında ölkəmizdəki tolerantlıq mühitindən bəhs etdi. Diplomat Belarusun da tolerantlıq məsələlərinə daim diqqət ayırdığını söylədi. Azərbaycan - Belarus münasibətlərindən danışan səfir ölkələrimiz arasında bütün sahələrdə yaxşı əlaqələrin olduğunu bildirdi.

ATƏT-in Bakı Layihə Əlaqələndiricisi Ələsgər Şahtaxtinski çıxış edərək Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyətindən danışdı. Bildirdi ki, konfransda Azərbaycandakı tolerantlıq modeli müzakirə ediləcək, ATƏT məkanında tolerantlığa dair fikirlər səsləndiriləcək.



Şeyxülislam Allahşükür Paşazadə fəaliyyətinə verilən belə yüksək qiymətə görə Belarus Prezidenti Aleksandr Lukaşenkoya minnətdarlığını bildirdi. Şeyxülislam həzrətləri qeyd etdi ki, bu orden Azərbaycanda mövcud tolerantlıq ənənələrinə verilən yüksək qiymətdir.





Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə müxtəlif dini icmaların nümayəndələrinin dostluq və qardaşlıq şəraitində yaşadığını qeyd etdi. QMİ sədri bildirdi ki, belə mötəbər beynəlxalq konfransın Bakıda keçirilməsi Azərbaycanda din-dövlət münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisidir.

Tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, din xadimləri iştirak etdilər.

# "DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ"

***(Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)***

***mövzusunda***

# BEYNƏLXALQ KONFRANS

***Bakı, 17-18 noyabr 2014-cü il***



ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi

107692




*Noyabrın 17-si və 18-də Rəsmi Qəbullar Sarayında "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda Beynəlxalq konfrans keçirildi.*

ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, Azərbaycan hökuməti, Qafqaz Müsəlmanları İdarəsi və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə təşkilatçılığı ilə keçirilən tədbir BMT-nin Beynəlxalq Tolerantlıq Gününə həsr olunmuşdu.

Konfransı giriş sözü ilə açan **ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, səfir Ələsgər Şahtaxtinski** bildirdi ki, təmsil etdiyi təşkilatın tolerantlığın təşviqi, ayrı-seçkilik, antisemitizm, islamofobiya hallarına qarşı mübarizə ilə bağlı bir sıra öhdəlikləri var. ATƏT demokratik cəmiyyətin qurulmasında dialoqun təşviqini dəstəkləyir, həmçinin ATƏT regionunda nifrət zəminində cinayətlərə və çıxışlara qarşı qəti mövqe tutur. Səfir tolerantlıq sahəsində Azərbaycanın nümunə olduğunu dedi,



Azərbaycan Milli Kitabxanası

ölkəmizdə tolerantlıq və dini icmaların dinc yanaşı yaşaması kimi çox önəmli nailiyyətləri xüsusi vurğuladı. Bu gün dünyada islamofobiya hallarının artmasından narahatlığını bildirən səfir qeyd etdi ki, dini radikalizmin, ekstremizmin qarşısını almaq üçün səylərimizi gücləndirməliyik.



ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi



Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri **Kamal Abdullayev Prezident İlham Əliyevin** konfrans iştirakçılarına müraciətini oxudu:

"Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən Beynəlxalq konfransın iştirakçılarına.

*Hörmətli konfrans iştirakçıları!*

Sizi Azərbaycanda ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Son illər sivilizasiyalararası dialoq, multikultural dəyərlərin qorunması, dini tolerantlığın inkişafı kimi humanitar problemlərin ənənə-

vi müzakirə məkanına çevrilən Azərbaycanda etnik-mədəni müxtəlifliyin, multikultural, tolerant mühitin qorunması və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə dövlət-din münasibətləri zəngin milli-tarixi ənənəyə əsaslanır və beynəlxalq hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni həyata keçirdiyimiz din siyasətinin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin vacib amili kimi dəyərləndiririk.

Razılıq hissi ilə qeyd etmək istərdim ki, bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur.

Nüfuzlu beynəlxalq təşkilatların, dövlət və hökumət rəsmilərinin, tanınmış din xadimlərinin, alimlərin və ekspertlərin iştirak etdiyi belə bir faydalı tədbirin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir. İnanıram ki, aktual bir mövzuya həsr olunmuş beynəlxalq konfransınız işini səmərəli müzakirələr şəraitində quracaq, dinlərarası və mədəniyyətlərarası dialoqun, həmrəylik, tolerantlıq və qarşılıqlı anlaşma kimi bəşəri dəyərlərin inkişafına öz layiqli töhfəsini verəcəkdir.








Fürsətdən istifadə edərək Beynəlxalq Tolerantlıq Günü münasibətilə sizi təbrik edir, nəcib və xeyirxah işinizdə hamınıza cansağlığı və uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2014-cü il***




Sonra söz **Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadəyə** verildi. Şeyxülislam həzrətləri tədbirdə nitq söylədi:

*Bismillahir-rəhmanir-rəhim!*
*Möhtərəm konfrans iştirakçıları!*

Sizləri Azərbaycanda səmimiyyətlə salamlayır, O Bir Olan Yaradanımızdan hər birinizə xeyir-dualar diləyirəm.

Əziz qonaqlar! Bu gün siz Azərbaycanda dini-mənəvi irsə ehtiramı, tolerantlıq ənənələrini bilavasitə müşahidə edib dəyərləndirmək imkanına maliksiniz. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə birgə keçirdiyimiz Beynəlxalq Tolerantlıq gününə həsr olunmuş tədbirdə tolerantlıq sahəsində nailiyyətlərimizi bölüşmək haqqını qazanmağımız, heç şübhəsiz, bu sahədə nailiyyətlərimizə verilən yüksək dəyərdir.





Xalqımızın milli-mənəvi və tarixi irsinə istinad edən Azərbaycanın ümumbəşəri ideyaların carçısına çevrilməsi bizim üçün böyük qürur mənbəyidir. Bu, tolerantlığın dövlət siyasətinin ayrılmaz hissəsi olaraq bünövrəsini qoymuş Ulu Öndərimiz Heydər Əliyevin yoludur və bu uğurlara görə biz onun ruhuna borcluyuq. Allah ona rəhmət eləsin!

Məlumunuz olduğu kimi, Bakı istər mədəniyyətlərarası, istərsə də dinlərarası dialoqa dair mötəbər beynəlxalq tədbirlərin keçirildiyi ənənəvi məkana çevrilmişdir. 2010-cu ildə Azərbaycanda Dini Liderlərin Ümumdünya Sammitini keçirdik. Dünyanın ənənəvi dini mərkəzləri bu Sammitdə təmsil olundular. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Mədəniyyətlərarası dialoq forumlarının təşəbbüskarı, multikulturalizm ideyasının dünya miqyasında fəal müdafiəçisidir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində də tolerantlığın beynəlxalq müstəvidə təşviqi prioritet istiqamətlərdən birini təşkil edir.

Azərbaycanda müxtəlif dini mənsubiyyətə malik insanlar özlərini cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq, dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərilərində hiss edirlər.

Məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar fəaliyyət göstərir, onların yeniləri inşa edilir, bərpa və yenidənqurma işləri həyata keçirilir. Heç bir din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən bütün dini icmalar dövlətin maddi və mənəvi yardımından yararlanaraq, öz ibadətlərini, dini bayram və ayinlərini icra edirlər. Mühüm olan odur ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda din-dövlət münasibətləri düzgün qurulmuşdur. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. Vətəndaşlarımızın demokratik insan hüquqları, o cümlədən, dini etiqad azadlıqları qanunla təsbit və təmin olunur.

Cəmiyyətlərin sabitliyi və tərəqqisini təmin edən mühüm dəyərlər mövcuddur ki, onların sırasında dinc birgəyaşayış, qarşılıqlı anlaşma mədəniyyəti önəmli yer tutur. İndi dünyada multikulturalizm ətrafında geniş fikir mübadiləsi gedir. Bəziləri bunu öz mədəniyyətləri üçün təhlükə hesab edir, bəziləri etinasız yanaşır. Lakin müxtəlif mədəniyyətlə-

rin bir arada olmasını bizim O Bir Olan Yaradanımız Özü istəmişdir. Bu, İlahi təqdirdir və biz, din xadimləri bu həqiqəti sizlərə çatdırmağa borcluyuq. Qurani-Kərimdə buyurulur: ***"Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə ayrı-ayrı qəbilələrə, tayfalara ayırdıq"*** ("əl-Hücurat", 13).

Bu bir danılmaz həqiqətdir ki, dünyamızın üzləşdiyi siyasi, iqtisadi, sosial, mədəni problemlərin kökündə mənəvi böhran durur. Məhz mənəviyyat sahəsində baş verən problemlər həyatımızın bütün sahələrində fəsadlı əksini tapır. Allahın yaratdığı ən böyük dəyər insandır və onun həyatının xilası tolerantlıqdan - müxtəlif millət və dinlərə mənsub insanların qarşılıqlı anlaşma və ehtiramından keçir. Bu məqamı torpaqları erməni işğalçıları tərəfindən zəbt olunmuş xalqımız hətta Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələdə də unutmur, problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında ədalətli sülh yolu ilə həllində israr edir. Biz BMT-nin məlum qətnamələrinə əməl olunmasını tələb edir, ATƏT-in Minsk Qrupunun sülhyaratma missiyasından real nəticə gözləyirik.

Bu gün həm də Milli Dirçəliş gününü qeyd edən Azərbaycan milli-mənəvi dəyərlər üzərində qurulan müasir hüquqi, dünyəvi dövlət modelinin parlaq nümunəsidir. Bizim uğurlarımızın təməlində milliyyətindən, dinindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu bəyan etmiş dövlət rəhbərimiz İlham Əliyevin fəaliyyəti, müxtəlif mədəniyyət daşıyıcısı olan vətəndaşlarımızın bir ailə kimi yaşaması, xalqımızın bütün dünyada hər zaman sülh və anlaşma tərəfdarı kimi çıxış etməsi durur. Ölkəmiz hər zaman ədalətə və beynəlxalq hüquqa söykənən dünya düzəninə çağırışlarını bəyan edir və bu bizim bugünkü və gələcək nailiyyətlərimizi şərtləndirir.

ATƏT-lə birgə keçirilən bugünkü tədbir Azərbaycan xalqının və dövlətinin ümumbəşəri amallar uğrunda beynəlxalq təşkilatlarla əməkdaşlıqda əməli addımlarından biridir. Bu, xalqımızın tolerantlığının, ölkəmizin dünya miqyasında dialoqa hazırlıq ruhunun təcəssümü və Qafqaz Müsəlmanları İdarəsinin bu əhəmiyyətli prosesdə yaxından iştirakının bariz nümunəsidir. Biz bugünkü tədbiri uğurlu addım kimi dəyərləndiririk və bu istiqamətdə səylərin davamlı olmasına tərəfdarıq. Biz əvvəllər də dini mərkəz olaraq beynəlxalq təşkilatlarla, o cümlədən, BMT, UNESCO, Avropa Şurası ilə əməkdaşlığının vacibliyini bildirmiş, bu beynəlxalq təşkilatların nəzdində xüsusi nümayəndəliklərimizin yaradılması yönündə addımlar atmışıq və bu proses davam edir.







Tədbirimizə önəm verərək ünvanına təbriknamələr göndərmiş Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə, Rus Pravoslav Kilsəsinin başçısı Patriarx Kirill həzrətlərinə, Gürcü Pravoslav Kilsəsinin başçısı Katolikos-Patriarx II İliya həzrətlərinə, UNESCO-nun Baş direktoru İrina Bokovaya və onun təbrikini bizlərə təqdim etmiş UNESCO üzrə Azərbaycan Milli Komissiyasının birinci katibi Günay xanım Əfəndiyevaya təşəkkürlərimi bildirirəm.

Tədbirimizə təşrif buyurmuş Şimali Qafqaz Xalqlarının Əlaqələndirmə Şurasının sədri İsmayıl Berdiyev başda olmaqla Şimali Qafqazın

müftilərinə, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevə, Azərbaycan Parlamentinin vitse-spikeri Bahar xanım Muradovaya, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadəyə, Ağsaqqallar Şurasının sədri Fəttah Heydərova, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya, bütövlükdə Azərbaycan hökumətinə və qeyri-hökumət təşkilatlarına minnətdarıq.

Tədbirin təşəbbüskarı olmuş ATƏT-in Bakı ofisinin Layihə Əlaqələndiricisi cənab səfir Ələsgər Şahtaxtinski başda olmaqla qurumun bütün əməkdaşlarına dərin təşəkkürlərimi bildirirəm. Qafqaz Müsəlmanları İdarəsi hər zaman belə təşəbbüsləri dəstəkləməyə, bu yöndə əməli addımlar atmağa hazırdır. Dini lider olaraq, mən nüfuzlu beynəlxalq tədbirə öz xeyir-dualarımı verir, konfransın işinə uğurlar diləyirəm. Hər birinizə Azərbaycandan ən xoş təəssüratlarla ayrılmağı arzulayıram.








**Milli Məclisin sədr müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasında daimi nümayəndə heyətinin rəhbəri Bahar Muradova** çıxış edərək ölkəmizin əsrlər boyu tolerantlıq sahəsində qazandığı uğurların dünyaya nümunə olduğunu diqqətə çatdırdı. O, bildirdi ki, dünyada sülhün, əmin-amanlığın təmini üçün bəşər övladı bir-birini anlamalı, müxtəlif dinlərə, mədəniyyətlərə məxsus cəmiyyətlər bir-birinə qarşılıqlı hörmət şəraitində yaşamalıdır.

Bahar Muradova qeyd etdi ki, Azərbaycan ATƏT-lə əməkdaşlığı müddətində bu təşkilatın dəyərlərinin bütün regionda, o cümlədən ölkəmizdə bərqərar olması istiqamətində çox ciddi addımlar atıb. Tolerantlıq və dini dözümlülüyün Azərbaycan modeli haqqında danışanda xüsusi vurğulamaq lazımdır ki, ölkədə dini və etnik tolerantlığın bir neçə aspektdə əsasları var. Onlardan biri tarixi aspektdir. Azərbaycanın bir neçə minilliyə söykənən tarixinə nəzər salsaq görərik ki, bu ərazidə in-

sanlar etnik və dini kimliyindən asılı olmayaraq, bir-biri ilə qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Münaqişələr, etnik və dini münaqişələr, ərazi iddiaları, təcavüz aktları bizi bir-birimizə qarşı qisas hissi ilə yaşamağa vadar etməyib, əksinə bu vəziyyətdən çıxmağın birgə yollarını axtarmağa çalışmışıq.

Tarixin ən müxtəlif mərhələlərində insanlığımızı, bəşər övladı olduğumuzu anlamağı qoruyub saxlaya bilmişiksə, ilk növbədə, öz xarakterimizə, öz milli kimliyimizə borcluyuq. Azərbaycanda yaşayan əhalinin mütləq əksəriyyəti İslam dininə etiqad bəsləyir. Digərləri müxtəlif dinlərə mənsubdur. Amma burada kimdən soruşsanız, görəcəksiniz ki, heç kim ilk dəfə rastlaşdığı insanın milli və dini kimliyi ilə maraqlanmır, ona insan kimi yanaşır. Biz heç zaman insanları milli və dini kimliyinə görə fərqləndirməmişik. Bu, bizim üstünlüyümüzdür, zənginliyimizdir. Biz bununla fəxr edirik. Bu, bizim yaşam tərzimiz, ifadə formamızdır.








UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birinci katibi **Günay Əfəndiyeva** təşkilatın Baş direktoru **İrina Bokovanın** konfrans iştirakçılarına müraciətini oxudu:

Dünən, 2014-cü ilin 16 noyabr tarixində dünya insan hüquqları və əsas azadlıqlara hörmətdən irəli gələn fəaliyyət prinsiplərinin ifadə olunduğu beynəlxalq tolerantlıq gününü qeyd etdi.

Qeyri-müəyyən dünyamızda, bütün cəmiyyətlərin transformasiyaya uğradığı vaxtda tolerantlıq heç bir zaman bu qədər əhəmiyyətli olmamışdır. Fərqli insanlara, onların tarix və şəxsiyyətinə, mənsubiyyətinə olan nifrət və qorxu bu gün mədəni və dini azlıqların tarixinin təqib olmasına, onların mədəni irsinin talan edilməsinə, dağıdılmasına gətirib çıxarır.

Biz qeyri-tolerantlığa hər kəsə keyfiyyətli təhsil almaq imkanlarının yaradılmasının təşviq etməklə, insan şərəfinə və mədəni müxtəlifliyə hörmət dəyərlərini aşılamaqla cavab verməliyik.

Biz media strukturlarını, onların qarşılıqlı hörmət və anlaşma məsələlərinə göstərdiyi diqqəti dəstəkləməli, stereotip və təhriklərə qarşı mübarizə aparmalıyıq. Biz mədəniyyətlərarası dialoq ilə daha yaxından məşğul olmalı, ənənələr və onların əsasını təşkil etdiyi dəyərlər haqqında qarşılıqlı bilikləri artırmalıyıq.

UNESCO-nun təşəbbüsü ilə həyata keçirilən, 2013-2022-ci illəri əhatə edən Mədəniyyətlərin Yaxınlaşması üzrə Beynəlxalq Dekada bütün dövlət və cəmiyyətlərin sülh naminə dialoq və əməkdaşlığın yenilənməsi üçün möhkəm şəbəkənin yaradılmasına təminat verir. Beynəlxalq Dekadanın Fəaliyyət Planı xalqlar və ölkələr arasında yeni və innovativ təşəbbüslər vasitəsilə yeni əlaqələrin qurulmasına imkan verir və hər kəsi bu prosesdə iştirak etməyə dəvət edir.

UNESCO əmindir ki, Dini Tolerantlığın təşviqi üzrə Beynəlxalq Konfrans bu səylərə kömək edərək, bütün kişi və qadınların şüurunda sülhün müdafiəsi üçün yeni yolların açılmasına şərait yaradacaq.

***İrina Bokova,***
***UNESCO-nun Baş direktoru***







**Vatikanın ölkəmizdəki nünsisi, Arxiyepiskop Marek Solçinski Vatikanın Dinlərarası Dialoq üzrə Pantifik Şurasının sədri, Kardinal Jan-Lui Touranın** müraciətini konfrans iştirakçılarına çatdırdı:

*Çox möhtərəm Şeyxülislam Allahşükür Paşazadə həzrətləri,*
*Hörmətli konfrans nümayəndələri,*
*Xanımlar və cənablar!*

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təşkil olunan **dini tolerantlığın təşviqinə dair Beynəlxalq konfrans** mühüm əhəmiyyətə malikdir və bu tədbir bütün dünyaya din azadlığı ilə bağlı mühüm mesajlar verir. Belə bir mühüm tədbirin məhz Bakıda keçirilməsi isə heç də təsadüfi deyil. Azərbaycan və onun paytaxtı Bakı artıq etnik, dini, mədəni, siyasi və hətta həyata baxışları baxımından daha çoxşaxəli dünyada qarşılıqlı anlaşma və hörmətin təşviq edilməsi məqsədini daşımaqla, dinlərarası və

mədəniyyətlərarası dialoqa dair mühüm konfranslara ev sahibliyi etməklə, əlamətdar ənənəyə malikdir.

Yaşadığımız dünya gündən – gündən qloballaşır, tolerantlığı qarşılıqlı hörmət və ehtiramı təmin etməklə, uzun və çətin, lakin zəruri prosesdə ilk mühüm addım kimi göstərir. Bu baxımdan, biz haqlı olaraq tolerantlığın sərhədlərindən kənara çıxılması haqqında danışa bilərik.

Son illərdə əsas dinlərin rəhbərləri, dini icmalar və vətəndaş cəmiyyəti təşkilatlarının aparıcı nümayəndələri Bakıda ümumi maraq dairəsində olan mühüm məsələlərə dair fikir mübadiləsi aparmaq və dinlərarası dialoq və mədəniyyətlərarası məsələlərdə öz təcrübələrini bölüşmək üçün bir neçə dəfə bir araya gəlmişlər. Bu barədə danışarkən Mədəniyyətlərarası Dialoqa dair Dünya Forumlarını xatırlayıram. Onlardan sonuncusu 2013-cü ilin mayında Bakıda keçirildi.

Bu beynəlxalq konfrans, əvvəldə də qeyd edildiyi kimi, mühüm əhəmiyyətə malik olan mövzu olan tolerantlığın hüdudlarından kənara çıxılması ilə dini tolerantlığın təşviqinin təhlil edilməsi və təkmilləşdirilməsi məqsədini daşıyır. Xüsusilə də, dünyanın başqa dinlərdən olanlara qarşı qərəz, inamsızlıq və nifrətin artması təhlükəsi ilə qarşı-qarşıya olduğu bir dövrdə, dini liderlər, din xadimləri, barışıq yollarını axtarmaq üçün bir araya gəlməlidirlər. Dünyanın əksər yerlərində, insanlara qarşı ayrı – seçkiliyə yol verilir, onlar ittiham olunur, öz vətənlərindən didərgin salınır və dinlərinə görə hətta qətlə yetirilirlər. Bu, dindən cinayət əməlləri üçün sui- istifadə halı və dəhşətli cinayətdir. Dinə heç bir şəkildə zülm və amansızlığın əsaslandırılması və ona haqq qazandırılması üçün istinad edilməməlidir.

Bu baxımdan Papa Francis aşağıdakıları təklif etmişdir: "Bu gün hələ də ayrı-seçkliyin olmasının və hüquqların məhdudlaşdırılmasının yalnız bir fakta, bir kəsin hansısa dinə mənsub olmasına və öz etiqadını yerinə yetirməsinə görə davam etməsi başadüşülməz və qəbuledilməz haldır. Real təqiblərin həqiqətən də dini mənsubiyyətə görə baş verməsi və davam etidirilməsi qəbuledilməzdir!" (Vatikan, Konsistoriya Zalı, 20 iyun, 2014-cü il, "Beynəlxalq Dini Azadlıq və Dəyərlərin Qlobal Toqquşması" adlı konfransın iştirakçılarına müraciətindən).





Mən, bu mühüm Beynəlxalq konfransda iştirak edən hər bir şəxsə çoxmillətli və çoxdinli cəmiyyətlərinizdə qarşılıqlı anlaşmanın, hörmət və dinc yanaşı yaşamanın təşviq edilməsi işində uğur qazanmağınız üçün ən xoş arzularımı çatdırıram.

***Kardinal Jan-Lui Touran,***
***Vatikanın Dinlərarası Dialoq üzrə Pontifiq Şurasının sədri***



Daha sonra **Yekaterinburq və Verxotursk Mitropoliti Kirill Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin** müraciətini tədbir iştirakçılarının diqqətinə çatdırdı :

"Dini tolerantlığın möhkəmləndirilməsi" beynəlxalq konfransının iştirakçılarına.

Qonaqpərvər, özünün çoxəsrlik dini tolerantlıq və xoş qonşuluq ənənələri ilə şöhrət tapmış Azərbaycan torpağında toplaşan "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionunda və onun hüdudlarından kənarda çağırışlar)" Beynəlxalq konfransının iştirakçılarını səmimi qəlbdən salamlayıram.

Təəssüf olsun ki, son aylarda dinlər və konfessiyalararası sülh daha çətin imtahanlar verir. Həyəcanlı xəbərlər həm Ukraynadan, həm də





Yaxın Şərqdən gəlir. Xristianların, eləcə də Rus Pravoslav Kilsəsinin ardıcıllarının haqları kobud surətdə pozulur. Din xadimləri, sadə vətəndaşlar qətlə yetirilir, məbədlər dağıdılır və qəsb olunur.

Aydın məslədir ki, gözlərimiz önündə günü-gündən artmaqda olan zülmü heç bir tolerantlıq şüarları ilə almaq mümkün deyil. XXI əsr olmasına baxmayaraq insanlar hələ də xoşməramlı və mərhəmətli deyillər. Son illərdə qəddarlıqla və vəhşicəsinə törədilmiş cinayətlərin artımında bu daha çox təzahür edir.

Əminəm ki, yalnız aparıcı siyasi və dini liderlərin həmrəy mövqeyi bütün dünyada asayişə ciddi təhlükə olan dini və milli zəmində baş verən münaqişələrin genişlənməsinin qarşısını almağa qadirdir.

Sizə səmərəli fəaliyyət, bütün aktual mövzu və məsələlərdə qərəzsiz diskussiya arzulayıram.

***Kirill,***
***Moskva və Bütün Rusiyanın Patriarxı***




**Tbilisi İlahiyyat Akademiyasının (Gürcüstan) rektoru, Protopresviter Giorgi Zviadadze** isə **Bütün Gürcüstanın Katolikos Patriarxı II İliyanın** müraciətlərini səsləndirdi:

*Qafqaz Müsəlmanları İdarəsinin Sədri, Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.*

*ATƏT-in Bakıdakı Layihə Əlaqələndiricisi, səfir Aleksis Şahtaxtinski cənabları.*

*Hörmətli xanımlar və cənablar!*

Sizləri - konfrans iştirakçılarını, həmçinin, əsl tolerantlığın onlar üçün xüsusi əhəmiyyət kəsb etdiyi bütün hər kəsi ürəkdən salamlayıram.

Mən, əhalisinin əksəriyyətinin Pravoslav xristianları olduğu və XX əsr boyunca aşağıda qeyd olunan Allahın Əmrinə əsasən bildirilən həyat qaydalarına müvafiq olaraq mövcud olan ölkənin dini lideriyəm: "Siz Ulu Tanrını, Allahınızı ürəkdən, bütün ruhunuz və düşüncəniz ilə sev-





məlisiniz... və bundan başqa: qonşunuzu özünüz qədər sevməlisiniz", bu o deməkdir ki, hər bir kəs istənilən insanı onun dini mənsubiyyətinə, etnik mənşəyinə, cinsinə və ya yaşına görə fərqləndirmədən özü qədər sevməlidir...

Hamıya çox yaxşı məlumdur ki, Gürcüstanın ən böyük Çarı, Qurucu David bizimlə birlikdə yaşayan digər dinlərə mənsub olan insanlara və eləcə də, onlar arasında olan müsəlmanlara yüksək hörmətlə yanaşmışdır; onlara müəyyən üstün güzəştli imtiyazlar verilmişdir; onlar öz adət-ənənələrinin qorunmasında onun çox böyük dəstəyini görmüşlər. Bu nümunə yuxarıda qeyd olunanları çox yaxşı təsvir edir.

Ümumiyyətlə, xalqımız indiyə qədər bu prinsipə əməl edərək yaşamışdır və biz inanırıq ki, onların bu tarixinin qorunması məhz sevən ürəkləri ilə bağlıdır. Eyni yanaşma və münasibət, Gürcüstanda yaşayan digər millətlərin və dinlərin gürcülərə qarşı münasibətində də hiss olunur, həmçinin, bu faktdır ki, hər iki tərəfdən olan insanlar hər zaman bir-birinə hörmət və ehtiram bəsləyir və onlar biri digərinin dini etiqadına, inamına və dostluğuna qayğı ilə yanaşırlar. Bu isə unikal tolerantlıq mühitinin yaranmasına gətirib çıxarır.

Biz bu ənənəni bu günə kimi qoruyub saxlayırıq. Bizim müxtəlif dinlərin nümayəndələri və dini rəhbərləri ilə olan əlaqə və münasibətlərimiz hər zaman səmimi və mehriban olmuşdur, xüsusilə də, biz, Azərbaycan, Türkiyə, Küveyt, İordaniya və Fələstində olan müsəlman xalqlarının dini liderləri ilə müntəzəm olaraq görüşlər keçiririk.

Gürcüstandakı dini azlıqlar hüquqi şəxs statusuna malikdir və onlar öz fəaliyyətlərində tamamilə sərbəstdirlər. Biz həmçinin bir-birimiz ilə daha yaxınlaşmaq üçün birgə layihələr də həyata keçiririk.

Bilirsiniz ki, gürcülərin bir hissəsi İslam dininə etiqad edir. Onların əksəriyyəti Türkiyədə, digərləri Azərbaycanda və İranda yaşayır. Öz canımız və qanımız uğrunda, bizim müsəlman gürcülər – gürcü xalqı, lazlar, pereidanlar, ingiloylar - ümumilikdə, müsəlman dünyası bizə qonşudan daha yaxındır.

Bu faktdır ki, hazırda, Gürcüstanda 300-dən artıq məscid fəaliyyət göstərir, bu isə bizim müsəlmanlar ilə dostluğumuzun aydın göstəricisi və sübutudur.

Lakin qeyd etməliyəm ki, müəyyən qüvvələr qəsdən və məqsədli şəkildə qarşıdurma ocaqları yaratmağa və bizim irsimiz olan tolerantlığın çoxillik mühitinə xələl yetirməyə çalışırlar. Biz belə qüvvələrin qarşısını birgə səylərlə ala bilərik.

Bu baxımdan, Bakıda tolerantlıq mühitinin təşviqi ilə bağlı təşkil olunan konfransı yüksək qiymətləndirirəm. Tədbirdə maraqlı müzakirələrin olacağına, xeyirli təkliflərin səslənəcəyinə ümid edirəm.

Beynəlxalq konfransın təşkilatçılatına, iştirakçılarına və tolerantlıq ənənələrinin qorunmasına çalışan hər kəsə uğurlar arzulayıram.

***II İliya,***
***Bütün Gürcüstanın Patriarx-Katolikosu***








**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İrfan Siddiq** çıxış etdi:

*Möhtərəm Şeyxülislam!*
*Xanımlar və cənablar!*

Belə bir konfransda iştirak etmək mənim üçün böyük bir şərəfdir. Zənnimcə bu, çox vaxtında keçirilən bir tədbirdir. Ona görə vaxtında deyirəm ki, hazırda dini zəmində münaqişələr demək olar ki, bütün dünyanı əhatə etməkdədir. Sadəcə Yaxın Şərqdə baş verən hadisələrə nəzər salsaq bunun aşkar nümunəsini görə bilərik. Müxtəlif dinlər arasındakı fərqlər baş verən münaqişələrin əsasını təşkil edirlər. Belə münaqişələr isə təkcə həmin regionu xaosa sürükləmir, ətraf bölgələr üçün də böyük təhlükə yaradır. Təhsilə, tərəqqiyə qarşı çıxan belə qruplar məhz dini zəmində qarışıqlıq salmağa səy göstərir və nifrəti yayırlar.

Biz beynəlxalq ictimaiyyətin nümayəndələri ümumi bir çağırışla üzləşmişik - belə ünsürlərə qarşı necə mübarizə apara bilər, qarşılıqlı hörmət və razılığı necə yarada bilərik? Dini dözümlülüyün təbliği və təşviqi həll yolunun yalnız bir hissəsidir. Qeyd etmək istəyirəm ki, tolerantlıq özü-özlüyündə yetərli amil deyil. Biz fərqlilikləri başa düşmək və onları qəbul etməyi bacarmalıyıq. Düşünürəm ki, biz fərdlərə qarşı yalnız tolerantlıq göstərməklə kifayətlənməməli, onların fərqliliyini anlamalı, qəbul etməli və hörmət bəsləməliyik. Biz onların fərqlilikləri ilə harmoniyada yaşamağı öyrənməliyik. Dinindən, milliyyətindən, irqindən asılı olmayaraq bütün şəxslərin şərəf və ləyaqətini qorumalıyıq. Bu konsepsiya təbii ki, dinlərarası hörmətin yaradılması üçün də istifadə oluna bilər. Çünki dinlər arasında sektaçılıq siyasətinə qarşı mübarizə aparmaq lazımdır. Belə ki, burada fundamental məsələ hər bir şəxsin fərdi hüquqlarının qorunmasıdır. Əlbəttə dinin cəmiyyətdə böyük rolu var. Amma hər bir şəxsin fərdin hüquqları hər dövrdə cəmiyyətin əsasını təşkil etməkdədir.

Ölkəm Azərbaycanda uzun əsrlərdən bəri formalaşan multikulturalizmlə fəxr etməkdədir. Azərbaycan nümunəsi uzun tarix boyunca formalaşmışdır. Azərbaycanın yerləşdiyi coğrafi mövqe buranı əsrlər boyu bir çox xalqların, fərqli din nümayəndələrinin vətəninə çevirib, onlarla ünsiyyət və davranışa sövq edib.

Həmçinin Birləşmiş Krallığı da buna misal göstərmək olar. Orada da fərqli ölkələrdən gəlmiş bir çox insanlar məskunlaşıblar. Bütün bu təcrübələr fikrimcə daha dərindən öyrənilməlidir.

Bu gün biz Azərbaycan nümunəsi barədə danışırıq. Amma mən bir qədər də Birləşmiş Krallıqdakı vəziyyət barədə danışmaq istəyirəm. Mən özüm Londonda pakistanlı mühacirin ailəsində doğulmuşam. Ailəmiz ora qaçqın statusunda gəlmişdi. Daha sonra ölkədə yeni bir deversifikasiya yarandı. Hazırda Birləşmiş Krallıq bu vəziyyətə artıq alışıb. Orada da multikulturalizm dəyərləri mövcud idi. Amma vaxt ötdükcə biz bu fərqlilikdən güclü bir dövlətin və daha açıq bir cəmiyyətin yaradılması üçün istifadə etdik. Nəticədə müxtəlif düşüncə, din və millət nümayəndələri birlikdə asayiş içində yaşamağa başladılar. Bu gün mənim doğma





şəhərimdə sinaqoqlar, kilsələr və məscidlər fəaliyyət göstərir. Bu, cəmiyyətimizi daha da zənginləşdirir, insanların bir-birini daha yaxşı anlamasına yardım edir.

Əlbəttə, multikulturalizmin olması cəmiyyətdə başqa çağırışların olmayacağı demək deyil. Təbii ki, çoxmədəniyyətli cəmiyyətlərdə insanlar arasında fikir ayrılıqları, anlaşılmazlıq təbiidir. Nümunə olaraq islamofobiya göstərilə bilər. Bu, xüsusilə "İslam dövlətinin" yaradılması fonunda baş verir. Amma buna baxmayaraq açıq dialoqun aparılmasına diqqət daha çox yönəldilməlidir. Çünki insanlar bir-birlərinə fiziki xətər yetirmədən, qarşılıqlı ehtiram və anlayışla yaşamalıdırlar. İnanıram ki, bu konfransda da bu məsələlər diqqətdə saxlanılacaq.

Bu tədbiri təşkil etdiklərinə görə ATƏT-in Bakı ofisinə, Azərbaycan hökumətinə və Qafqaz Müsəlmanları İdarəsinə təşəkkürümü bildirirəm. Hamınıza maraqlı və məhsuldar müzakirələr arzulayıram.




**Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov** çıxış etdi:

*Hörmətli Şeyxülislam həzrətləri!*

*Hörmətli sədarət, əziz qonaqlarımız!*

Yaşadığımız belə bir məsuliyyətli dövrdə dünyanın müxtəlif ölkələrindən fərqli din xadimlərinin bu konfransın işində iştirak etməsi tədbirin əhəmiyyətinin göstəricisidir. Bu gün dünyada baş verən proseslər burada toplaşan insanların diqqət mərkəzindədir.

Müharibə həmişə adi insanlara ağır zərbələr vurub, onları fəlakətlə üz-üzə qoyub. Ən böyük zərbə isə cavanlara, gənclərə dəyir. Bu isə yaşlı nəsli, ağsaqqalları daim düşündürüb, onların qayğılarını artırıb. Belə bir aktual mövzuda beynəlxalq tədbirin təşkilinə görə, mən ATƏT-in





Bakı nümayəndəliyinə və Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə xüsusi təşəkkürümü bildirirəm.

Burada çıxış edəcəyim mövzu barədə düşünərkən öz uşaqlığım yadıma düşdü. İkinci Dünya müharibəsi yeni başa çatmışdı. Bugünkü tarixdən düz 100 il əvvəl Birinci Dünya müharibəsi baş vermişdi. Nəhayət Sovet İttifaqının dağılması ərəfəsində İttifaqın heç bir respublikasında müşahidə olunmayan bir vəziyyət Azərbaycanda yaşandı. Vətənim və xalqım müharibə fəlakətlə üz-üzə qaldı, torpaqlarımızın 20 faizi işğal olundu. 1 milyon dinc sakin öz doğma yurd-yuvasından qovuldu. Üzərindən 20 il keçməsinə baxmayaraq həmin insanlar hələ də qaçqındırlar və öz doğma ocaqlarına qayıda bilmirlər.

İndi dünyanın ayrı-ayrı ölkələrində dini zəmində münaqişələrin baş qaldırdığını müşahidə edirik. Biz ağsaqqalları və din xadimlərini bu məsələ çox ciddi düşündürməlidir. Məgər insanlar yenidən müharibə şəraitində yaşamalı, dünyanı münaqişələr öz ağuşuna götürməlidir?! Nə qədər məsum insan qətlə yetirilir, nə qədər insan itki ilə üzləşir, nemətlərdən məhrum qalır, şəhər və kəndlərdə infrastruktur məhv edilir. Ona görə də belə bir konfransın çox vaxtında təşkil olunduğu qənaətindəyəm. Xüsusilə də burada ağıllı insanların, Allah qarşısında məsuliyyət hiss edən şəxslərin toplanması məndə həll yollarının tapılacağına ümidi artırır.

Bu gün dözümlülükdən çox danışılır. Vətənim torpağının 20 faizinin işğal altında olmasına baxmayaraq dözümlülük göstərir, müharibə istəmir. Üzvü olduğum ATƏT-in Parlament Assambleyasında da bu münaqişə dəfələrlə müzakirə olunub, ancaq təəssüf ki, yekun bir qərar qəbul etmək mümkün olmur. Niyə torpaqlarımız işğaldan azad edilmir, nə üçün qaçqın düşmüş insanlara öz evlərinə dönmək üçün şərait yaradılmır?

Beynəlxalq konfransın tribunasından daha bir məsələni qeyd etmək istəyirəm. Dünyada gedən proseslərdə siyasi və ictimai şəxslərin böyük təsiri var. Bizdə belə bir tolerantlıq modelinin bu gün də inkişaf etməsində Ulu Öndər Heydər Əliyevin böyük və əvəzsiz rolu olub.

Həmin siyasəti və uğurlu inkişaf prosesini ölkə Prezidenti, möhtərəm İlham Əliyev cənabları da davam etdirir.

*Əziz konfrans iştirakçıları, qonaqlar!*

Bizim regionlarımızla, şəhərlərimizlə yaxından tanış olun. Onların heç birində insanlara dini, irqi və ya milli mənsubiyyətinə görə fərq qoyulmadığını görəcəksiniz. Azərbaycan gözəl bir gül buketini xatırladır ki, burada hər rəngdə gülə rast gəlmək olur.

Bir daha sizə uğurlar arzulayır, minnətdarlığımı bildirirəm.








Söz **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya** verildi:

*Hörmətli Şeyxülislam həzrətləri!*

*Hörmətli sədarət!*

*Hörmətli qonaqlar!*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi adından sizi salamlayır, uğurlar arzulayıram. Düşünürəm ki, çox aktual və vacib məsələlər barədə iki gün boyunca faydalı müzakirələr gedəcək. "Dini tolerantlığın möhkəmləndirilməsi" adı altında keçirilən bu konfrans hesab edirəm ki, əhəmiyyətli bir iz qoyacaq. Eyni zamanda, Azərbaycanda mövcud olan dini tolerantlıq modelinin digər dövlətlərdə də tətbiqi üçün də müəyyən işlərin görülməsinə rəvac verəcək.

Dini tolerantlıq mövzusunun seçilməsi təsadüfü deyil. Tolerantlıq özündə müxtəlif sahələri əhatə edir, lakin tolerantlıq dedikdə ilk olaraq dini tolerantlıq gözümüzün önünə gəlir. Çünki qədim dövrdə, istər orta əsrlərdə ölkələrarası müharibələrdə din amili çox mühüm rola malik olub, din pərdəsi arxasında müharibələr aparılıb. Əslində bütün səmavi dinlər insanları tolerantlığa və sülhə çağırıb. Ancaq buna baxmayaraq bütün bu hallarda dindən sui-istifadə edilib. Ona görə də dini tolerantlığı təşviq etmək günümüzün ən mühüm çağırışlarından biridir.

Bu gün planetimizdə əhalinin sayı 7 milyardı ötüb. Hələ də dünyanın ayrı-ayrı yerlərində müharibə və münaqişələr davam etməkdədir. Bu gün burada, gözəl bir salonda tədbir keçirdiyimiz bir vaxtda dünyanın 30 ölkəsində müxtəlif zəmində savaş və toqquşmalar baş verməkdədir. Təsəvvür edin ki, XXI əsrin ilk onilliyi, təqribən 14 il ərzində baş vermiş münaqişələr nəticəsində planetimizdə 1 milyon 200 min insan həlak olub. İkinci Dünya müharibəsindən bəri planetimizdə 250-yə yaxın müharibə baş verib. Hazırkı münaqişələrdən yalnız 12-si dini zəmindədir. Bunların bəziləri dinlərarası, bəziləri isə dinlərdaxili münaqişələrdir. Ona görə də dini tolerantlığın təşviqi dedikdə, bunu yalnız dinlərarası deyil, dinlərdaxili tolerantlığa da yönəltmək lazımdır. Bu gün həmin tolerantlığın təşviqi üçün zəruri amillər var. Biz tolerantlığı möhkəmləndirmək üçün nə etməliyik? Konfrans bu suala cavab verməlidir. Buna görə də biz hər bir dinin daxilində baş qaldıran radikalizmə və ekstremizmə qarşı mübarizəmizi gücləndirməliyik. Belə məfhumlar yalnız İslamın adı ilə bağlı deyil. radikalizmi xristianlıqda, yəhudilikdə, hətta ən tolerant din kimi görünən buddizmdə də müşahidə edirik. Ona görə də həmin dinlərdə də belə tolerantlığı təşviq və təbliğ etmək lazımdır.

Bu gün özündə 57 ölkəni birləşdirən ATƏT-in daxilində münaqişələr qalmaqdadır. Dağlıq Qarabağ, Abxaziya, Osetiya, eyni zamanda Ukraynada baş verən hadisələr, İspaniyada basklar, Fransada, Belfastda baş verən hadisələr Avropa daxilindəki milli, etnik münaqişələrdir. Bunlar münaqişələrin yalnız İslam aləmində baş vermədiyinin göstəri-





cisidir. Bu cəmiyyətlər xristianlığı təmsil edirlər. Ona görə də dinlərdaxili tolerantlığın ən alternativ seçimlərdən biri olduğunu deyərdim.

Əgər cəmiyyətdə multikulturalizm varsa, demək tolerantlıq da var. Bunlar bir-birinə bağlı məsələlərdir. Dünyada elmi-texniki tərəqqi elə sürətlə inkişaf edir ki, planetimizin məcazi olaraq çox kiçildiyini deyə bilərik. Planetimizin bir guşəsində baş verən hadisə digər guşəsində anındaca məlum olur. Az zaman kəsiyində insanlar informasiya mübadiləsi apara bilirlər. Dünyanın bir tərəfindən digər tərəfindəki məntəqəni dağıtmaq üçün 2-3 dəqiqə zaman kifayət edir. Ona görə də kiçilən bu dünyamızda biz tolerantlığı daha geniş şəkildə təşviq etməliyik.

Bəziləri soyuq savaşdan sonra münaqişələrin aradan qalxacağını düşünürdülər. Lakin həyat göstərdi ki, soyuq və ideoloji müharibə aradan qalxsa da dünyadakı münaqişələr aradan qalxmadı.

Bu səbəbdən bu konfransın əhəmiyyətini biz yüksək qiymətləndiririk. Bu gün və sabah burada dəyərli müzakirələr aparılacaq, məruzələr dinləniləcək. Möhtərəm Prezidentimiz İlham Əliyevin konfransa ünvanlanan müraciətində Azərbaycandakı tolerantlığa böyük önəm verildi. Tolerantlıq Azərbaycanda yaşayan, azərbaycançılıq ideyasını qəbul edən vətəndaşlar üçün mənəvi bir öhdəlikdir. Başqa ölkələrdə ola bilər ki, bunlar qanunlarla tənzimlənir. Bizdə isə bu, qanun və Konstitusiyada tənzimlənsə də, bu, Azərbaycan xalqının qan yaddaşındadır, onun daxili tələbatıdır və bu tələbatı biz daim yerinə yetirməyə hazırıq. Bizim Ermənistan tərəfindən təcavüzə məruz qaldığımıza baxmayaraq Bakıda erməni kilsəsi qalmaqda davam edir. Azərbaycanda tolerantlığın ən bariz nümunəsi ondadır ki, Şeyxülislam həzrətlərinin sağında və solunda müxtəlif din və konfessiyaların nümayəndələri əyləşirlər. Azərbaycanda tolerantlığın bariz nümunələrindən biri də Qubadakı Qırmızı qəsəbədir ki, sinaqoqun ravinilə məscidin axundu bir yerdə məsləhətləşir, bir süfrə arxasında çay içirlər. Xaricdən gələn qonaqlar da bunu gördükdə Azərbaycanın nə qədər tolerant ölkə olduğunu bir daha əyani müşahidə edirlər.

Mən bir təkliflə çıxış etmək istəyirəm. İstərdim ki, ATƏT hər il "ən tolerant ölkə", "ən tolerant şəhər" müsabiqələri keçirsin, belə araşdırmalar aparsın. Əminəm ki, bu araşdırmalarda Azərbaycan daim birinci olacaq.

Diqqətinizə görə təşəkkür edirəm.








*Sonra tədbir sessiyalarda davam etdi.*

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənlinin moderatorluğu ilə "Azərbaycanda dini tolerantlığın tarixi zəmini və ənənələri" mövzusu müzakirə edildi. Müzakirələrə **Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri, professor Rəbiyyət Aslanova** çıxış etdi:

XXI yüzilin mədəni kosmosu: *yeni qlobal mədəni reallıq və çağırışlar formunda* formalaşır. Yaranmaqda olan qlobal mədəniyyət tipi çeşidli mədəniyyətlərin istər-istəməz reaksiya verməsini şərtləndirir, onların mahiyyətinə də, formasına da təsir edir. Sivilizasiyalararası inteqrasiyanın intensivliyi bir tərəfdən mədəni müxtəliflik amilinə yüksələn diqqəti, digər tərəfdən problemin həm də praktiki həlli mexanizmlərinin müəyyən edilməsini gündəmə gətirmişdir. Qloballaşmanın gerçəkliyi

bundan ibarətdir ki, ən müxtəlif mədəniyyətlər bir-biri ilə daha da "sıxlaşıb", üz-üzə durmuşdur. Böyük meqapolislərdə müxtəlif din və mədəniyyətlərin daşıyıcılarının nisbəti yarıbayarını təşkil edir. Məhz belə məqamda onların qarşılıqlı dinamikasını təhlil edərkən "kulturşok" adlandırılan mərhələni yaşamaq lazım gəlir. Hər bir cəmiyyətdə formalaşan birgəyaşayış prinsipinin əsası kimi tolerantlıq ənənəsinin dəyəri bu mərhələdə qarşıdurma və münaqişələri aradan qaldırmağın mexanizmi kimi çıxış edir. Çoxmilli, çoxdinli cəmiyyətlərdə sabitlik və ünsiyyət - bir-biri ilə son dərəcə sıx bağlı, həm də mürəkkəb münasibətlərdə olan fenomenlərdir və mədəniyyətlərin ahəngdar qarşılıqlı təsirinin təmin edilməsini nəzərdə tutur. Buna hər yerdə və hər zaman nail oluna bilmədiyi üçün mədəniyyətlərarası münasibətlərin siyasi-ideoloji modelləri və mexanizmləri geniş müzakirələr doğurmuşdur.

Müasir dövlətlərin əksəriyyəti mürəkkəb və çoxçalarlı-etnik, dini və irqi mürəkkəbliyə malik olub, mədəni müxtəlif cəmiyyətlər hesab edilirlər. Bu son əsrlərdə həmişə belə olub. Lakin dövlətlərin siyasi-ictimai quruluşlarından asılı olaraq ya etiraf edilib ya da yox. Məsələn, sovetlər dövründə "vahid sovet xalqı" anlayışı olub və başqa millətlər haqda danışmaq yasaq hesab edilib. Bütövlükdə isə demokratiyanın inkişafı ilə dövlətlərin çoxçalarlı olduğu həqiqət qəbul edildi.

Qlobal mədəni məkanda mədəni ünsiyyətin "plyuralist paradiqması" kimi məlum olan "tolerantlıq, multikultur, polikultur, transkultur" yanaşmalar formalaşmışdır. Bu günə qədər müxtəlif qarşılıqlı təsir strategiyalarının irəli sürülməsinə baxmayaraq inteqrasiya probleminin həlli mexanizmləri formalaşmamışdır. Ümumiləşdirmə aparılarsa, üç ssenarinin mövcudluğunu qeyd etmək olar. Bunlar qarşıdurma (toqquşma); dialoq və lokal mədəniyyətlərin "əriyib qarışması" istiqamətləridir. Qeyd edilən bütün mövqelər üçün ümumilikdə səciyyəvi olan xüsusiyyət - "mədəniyyətlərin bir-birinə qarışması" təhlükəsinin mövcudluğu, qloballaşma, miqrasiya və demoqrafik dinamika proseslərinin təsiri altında "mədəni azlıqların çoxluqlara çevrilməsindən duyulan təşviş və narahatlıq" hissidir. Bütün tərəflər mədəniyyətlərin "fərqliliklərinin" saxlanılması tərəfdarıdırlar.





Azərbaycan Respublikası müstəqilliyin əldə edilməsi ilə sivilizasiyaların toqquşması ideyasına qarşı özünün tarixən formalaşmış tolerantlıq modelini, dialoqun məkanı olmaq missiyasını irəli sürdü. Bu çətin, lakin şərəfli missiyanı üzərimizə götürməyi mümkün edən şərtlər sırasında tolerantlıq ön cərgədə durur.

Bu gün xalqımız dünyada özünütəsdiq mərhələsini keçən, daha sabit və sabahından əmin olan cəmiyyətdir və təbii ki, daha çox mənəvi inkişaf və seçim imkanlarına, həm də müstəqillik kimi əvəzsiz təcrübəyə malikdir.

Qloballaşan dünyada milli-mədəni kimliyə olan çağırışlar mövcuddur və onlar könüllü seçimi məsələsi deyil, bu çağırışlara konkret milli cavablar deməkdir. Bu gün milli dövlətlə "qlobal dünya dövləti" (mondializm) adlanan qeyri-bərabər güc üz-üzə durur. Çağırışların bəziləri isə bunlardır: Siyasi çağırışlar - milli dövlətin tədrici olaraq zəiflədilməsi, səlahiyyətlərinin fövqəlmilli strukturlara ötürülməsi; sosial mədəni çağırışlar - milli mədəniyyətlərin etnik komponentinin qabardılması, "ekzotik" planda təqdimatı; etnosiyasi çağırışlar - inkişaf gedişində təbii olan sosial gərginlik məqamlarının informasiya və immiqrasiya siyasəti ilə sivilizasion-mədəni müstəviyə keçirilməsi; mədəni çağırışlar - mədəni hegemoniya və kosmopolit dünyagörüşünün yayılması; geosiyasi çağırışlar- qlobalizm meyillərinə qarşı dura biləcək hər hansı səmərəli regional qurumların yaranmasını əngəlləmək.

Hər bir cəmiyyətin yaradıcı başlanğıcı - fəal, təşəbbüskar, dünyada gedən proseslərə həssas, eyni zamanda mədəni və tolerant şəxsiyyətdir. Rəqabətədavamlı dövlətin mövcudluğunu bu cür vətəndaşdan, onun aydın məqsədlərə, tolerant dünyagörüşündən başlanır.

Yeni yüzillikdə qloballaşma, inteqrasiya və beynəlxalq miqrasiya prosesləri çoxmilli, çoxkonfessiyalı bütün dövlətlər qarşısında multietnik əhalinin yüksək tolerantlıq səviyyəsində nail olmaqla milli konsolidasiyanın təmin edilməsi vəzifəsini irəli sürmüşdür.

Azərbaycan tarix boyu həm bölgədə, həm də qlobal miqyasda baş verən hadisələrin gedişatına təsir edə bilən ölkələr sırasında olmuşdur. Son iki əsrdə isə onun bu yöndə fəallığı dünyanın demək olar bütün qi-

tələrinə yayılmışdır. Bəşəriyyətin mədəni-mənəvi irsinə olan töhfələri ölkəmizi xüsusilə dünyada tanınan dövlətə çevirmişdir. Təbii ki, belə bir ölkədə tolerantlıq ənənələri də çox qədimdir.

Akademik Ramiz Mehdiyev yazır: *"Prezident İlham Əliyevin siyasi fəlsəfəsi bundan ibarətdir ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx ünsiyyət saxlasınlar, problemləri açıq müzakirə etsinlər, öz fikirlərini sərbəst bildirsinlər. İndi Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair bu cür sanballı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilmişdir. Bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır, çünki Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri əsrlər boyu bir ailə kimi yaşamışlar. Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması faktdır və bu, Azərbaycan xalqının güc mənbəyidir. Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir".*

Mənəvi dəyərlər güclü dövlətçiliyin əsas sütunudur. Yalnız davamlı mənəvi ənənələrə malik dövlət öz gələcəyini qurmağa, müasir dünyanın inkişaf və tərəqqi karvanına qoşulmağa qadirdir. Azərbaycan xalqının dünyada etiraf edilən zəngin milli-mənəvi irsinin himayədarı olan dövlətimiz bu irsin qorunması, inkişafı və tanıdılması yönündə örnək sayılacaq fəaliyyətini ortaya qoymuşdur.

Təsadüfi deyil ki, müasir cəmiyyətlərdə birgəyaşayış təcrübələrinin lokal və qlobal səviyyələrdə təşviq edilməsində Prezident İlham Əliyevin şəxsi təşəbbüskarlığı dünyanın diqqət mərkəzindədir. Müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanın təsis edilməsi və Azərbaycan xalqının tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədi ilə Azərbaycan Respublikasında 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlar təşkil edilir.

Tolerant düşüncə tərzi cəmiyyətin tarixi inkişafının məhsulu, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgə yaşayışının nəticəsidir. Tolerantlığın əsasını müxtəlif fəlsəfi-tarixi, mədəni-mənəvi prinsiplər təşkil edir. Tolerantlığın fəlsəfi-əxlaqi kateqoriya kimi məz-





mununu aşkar etmək onun əhəmiyyətini müəyyənləşdirməyə kömək edir.

Əgər tolerantlığın mənəvi qiymətləndirilməsi xeyir və ya şər mövqeyindən aparılırsa, onun siyasi qiymətləndirilməsi artıq başqa prizmadan - müəyyən sosial qrupların maraqlarına uyğun olub-olmaması baxımından həyata keçirilir. Burada yalnız gündəlik güzəran səviyyəsində insanlar arasındakı münasibətlərdə dözümlülük və ya dözümsüzlükdən söhbət getmir. Həm də ictimai həyatın bütün sahələrində (iqtisadi, sosial, siyasi, mənəvi və s.) sosial müstəvilərdə: millətlərarası, mədəniyyətlərarası, sosial qruplar, bütün rütbələrdən olan dövlət məmurları və s. arasında dözümlü münasibətlər də əhatə olunur.

Müasir dövrdə tolerantlıq probleminin daha geniş araşdırılan aspektləri sırasında *tolerantlıq və intolerantlıq (dözümsüzlük), qeyri-tolerantlıq, antitolerantlıq,* tolerantlığın başqa dəyərlərlə (həqiqət, əxlaq, azadlıq, mənəvi seçim və s.) bağlılığı, onun növləri və tiplərinin öyrənilməsi və s. təfərrüatlı təhlilləri qeyd etmək olar.

Müxtəlif sosial, mədəni, iqtisadi, demoqrafik və s. göstəricilərin, xüsusilə də təhsil və tərbiyə sahəsinin tolerantlığın formalaşması, şəxsiyyətin sosiallaşması prosesində tolerantlığın formalaşmasına təsir edən amillər sosioloq və psixoloqlar tərəfindən geniş tədqiq olunur. Tolerantlığın elmi-nəzəri konsepsiya kimi formalaşdırılması və praktiki reallaşdırılması istiqamətində dünyanın, demək olar ki, bütün inkişaf etmiş ölkələrində mərkəzlər, institutlar təsis edilmişdir.

Tolerantlıq və multikulturalizm - mədəni müxtəliflik anlayışları çox yaxın mənalı, sıx bağlı təsir bağışlasa da, eyniyyət təşkil etmir. Əlbəttə, etnik-milli birgəyaşam və ünsiyyət ənənələri qısa müddətdə, birdən-birə formalaşmır. Tolerantlığın formalaşması mürəkkəb fenomen kimi hər yeni gələn nəsillə sıfırdan başlayır. Əsrlər boyu davam edən ənənəviləşən, qərarlaşan ünsiyyət formaları tədricən cəmiyyətdə stabil sosial normalar, əxlaqi və estetik meyarlar sistemi yaradır və düşüncə tərzinin özünə də təsir edir.

Tolerantlıq anlayışının ictimai-fəlsəfi fikir tarixində təhlilinin ən ümumi istiqamətlərini qısa xatırlamaq yerinə düşərdi. Fəlsəfi baxımdan

tolerantlıq dedikdə müxtəliflik və fərqlərin qəbul edilməsi, onlara hörmət və rəğbət nəzərdə tutulur.

Tolerantlıq həm də başqalarının hüquqlarını tanımaq, fərqli düşüncə tərzinə malik olduğunu anlamaq əsasında münaqişə və ziddiyyətlərin həlli imkanlarının axtarılmasını təmin edən əxlaqi imperativ, maksimaldır. Çox hallarda tolerantlıq deyəndə özgəsinin qüsurlarını güzəştə getmək, nəyə isə dözümlü olaraq barış yolunu tutmaq, başqa fikrin mövcudluğunu obyektiv fakt kimi qəbul etmək və s. başa duşulür.

Tolerantlıq həm psixoloji, həm sosioloji, həm də kulturoloji məna və məzmun kəsb edir, mütləq qarşılıqlı ünsiyyət və əlaqələrdə özünü büruzə verir. Digər tərəfdən hələlik bitkin tolerantlıq nəzəriyyəsinin formalaşmasından söhbət gedə bilməz. Nə Qərb elmində, nə də qeyri-qərb məkanında hələlik tolerantlığın mənəvi-əxlaqi dəyər kimi statusu və rolu aydın müəyyənləşdirilməmişdir.

Tolerantlıq cəmiyyətdə və mədəniyyətlər arasında dialoq və sülhün yaranması mexanizmidir. Tolerantlıq mexanizmlərinin formalaşması və reallaşması mürəkkəb bir proses olub, nəinki bütün XXI əsr boyu, hətta əsrlərlə davam edəcəkdir. Bu sahədə müxtəlif ölkələrin təcrübəsi, tolerantlıq ənənələri əvəzi olmayan dəyər kimi öyrənilməlidir. Bu baxımdan ölkəmizdə mövcud olan, azərbaycançılığın birləşdirdiyi tolerantlıq ənənəsi mükəmməl model axtarışları aspektində böyük əhəmiyyətə malikdir.

Bu gün Avropa ölkələrinin üzləşdiyi problemlər ölkəmiz üçün səciyyəvi deyil. Azərbaycan bir çox ölkələr kimi "immiqrant dövlət" deyil. Azərbaycanda etnoslar və konfessiyalararası tolerantlıq ənənəsi "miqrantlara olan ehtiyac" üzərində deyil, tarixən formalaşdığı üçün dərin köklərə malikdir və bütün xalqların tarixi yaddaşı kimi təmələ əsaslanır.

Bir neçə əsrlik yaşı olan "immiqrant" dövlətlərin böhran yaşayan tolerantlıq modellərinə, Azərbaycanın çoxəsrlik təcrübəsinin öyrənilməsi yeni nəfəs verə bilər.

Multikulturalizmin də təməl prinsiplərindən biri kimi-məhz tolerantlıq çıxış edir və bu zaman başqa mədəniyyətlərə biganəlik deyil,





onlara həssaslıq, onları olduğu kimi anlamaq formasında təzahür edir. Adətən, multikulturalizm tolerantlıq səviyyəsinin yüksəlməsinə olan töhfəsi ilə gərəkli hesab edilir.

Proseslərin təhlili nəyi göstərir? Multikulturalizm siyasətinin böhran yaşadığı ölkələr Şərqi Avropa və keçmiş SSRİ məkanı da daxil olmaqla başlıca olaraq avro-atlantik sivilizasiya dövlətləridir. Miqrasiya faktoru əsas amillərdən hesab edildiyi üçün prosesi yalnız siyasi deyil, həm də iqtisadi müqəddəm şərtlər yaratdığını qeyd etmək lazımdır.

Bu gün çoxsaylı ölkələrdə demokratiya müxtəliflik və vəhdət formuluna əsaslanır. Lakin günlərin bir günü buna qarşı çıxan bir ideya ortaya çıxır və bu formul şübhə altına alınır və deyilir ki, hamı eyni olmalıdır.

Avropanı ümumiyyətlə Avropa edən xalqların müxtəlifliyi olmuşdur. Bu olmadan təsəvvür belə etmək olmaz ki, Avropa əvvəllər necə olub və indi necədir. Multikulturalizm - müəyyən mənada bütün müasir cəmiyyətlərin çoxçalarlığını ifadə etmək üçün tətbiq edilən anlayışdır. Bu geriyə dönüşü olmayam labüd prosesdir. Qloballaşma və multikulturalizmin ən çox üz-üzə gəldiyi məqam: milli-mədəni identikliyin qorunub saxlanması məsələsidir. Tarixi-siyasi irs, etnik köklər, ənənə, yaddaş, dil, din və s. kollektiv yaddaşda milli-mədəni birliyin təcəssümü olan bu amillərdən insanın mədəni identikliyi formalaşır. Çoxşaxəli mənbələrdən olan təsirlər müasir insanın "multiidentiklik" şəraitində yaşayaraq "kimliyini" seçim etməsini çətinləşdirir və "identiklik vakumunu" formalaşdırır. Multi - "çoxçalarlı, çeşidli" deməkdir. Lakin bəzən onun "müxtəlifliklərin mexaniki cəmi" kimi anlamı üstünlük təşkil edir və bu yol verilməzdir. Belə halda mövcud ənənələrin yalnız muzey eksponatı kimi qorunması olsa da onların ümumi yeni mədəniyyət kosmosunun formalaşmasında canlı iştirakı, dialoqu və inkişafı mövcud olmur.

Yaşanılan dövr müxtəlif mədəniyyətlərə mənsub olan insanları ünsiyyət və identiklik seçimi qarşısında qoyur. Bu seçimə alternativ yoxdur. Babil qülləsi haqda rəvayəti xatırlayaq. Multukulturalizm unikal, çeşidli fərqliliklərə rəğbət və hörməti nəzərdə tutmaqla yanaşı, uni-

versallıq axtarışlarından da imtina etmir. Belə də demək olar ki, multukulturalizm nöqteyi-nəzərindən mədəniyyətlərin qarşılıqlı əlaqəsi subordinasiya vasitəsi ilə deyil, koordinasiya vasitəsi ilə baş tutur. Ən ümumi şəkildə multikuluralizm mədəni plyuralizmin dəyər kimi qəbul edilməsini və buna görə də, etnik, dini və mədəni azlıqlara dövlətin bərabər sosial status təmin etməsini nəzərdə tutan nöqteyi-nəzərdir.

Multikulturalizm ilkin mənada hər kəsin öz identikliiyinə malik olmaq haqqıdır. Bəziləri deyir ki, multikulturalizm fərqlilikləri mütləqləşdirir, digərlərinə görə, əksinə, multikulturalizm şoxşaxəli identikliyi nəzərdə tutur. Avropalıların "özgələrə" qarşı olan komplekslərinin aradan qaldırılmasına yönəlmiş mültikulturalizm İkinci Dünya müharibəsindən sonrakı onilliklərdə gündəmə gəlmişdir. Avropada bu siyasətin yarım əsrdən bir qədər çox yaşı olmasına baxmayaraq, onun nəticələri göz önündədir. Multikulturalizm ideyalarının və siyasətinin təbliğində tolerantlığın agressiv təbliği mütləq atribut kimi seçilir.

Multikulturalizmin iflası ideyası nədən qaynaqlanır? – sualına iki cavab var: Miqrant probleminin həlli və islam aləmi ilə münasibətlərin tənzimlənməsi problemi; Qərbdə və Avropada baş qaldıran bir tərəfdən qiyamçı və ekstremist meyllərin, digər tərəfdən isə, radikal millətçiliyin və ksenofobiyanın baş qaldırması. Mədəni kimliklərin metamorfozaya uğramasını başlıca olaraq üçüncü ölkələrdən emiqrasiya faktoru şərtləndirir.

Azərbaycanda mədəniyyətlərarası münasibət modelinin özəlliyindən və örnək xüsusiyyətlərindən danışarkən üç əsas arqument əsas kimi diqqəti cəlb edir: Azərbaycanda polietnik və polikonfessional cəmiyyətin tarixən formalaşmış və əsrlərin sınağından çıxmış obyektiv təcrübəsi mövcuddur. Azərbaycanda heç vaxt etnik-dini zəmində qarşıdurma olmamışdır. Müstəqillik dövründə ölkəmizdə tolerantlıq və dialoq ənənələrinin keyfiyyət mərhələsinə yüksəlməsi, gerçək uğurlar göz önündədir. Azərbaycanda mədəniyyətlər arası münasibətlərdə hər bir mədəni birliyin obyektiv təbii haqqı və özünü reallaşdırma ehtiyaclarına dövlət qayğısı siyasəti mövcuddur. Azərbaycançılıq isə bu mövqenin cilalanmış çıxış nöqtəsini təşkil edir.





Azərbaycan bir çox ölkələr kimi "immiqrant dövlət" deyil. Azərbaycanda etnoslar və konfessiyalar arası dialoq "miqrantlara olan ehtiyac" üzərində deyil, tarixən formalaşdığı üçün dərin köklərə malikdir və bütün xalqların tarixi yaddaşı kimi təmələ əsaslanır.

Müxtəliflik və vəhdətin həqiqi fəlsəfəsi dialoq və tolerantlıq, azərbaycançılıq fəlsəfəsidir. Belə dinamik modeldə mədəniyyətlərin mozaikasında hər bir element "donmuş eksponat" vəziyyətində deyil, canlı "çələng" kimi dialoqdadır, inkişaf və sintezdədir.

Multikulturalizm yalnız ideologiya və siyasət müstəvisində qəbul edilərsə mükəmməl ola bilməz. Onun təkmil model olması üçün tarixən formalaşan, neçə-neçə xalqların yaddaşında həkk olunan *mədəni birgəyaşayış modelinin* artıq "genetik" səviyyədə oturması, ünsiyyət və tolerantlıq mədəniyyətinin ənənəyə çevrilməsi lazımdır. Azərbaycan modelində bu var.

Məhz bu anlamda Azərbaycanın tolerantlıq modeli, azərbaycançılıq multikulturalizmdən, şübhəsiz ki, daha üstündür. Multikulturalizm Azərbaycan kimi Şərqin və Qərbin qovşağında yerləşən ölkələrin çoxəsrlik təcrübəsindən bəhrələnə bilər.

Avropa liderləri multikulturalizmin hazırkı formada böhran yaşadığını, şəxsiyyət azadlığına zərərli olduğunu, onun: "dözümsüzlüyə dözümlülük" kimi ağır nəticələrə gətirib çıxardığını hesab edirlər. Konkret ölkənin siyasi lideri belə bir bəyanat vermişdir: "buraya gələnlər xalqın bir hissəsi olmalıdır, əgər bunu istəmirsə, o zaman burada ona yer yoxdur".

Xatırlatmaq istərdik ki, ölkəmizin işğala məruz qalmasına və 1 milyon insanın didərgin həyatı yaşamasına bütün bunlara rəğmən Azərbaycan dövlətinin rəsmi mövqeyi heç bir zaman belə kəskin səslənməmiş, "Azərbaycan xalqının bir hissəsi olmaq istəməyənlərə Azərbaycanda yer yoxdur" deməmişik. Biz bu gün də onlara ən yüksək muxtariyyət verilməsinin tərəfdarıyıq. Budur millətlərarası inteqrasiyanın, tolerantlığın və dialoqun Azərbaycan modeli. Azərbaycançılığın mahiyyəti bundan ibarətdir və inteqrasiya modellərinin böhran yaşadığı dünyada bu modelin alternativi yoxdur.

Çoxçalarlı cəmiyyətlərdə etnik-milli münasibətlərin yollarını arayan Avropada bu gün intensiv müzakirə edilən tolerantlıq məsələləri Azərbaycanda dövlətçilik tarixi və ənənələrimiz tərəfindən həll edilib desək, yanılmarıq. Əgər dünya yeni modellər axtarırsa, Azərbaycanda onlar artıq çoxdan mövcuddur.

Bu gün Şərqdə bəzi dövlətlər dini və mənəvi identiklik böhranı yaşayırlar. Müxtəlif qlobal güclərin də marağı olan qeyri-sabitlik vəziyyəti bu cəmiyyətlərdə vətəndaş konsensusuna nail olunmasına mane olur. Azərbaycan ötən əsrin 90-cı illərində bu problemlə üzləşmişdir. Bu vəziyyətin aradan qaldırılması üçün, qeyd etdiyimiz kimi, azərbaycançılıq ideyası misilsiz rol oynadı. Demokratik, dünyəvi dövlət quruculuğu insanların bir identiklik formasını inkar edərək digərini qəbul etdiyi cəmiyyət demək deyil. Bu, mənəvi və hüquqi sanksiyaların ahəngini təmin edən cəmiyyət deməkdir. İctimai şüurda dünyəvi və dini ideallarin sintezi Azərbaycanda özünəməxsus milli mənəvi identikliyi təmin etməklə, dövlətin müəyyən etdiyi modernləşmə kursunun hədəflərindən biri, cəmiyyətdə inkişaf və sabitliyin qarantıdır.

Dövlət səviyyəsində dözümlülük ədalətli və qərəzsiz qanunvericilik, qanunçuluğa, məhkəmə-prosessual və inzibati normalara əməl edilməsi deməkdir. Tolerantlıq hər bir insana heç bir diskriminasiya olmadan iqtisadi və sosial inkişaf imkanı yaradılmasını tələb edir. Bu gün Azərbaycan Yer kürəsindəki ən demokratik dövlətlərə belə nümunə ola biləcək bəşəri bir tolerantlıq məkanıdır. O, ənənəvi dini icmaların konstruktiv fəaliyyətindən və qarşılıqlı ünsiyyətindən yaranmış dünyəvi hakimiyyət və dövlət-din münasibətlərinin nadir modelinin yarandığı ölkədir. Müqəddəs İslami dəyərlərdən bəhrələnib, qarşılıqlı hörmət, faydalı ünsiyyət və sarsılmaz əməkdaşlığa söykənən tolerantlıq Azərbaycanda çox qədim tarixi köklərə və zəngin ənənələrə malikdir.

Müstəqillik əldə edən respublikamızda ardıcıl davam edən inkişaf prosesləri birmənalı olaraq, həm də mənəviyyat və mədəniyyət sahəsini də əhatə etmişdir.

Azərbaycanda dini etiqad azadlığının təmin edilməsi, din-dövlət münasibətlərinin tənzimlənməsini vacib hesab edən Ümummilli Lider





Heydər Əliyevin Fərmanı ilə 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Son illərdə isə Azərbaycan yalnız iqtisadi tərəqqi göstəriciləri ilə deyil, həm də multietnik cəmiyyət və milli dövlət münasibətlərinin necə tənzimlənməli olduğunu bu illərdə dünyaya nümayiş etdirmişdir. Bu inkişaf mövcud sabitlik, vətəndaş sülhü və mədəni özünüifadə imkanlarının genişlənməsində təzahür edir.

Bu gün biz klassik demokratiya ölkəsi və örnəyi olan qabaqcıl dövlətlərdə etnik, dini və irqi münaqişələrin baş verməsini, bu cəmiyyətlərdə parçalanma olduğunun etiraflarını eşidirik. (Ferqyuson hadisələri və Obamanın etirafı.) Etnik, irqi və dini zəmində ekstremizm və radikalizmin güclənməsi halları təəssüf ki, bu gün Avropada da baş verir və geniş yayılmaqdadır.

Nə qədər qürurverici məqamdır ki, Azərbaycan rəhbərliyi, siyasi liderimiz İlham Əliyev dünya siyasilərinin artıq "vaxtı keçmiş, yanlış" adlandırdıqları "multikulturalizm"in sözün əsil mənasında himayədarına çevrilmiş, onun alternativi olmadığını bəyan etmişdir.

Qafqaz Müsəlmanları İdarəsi, onun sədri, bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin həyata keçirdiyi fəaliyyəti də prezidentimizin bu bəyanatına ən böyük dəstəkdir. Bilavasitə Şeyxin təşəbbüsü ilə təşkil edilən qlobal sammitlər, forum və konfranslar Azərbaycanın dövlət siyasəti olan tolerantlığa böyük töhfələr verir.

Azərbaycan XXI əsrə özünün etnik zənginliyi ilə daxil olaraq polietnik dövlət olduğunu, istər çoxsaylı, istərsə də azsaylı bütün etnoslara eyni dövlət qayğısı ilə yanaşdığını beynəlxalq aləmə sübut edir. Azərbaycan reallığında etnik varlıqlar özlərinə məxsus adət-ənənələrin, din və dillərin, etnik psixologiyanın, maddi və mənəvi mədəniyyətlərin lokal səciyyəvi xüsusiyyətlərini qorumaqla yanaşı, Azərbaycan dilinə, adət-ənənələrinə, mənəvi dəyərlərinə yiyələnmişlər. Bu etnik qruplar nə qədər etnikdirlərsə, o qədər də azərbaycanlıdırlar.

Xalqımız coğrafi və geosiyasi baxımdan həmişə bütün dünyaya açıq olmuş, ən müxtəlif mədəniyyətlər arasında sintez-qovşaq missiyasını daşımışdır. Şərq mədəniyyətini dünya və Avropa mədəniyyətinə və

əksinə, keçid alması üçün Azərbaycan körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdinli, coxdilli Azərbaycan üçün bu ideologiyanı tarixi reallığımızın özü irəli sürmüşdür. Həqiqətən ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal tolerantlıq məkanıdır.

Azərbaycan öz tolerantlıq təcrübəsi ilə bölüşməyə hazırdır. Çünki bu təcrübə hazırda dünyanı düşündürən aşağıdakı suallara cavab verməyə imkan verir:

Ölkənin mədəni müxtəlifliyini onun inkişafına əngəl olmasına deyil, sərvətinə çevirmək necə mümkün olur? Mövcud birgəyaşayışın hansı məlum modelləri mövcuddur? Multikulturalizm modeli yalnız sırf Qərb hadisəsidirmi? Şərq-İslam ölkələrində hansı birgəyaşayış modellərinin müqayisəli təhlili nə göstərir və onların qarşılıqlı bəhrələnməsini necə mümkün etmək olar? Multikulturalizmin böhranı və "panikasının" təməlində nə durur?

Bu gün ölkəmizdə çoxsaylı millətlərin nümayəndələri yaşayır və onların sosial-mədəni problemlərinin həlli həmişə dövlətin diqqət mərkəzindədir. Azərbaycan tarixinin bütün səhifələrində bu ərazidə yaşayan insanların qarşılıqlı hörmət, dostluq əlaqələrini əks etdirən nə qədər çox faktlar varsa, bunun əksini sübut edən sənədlər yox səviyyəsindədir. Müxtəlifliyin vəhdətindən yaranan bu tarixi birliyin əsl dəyəri açıqlanmalıdır. Bu, azərbaycançılığa dayaqlanan multikulturalizm və tolerantlıq fenomendir.








Sonra söz **millət vəkili Çingiz Qənizadəyə** verildi:

Bu gün Azərbaycandakı tolerantlıq modeli dünyaya çox gözəl nümunədir və bu gün ölkəmizin tolerantlıq təcrübəsi digər dövlətlərə nümunə göstərilirsə, öyrənilməsinin vacibliyi qeyd olunursa, deməli, Azərbaycan dövləti bu sahədə uğurlu siyasət yeridib.

Avropa ilə Asiya arasında əməkdaşlıq körpüsü olan və uğurlu siyasəti ilə daim bu körpünün möhkəmləndirilməsinə çalışan Azərbaycanda əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri bir ailə kimi yaşayırlar. İnsanın sərbəst yaşayıb işləməsi üçün bütün azadlıqlarının mövcud olduğu ölkəmizdə bu proses uğurla davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyanın 48-ci "Vicdan azadlığı" maddəsində də qeyd olunur ki, heç kəs öz dini etiqadını və əqidəsini

ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin III bəndinə görə isə "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Konstitusiyada qeyd olunduğu kimi, milli və ya dini azlığın nümayəndəsi olmasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan hər bir kəs ölkəmizdə eyni hüquqlara malikdir. Bu baxımdan ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq yolverilməzdir və bu qanunda öz əksini tapır.

Ölkəmizdə tolerantlığın bariz nümunəsi kimi bir məsələni xüsusi qeyd etmək istəyirəm. Bakıdakı məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar fəaliyyət göstərir, dövlət onları təmir və bərpa etdirir. Hətta erməni-qriqorian kilsəsi də qorunub saxlanılır. Ancaq çox təəssüflər olsun ki, Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində, eləcə də, azərbaycanlıların 1988-ci ilə qədər yaşadığı tarixi torpaqlarında - indiki Ermənistan adlanan dövlətdə bir dənə olsun belə, məscidə rast gəlmək mümkün deyil. Onlar hamısı məhv olunub, yerlə-yeksan edilib. Qeyd etdiyim kimi, Bakının mərkəzində erməni-qriqorian kilsəsi qorunub saxlanıb. Bu, Azərbaycan xalqının böyük dözümlülüyünün, tolerantlığının göstəricisidir. Ermənilərdən fərqli olaraq vandalizm bizim üçün yolverilməz və qəbuledilməz bir haldır.

Təəssüfedici haldır ki, bu gün Azərbaycanın sürətli inkişafı, ölkədəki sabitlik, vətəndaş həmrəyliyi, dini və milli tolerantlıq mühiti bəzi daxili qrupların və xarici qüvvələrin, müəyyən əcnəbi dairələrin maraqlarına cavab vermir. Son zamanlar ölkəmizin hüdudlarından kənarda yaradılan və sistemli şəkildə istiqamətləndirilən müxtəlif missioner təşkilatlar və dini təriqətlər Azərbaycana da ayaq açıb və onlar respublika ərazisində şəbəkələşməyə cəhd göstərirlər. Vətəndaşların müxtəlif yollarla şirnikləndirilməsi, ələ alınması və müxtəlif şəbəkələrdə yerləşdirilməsi, cəmiyyətdə radikal dini ideyaların aşılanması, insanların təfəkkürünün, dünyagörüşünün süni yollarla dəyişdirilməsi, ayrı-ayrı qanunsuz icmaların yaradılması, fəaliyyətinin istiqamətləndirilməsi, mövcud ictimai-siyasi sabitliyin pozulması və s. kimi hallar dini radikal təşkilatların ümumi xarakteristikasını təşkil edir. Həmin radikal dini qruplar məhz gəncləri məqsədli fəaliyyətlərinin əsas oyunçularına çevirməyə cəhd göstərirlər.

Qeyd etdiyim kimi, ölkəmizdə dini etiqad azadlığı mövcuddur, lakin hansısa dinin təbliği zamanı insanların təfəkkürünün dəyişdirilməsi istiqamətində göstərilən cəhdlər yolverilməzdir. Azərbaycanda bütün dini azadlıqlara diqqət göstərilir, dövlətimiz hər zaman tolerantlığın və bütün dini cərəyanların arasında mövcud olan mədəni münasibətlərin müdafiəsinin keşiyindədir.

Din bizim mənəvi sərvətimizdir və biz onu qorumağa borcluyuq. Dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi vacib məsələlərdən biridir. Belə ki, Azərbaycan Respublikasında dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanın yaradılmasına ehtiyac var idi. Bu baxımdan Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 21 iyun 2001-ci il tarixli 512 saylı fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasını təsdiq etdi.

12 il bundan öncə yaradılan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədəki dini icmalar arasında gərginliyin mövcud olmaması, dini ayrı-seçkilik meyllərinin milli münasibət-

lər səviyyəsinin yüksəlməsinə yol verilməməsi, dini mərasim adı altında müxtəlif antidövlət meylli şəxs və qrupların qarşıdurma yaratmaq cəhdlərinin qarşısının alınması, ictimai təhlükəsizlik və sosial sabitliyin qorunması, din-dövlət münasibətlərinin normal səviyyədə tənzimlənməsi üçün mövcud dini duruma lazımi nəzarəti təşkil edir və bu yolda hər cür neqativ halların qarşısının alınması işində müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Son illərdə dinlərarası, mədəniyyətlərarası, sivilizasiyalararası dialoqla bağlı Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin miqyası və bu məqsədlə respublikamıza gələn tanınmış ictimai xadimlər, dini rəhbərlər və görkəmli alimlərin fikirləri Azərbaycanda dini tolerantlıq mədəniyyətinin yüksək olduğunu bir daha sübut edir. Tarixi araşdırmalar göstərir ki, Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində qarşıdurma olmamışdır. Azərbaycan ərazisində yaşayan xalqlar arasında tolerant münasibətlərin formalaşmasında onların tale ümumiliyi amili də mühüm rol oynamışdır. Belə ki, tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə böyük dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış vəziyyət milli-dini fərqlərinə baxmayaraq onları bir-birinə yaxınlaşmağa vadar etmişdir. Lakin Azərbaycanda milli-dini tolerantlığa təhlükə yaradan erməni şovinistləri olmuşdur.

Qeyd edək ki, Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, erməni-qriqoryan kilsəsi azərbaycanlılara qarşı tarixən düşmənçilik toxumu səpən dini-ideoloji mərkəz rolu oynamış və indi də bunu davam etdirməkdədir. Azərbaycana gələn dünya dini liderləri, xüsusilə də qeyri-islam dini liderləri birmənalı şəkildə təsdiq edirlər ki, Azərbaycan cəmiyyəti digər müsəlman ölkələri ilə müqayisədə daha tolerant və dünyəvi bir ölkədir.

Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və onun daha da möhkəmləndirilməsində Prezident İlham Əliyevin rolu danılmazdır. Məhz İlham Əliyevin dini tolerantlığın möhkəmləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlər nəticəsində respublikamızda rəsmi olaraq 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Hazırda ölkəmizdə 1802 məscid, 550-yə yaxın pir və ziyarətgah bərpa və təmir edilərək dindarların ixtiyarına verilmişdir.

Qeyd etdiyim bütün bu faktlar isə təbii ki, Azərbaycanın digər ölkələrə nümunə olacaq qədər tolerant və dünyəvi bir ölkə olduğunu bir daha təsdiqləyir.




Daha sonra **Arxiyepiskop Marek Solçinski** öz fikir və mülahizələrini konfrans iştirakçıları qarşısında bölüşdü:

*Konfransı təşkil edən rəsmi qurumların hörmətli rəhbərləri!*
*Xanımlar və cənablar!*

Çıxışıma başlamazdan öncə, dini tolerantlığın təşviq edilməsi fəaliyyətinə yaxından qoşulan bütün dini liderləri dialoqu təşviq etməyə səsləyən, zorakılığa haqq qazandırmaq üçün dindən istənilən şəkildə istifadəni pisləməyə çağıran Müqəddəs Ata Papa Francisin bütün ən xoş arzularını sizə çatdırmaqdan böyük şərəf duyduğumu bildirmək istəyirəm.

ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, səfir Aleksey Şahtaxtinskiyə və dini tolerantlığın təşviq edilməsinə dair bu beynəlxalq konfransın təşkil edilməsinə töhfə verən bütün şəxslərə, xüsusilə də, çox hörmətli Şeyxülislam Allahşükür Paşazadəyə təşəkkür edirəm.





Konfransda müzakirə edilən məsələlərə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Apostol Nunsisi kimi öz mövqeyim var. Azərbaycandakı dini tolerantlıq mühiti, bu ölkədə yaşayan katoliklərin durumu barədə geniş danışmaq olar. Bu beynəlxalq konfransa dəvətim və çıxışıma şəraityaradılmasının özü Azərbaycanda rəsmi orqanlarla katolik icması arasında əlaqələrin yüksək olmasından xəbər verir.

Azərbaycan, digər İslam ölkələrindən fərqlənir. Çünki bu ölkə həm də dünyəvi dövlət kimi dünyaya inteqrasiya olunmaq xəttini tutub. Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, bütün dünyada özünəməxsus yeri var. Azərbaycanı fərqləndirən digər cəhətlərdən danışarkən bir məsələni də qeyd etmək yerinə düşər. Bu ölkədə şiə məzhəbindən olanlar əhalinin əksəriyyətini təşkil edir. Buna baxmayaraq, İslamın digər məzhəbindən olan insanların da haqları və hüquqları tanınır, hörmət olunur. O cümlədən, digər səmavi dinlərin ardıcılları üçün bərabər imkanlar yaradılır. Azərbaycan Konstitusiyası da dinin dövlətdən ayrı olduğu qeyd edilir. Əsas Qanun olan bu sənəd Azərbaycanın hər bir vətəndaşının dini azadlıqlarını qoruyur, dinindən asılı olmayaraq hər kəsə bərabər imkanlar tanıyır. Bugünkü Azərbaycan tolerant ölkədir, burada müxtəlif dini icmalar dinc və sakit şəraitdə yaşayır.

Elə ona görə də Azərbaycanda katolik kilsəsinin mövcudluğu heç kimdə təəccüb doğurmur. Bu gün Azərbaycan Müqəddəs Taxt-Tac ilə yüksək səviyyəli əlaqələrə malikdir. Müqəddəs Taxt-Tac və Azərbaycan Respublikası arasındakı diplomatik əlaqələr 1992-ci ilin may ayında qurulub. Yerli Katolik icması, həm Müqəddəs Taxt-Tacın, həm də beynəlxalq qanunların tələblərinə uyğun olaraq qarşılıqlı hörmət, ehtiram, dostluq və ümumi maraqlar üzərində fəaliyyət göstərir.

Onu da deyim ki, Azərbaycandakı Katolik icması çox da böyük deyil. Hələ sovet dövründə burada icma fəaliyyət göstərib, lakin ötən əsrin 30-cu illərində Stalin repressiyası katolik icmasından da yan keçməyib. Bakıdakı neo-Qotik Katolik Kilsəsinin dağıdılıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra icmamız yenidən fəaliyyətə başlaya bilib.

Roma Papası II İohan Pavel 2002-ci ildə Azərbaycana yaddaqalan səfər edib. Katoliklərin, xristianların və müsəlmanların birgə iştirakı ilə təntənəli liturgiya keçirib. Həmin tarixi səfər zamanı mərhum Prezident Heydər Əliyevin xeyir-duası ilə Bakıda katolik kilsəsinin inşası üçün ərazi ayrılıb. Bu gün həmin ərazidə tikilən kilsədə Azərbaycandakı katoliklər dini ayinlərini, mərasimlərini rahat şəkildə keçirir, bir-biri ilə görüşür və ünsiyyət qururlar.

Bu il katolik kilsəsinin müqəddəs elan etdiyi Papa II İohan Pavelin həmin unudulmaz səfərini təsadüfən xatırlamadım. Bu səfər, Azərbaycandakı katoliklərin birləşməsində irəliləyiş və böyük dönüş nöqtəsi oldu. O zaman səhhəti ilə bağlı böyük problemlər yaşayan Papanın və katoliklərin çox az sayda yaşadığı ölkəyə səfəri, onlarla görüşməsi həqiqətən də möhtəşəm addım idi.

Bayaq xatırlatdığım kimi, Azərbaycanla Müqəddəs Taxt –Tac arasında diplomatik əlaqələrin 22 illik tarixi var. 2011-ci ildə isə bu münasibətlərdə xüsusi bir səhifə açıldı. Məhz həmin il Azərbaycanda katolik kilsəsinin hüquqi statusuna dair Müqəddəs Taxt-Tacla Azərbaycan Respublikası arasındakı Beynəlxalq Saziş qüvvəyə mindi. Bu saziş digər məsələlər ilə yanaşı, katolik dininə etiqad etmək azadlığını, eləcə də, katolik kilsəsinin kilsə qanunvericiliyinə əsasən fəaliyyətini təşkil etmək və öz missiyasını yerinə yetirmək hüququ verir. Bundan əlavə, Azərbaycan Respublikası Katolik Kilsəsinin və onun bütün qurumlarının hüquqi statusunu tanıyır, qeydə alır, yerli katolik icması və Müqəddəs Taxt-Tac arasındakı sərbəst əlaqəni təmin edir. Eləcə Müqəddəs Taxt-Tacın sərbəst şəkildə Azərbaycanda katolik icmasının rəhbərini seçmək hüququna hörmətlə yanaşır. Nəhayət, bu Saziş, dini personala yaşayış və iş icazəsinin verilməsi məsələlərini tənzimləyir. Şübhəsiz ki, bu beynəlxalq səviyyəli sənəd, Müqəddəs Taxt-Tacla Azərbaycan arasında mövcud olan səmimi əlaqələri daha da möhkəmləndirir və möhkəmləndirəcək.

Müqəddəs Taxt-Tac və Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olmasına sübut kimi Vatikanın ali nümayəndələrinin Bakıya və digər regionlara çoxsaylı səfərlərini xatırlatmaq olar. Bu səfərlərin





bəzilərini qeyd etmək yerinə düşər. 2008-ci ildə Müqəddəs Taxt-Tacın o dövrkü Dövlət Katibi, Kardinal Tarcisio Bertonenin rəsmi səfəri yadda qalan oldu. Səfər zamanı o, yeni katolik kilsəsinin təntənəli açılışını həyata keçirib. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və onun xanımı, Mehriban Əliyeva, hörmətli Şeyxülislam həzrətləri, digər dinlərin rəhbərləri iştirak ediblər.

Sonrakı illərdə Kardinal Jan Luis Touran, Giovanni Lajolo və digər rəsmilər Bakıya səfər edib, görüşlər keçiriblər. Bu sırada , Papa II İohan Pavelin Azərbaycana səfərinin 10 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etmək üçün Bakıya gələn Kardinal Fernando Filoninin səfərini qeyd etmək olar.

Müqəddəs Taxt-Tacın digər ali nümayəndələrinin səfərləri, hörmətli Şeyxülislam Allahşükür Paşazadənin dinlərarası dialoqun təşviqinə dair təqdirəlayiq səyləri qarşılıqlı əlaqələri daha da gücləndirib. Şeyxülislam həzrətləri tez-tez müxtəlif tədbirlər, konfranslar təşkil edərək fəqli etiqadlara mənsub dini xadimləri bir araya gətirir. 2010-cu ildə Bakıda keçirilən Dünya Dini Liderlərin Sammitini buna misal göstərmək olar. Sevindirici haldır ki, Vatikanı həmin Sammitdə Dinlərarası Dialoq üzrə Pantifik Şurasının rəhbəri, Kardinal Jan Lui Touran təmsil edib.

Sonda bir daha qeyd edim ki, Müqəddəs Taxt-Tacla Azərbaycan Respublikası arasındakı sıx əlaqələrə dair ən son nümunə mədəni əməkdaşlıqdır. Bu sahədə qarşılıqlı təcrübə mübadiləsi aparılır, Mədəniyyət üzrə Pantifik Şurasının rəhbəri, Kardinal Canfranco Ravazi iki dəfə Azərbaycana səfər edib. Ölkənin birinci xanımı, Mehriban xanım Əliyeva ilə və Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi ilə görüşlər keçirib. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qarşılıqlı əlaqələrə öz töhfəsini verir, müxtəlif layihələr həyata keçirir.

2012-ci ilin payızında Vatikan və Roma auditoriyası üçün nümayiş etdirilən sərgi məhz bu əməkdaşlığın nəticəsində hazırlanıb. Bu mədəni təqdimat Müqəddəs Peter meydanında Braccio di Carlo Magnoda keçirilib.

Həmin sərgidə xristianlıqla bağlı eksponatların da nümayiş etdirilməsi heç də təsadüfi olmayıb, çanki təşkilatçılar xristianlığın Azərbaycan milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi göstərmək istəyiblər. olduğunu vurğulamaq istəyirdilər.

Ümid edirəm ki, qısaca olaraq qeyd etdiyim bu məsələlər bir daha göstərdi ki, Azərbaycanda katolik dininin ardıcıllarına həmişə olduğu kimi, bu gün də tolerant, xoş niyyətli bir münasibət var. Xüsusilə də, son 20 il ərzində Müqəddəs Taxt-Tacı Azərbaycanla birləşdirən əlaqə qarşılıqlı hörmət, dostluq və ümumi maraqlar əsasında qurulub. Azərbaycan bir daha sübut etmək istəyir ki, bütün səmavi dinlərin ardıcılları ilə mehriban münasibətin qurulması, qarşılıqlı əlaqələr bu gün olduqca vacibdir. Mən inanıram ki, belə bir yanaşma və münasibət, dünyanın bütün dinlərinə dərin hörmətdən başlayır və buna görə də, bugünkü Azərbaycan hər yerdə yüksək şəkildə qiymətləndirilir.








Sonra söz **Rus Pravoslav Kilsəsi Sinodunun kilsə və cəmiyyət arasında qarşılıqlı münasibətlər şöbəsinin müdiri, protoiyrey Vsevold Çaplinə** verildi:

Belə bir mühüm məsələlər müzakirə olunan konfransda iştirak etməyi özümə şərəf bilərəm. Xüsusilə və fərəhlə qeyd edim ki, Azərbaycanda Rus Pravoslav Kilsəsinin icmaları dövlət tərəfindən hər cür imtiyaz və dəstək aldır, daim diqqət və qayğı ilə əhatə olunur. Bu cür gözəl zəmin yartdığına görə möhtərəm Prezident İlham Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinə də təşəkkürümü yetirirəm.

Azərbaycan yalnız formal mənada yox, həqiqətən də çox gözəl bir məkandır. Burada müxtəlif din ardıcılları, fərqli millət nümayəndələri sülh və əmin-amanlıqda, dostluq mühitində yaşayır və fəaliyyət göstərir.

Müxtəlif əqidələrdə olmalarına baxmayaraq, ortaya qoyulan bu dostluq, sülhpərvərlik və tolerantlıq həqiqətən də təqdirəlayiqdir. Bu cür münasibətlərin hələ qarşıdakı əsrlərdə də bizə nümunə olacağını düşünürəm.

Bu konfransda dinlərarası və mədəniyyətlərarası dialoq mövzusunda çıxış edənlər, həmçinin buradakı iştirakçılarla bizim bir neçə dəfə görüşlərimiz olub. Çoxillik dostluğumuz, bir-birimizi getdikcə yaxından tanımağımız daha da yaxınlaşmağımıza şərait yaradır. Lakin ətrafımızda baş verən hadisələr bizi sakit oturmağa qoymamalıdır. Burada məsələ yalnız terrorçuluq və ya ekstremizmdə, yeni-yeni münaqişələrin alovlanmasında deyil. Tarix heç vaxt bitmir, o hər an yenidən başlayır. Bu istiqamətdə fərqli vektor və variantlara malik olur. XXI əsrin Qərb demokratiyasını bərqərar edəcəyini və yalnız bu istiqamətdə gedəcəyini düşünmək sadəlövhlük olardı. Qərb modeli maliyyə, istisadiyyat, mədəniyyət və s. sahələrdə də yeganə variant kimi təqdim etmək yanlış fikir olar. İnsanlar yeni modellər və variantlar tələb edirlər. Bu tələb həmçinin din və ədalət sahəsində də mövcuddur. Belə bir tələbdə yeni iqtisadi və s. qurumların, modellərin yaranacağı labüddür. Belə ki, qlobal güclər və böyük qurumlar fərqli variantların axtarılmasını labüd olduğunu görəcəklər.

Bu gün biz tarixin yenidən təkrarlandığını görürük. Bütün bunlar isə bizim möhkəm görünən binamızın təməlini sarsıtmağa və zəiflətməyə başlayır. Bu da bizi narahat etməy bilməz. Bütün bunlar bizdən diqqətli olmağı, yeni modellərin, çıxış yollarının axtarılmasını tələb edir.

Fəal ictimai qurumlar öz modellərini təklif etməkdən çəkinməməlidirlər. Bu alternativlərin ortaya çıxıb cəmiyyətə təqdim edilməsi üçün həmin ictimai qurumlar cəsarətli olmalı və səslərini eşitdirməyi bacarmalıdırlar. Biz də onları dinləyərək faydalı və təhlükəli cəhətlərini təhlil etməliyik. Güc və şiddətlə heç bir modeli dəyişmək və ya bərqərar etmək çıxış yolu deyil. Bu cəhətdən biz cəmiyyətdəki müxtəlif icmaların arasında razılıq, dialoq və qarşılıqlı anlayış mühüti formalaşdırmaqla uzun müddətli və sabit sülh, asayiş və rifah mühüti formalaşdıra bilərik. Məhz bu modelin tətbiqilə bir şox Avrasiya ölkəsi, həmçinin





Rusiya və Azərbaycan da tarixin növbəti gələcək səhifəsini yaza biləcəklər.

Hamınıza sülh və mərhəmət arzulayıram.

*Təşəkkür edirəm.*

*Sağ olun!*




**Azərbaycan Dağ Yəhudiləri icmasının sədri Melix Yevdayev** çıxış etdi:

*Əziz və hörmətli konfrans iştirakçıları!*

Mənim bu konfransda iştirakım yəhudi icmasının Azərbaycanın tam hüquqlu vətəndaşları olduğunun bariz nümunəsidir. Bu ana qədərki çıxışlara qulaq asmaqla belə bir qənaətə gəlirəm ki, Azərbaycanda tolerantlıq dünəndən başlamayıb. Azərbaycanda hər ilin 365 günü tolerant günlərdir. Belə ki, Azərbaycandakı tolerantlıq və onun modeli artıq dünyaya yayılmaqdadır. Bu tolerantlıq modeli Azərbaycan xalqının kökündən, onun yoğrulduğu xəmirindən və onun dahi şəxsiyyətlərindən yaranıb. Bu xalqın tolerantlığı Nizami dühasından, Nəsimi hikmətindən, Füzuli naləsindən, Xətai şücaətindən və Babək qılıncından ilham alıb. Budur Azərbaycan xalqının ruhunda, qəlbində, gözündə və dilində





olan tolerantlığın təməli. Ona görə də bu xalqın qanındakı, sümüyündəki və iliyindəki tolerantlıq onlarla birgə dünyaya yayılmalıdır.

Məndən əvvəl çıxış edən Rəbiyyət xanım Aslanova Azərbaycanda yaşayan yəhudilər barədə gözəl söhbət açdı. Qeyd edildiyi ki, biz yəhudilər uzun əsrlərdən bərdir ki, Azərbaycandayıq. Azərbaycan bizim Vətənimizdir və bunu biz bütün dünyaya böyük qürur hissilə bəyan etmişik. Hər bir Azərbaycan yəhudisi harada olmasından asılı olmayaraq həmişə özünü azərbaycanlı sayır və Azərbaycanı öz doğma Vətəni olaraq tanıtdırır.

Şair gözəl deyib:

*Sudan ayrılınca candan ayrılan*
*Eşqi balıqlardan öyrənmək gərək.*

Bəli, hər birimizin qəlbində Azərbaycan eşqi, Azərbaycan Vətəni var. Xəmiri Üzeyir musiqisilə, muğamla yoğrulmuş bir şəxsin tolerant olmaması necə mümkündür?! Allah Bəxtiyar Vahabzadayə rəhmət eləsin! Deyirdi:

*Daş ürəklərdə yanıb, daşları yandırdı muğam,*
*Haqqa düşmən olana haqqı tanıtdırdı muğam.*
*Nə güman eyləmisən ondakı tilsimləri sən,*
*Kürü alı ilə qurutdu, salı yandırdı muğam.*
*Onun hər güşəsi bir canlı kitab,*
*keçilən günləri bizə bir-bir qandırdı muğam.*
*Siz məni dəfn eyləyin "Zabul-segah"ın mayəsinə*
*Deyirəm bəlkə məni bir gün oyandırdı muğam.*

Dünyasını dəyişən şəxsi yalnız İlahi qüvvə geri qaytara bilər. Əgər muğam da ilahidirsə və dünyasını dəyişmişi həyata qaytara bilirsə, o muğamı yaradan xalq, məmləkət, Azərbaycan özü ilahidir. Tolerantlıq yüksək mədəniyyətin təzahürüdür deyirlər. Bunu Ulu Öndərimiz Heydər Əliyev deyib.

Mən bir haşiyəni qeyd etmək istərdim, Bakıda keçirilən Humanitar Forumda biz Aleksandr Ata ilə yanaşı dayanmışdıq. Möhtərəm Prezident yanımızdan keçəndə dayandı və bizə yaxınlaşdı. Bizdən Şeyxülislam həzrətlərini soruşdu. Biz də dedik ki, konfrans salonundadır. Prezident həzrətləri yanındakı qonaqlara bizi təqdim elədi və bundan sonra yoluna davam etdi. Məgər bu yüksək mədəniyyətin təzahürü deyilmi?! Biz ikimiz həmin Forumun 700 nümayəndəsi arasında idik. Prezidentdəki yüksək mədəniyyət onu bizdən yan ötüb keçməyə qoymadı.

Əziz dostlar! Əlbəttə ki, dünyanın gələcəyi dinlərarası, mədəniyyətlərarası və millətlərarası dialoqdan asılıdır. Bu dialoq bir-birinin dininə, mədəniyyətinə və adət-ənənəsinə hörmətlə yanaşmaqla aparılmalıdır. Din xadimləri yalnız öz dinlərini deyil, digər din mənsublarına da qarşılıqlı hörmət və ehtiramı ardıcıllarına aşılamalıdırlar. Biz gələcəyimiz olan gənclərimizi bu ruhda tərbiyə etməliyik.

Konfransda mənə yaradılan bu imkana görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

*Sağ olun!*








Söz **Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Azad Məmmədova** verildi:

*Hörmətli Sədr.*
*Hörmətli qonaqlar.*
*Xanımlar və cənablar.*

Prezident İlham Əliyevin Beynəlxalq Multikulturalizm Mərkəzinin təsis edilməsi ilə bağlı 2014-cü il mayın 15-də fərman imzalanması haqqında sizi məlumatlandırmaqdan böyük məmnunluq duyuram. Bu addım, ölkə rəhbərliyinin Azərbaycanda və bütün dünyada multikulturalizm ruhuna olan güclü bağlılığını göstərir və həmçinin, tarixi əhəmiyyətə malik addım olduğunu bir daha sübut edir.

Ümummilli Liderimiz Heydər Əliyevin siyasi iradəsi, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin həm siyasi, həm də hüquqi baxımdan bərpa edilməsini təmin edib. Məhz Heydər Əliyevin müdrik siyasəti sayəsində bu ənənələrin qorunması ölkənin əsas prioritetlərindən birinə çevrilib.

Ümummilli Lider Heydər Əliyev multikulturalizm siyasətini ölkənin demokratik inkişafının ayrılmaz tərkib hissəsi hesab edirdi. O, etnik azlıqların hüquq və azadlıqlarının, eləcə də, etnik – mədəni və dini dəyərlərin qorunmasına əsas insan hüquqları və azadlıqları çərçivəsində baxırdı.

Hazırda Prezident İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunması məqsədini daşıyan bu siyasəti uğurla davam etdirir. Multikulturalizmi dövlət siyasəti, həyat yolu hesab edərək, Prezident İlham Əliyev bu sahədə beynəlxalq əməkdaşlığa xüsusi önəm verir. Bizim toplaşdığımız konfrans da bu məqsədə nail olmaq üçün edilən cəhdləri göstərən digər bir tədbirdir.

Eyni zamanda, qeyd etməliyəm ki, Heydər Əliyev Fondu da həmçinin bütün dünyada bizim multikulturalizm və tolerantlıq ənənələrimizin təşviq edilməsinə böyük töhfə verir. Fond Azərbaycan multikulturalizminin onun hüdudlarından kənarda təşviq edilməsi üçün yeni perspektivlər açan çox mühüm layihələr həyata keçirir.

Bütün bu inkişaf prosesləri sayəsində, heç kəs Beynəlxalq Multikulturalizm Mərkəzinin Bakıda təsis edilməsi faktından təəccüblənməməlidir. Çünki Azərbaycan və azərbaycanlılar öz uzun müddət davam edən multikulturalizm və tolerantlıq ənənələri ilə həqiqətən də bu mərkəzi açmaq üçün mənəvi haqqa sahibdirlər. Biz inanırıq ki, Azərbaycan multikulturalizm sahəsində uğurlu təcrübəni təqdim edəcək. Biz hər zaman bu təcrübəni dünyanın qalan hissəsi ilə paylaşmağa hazırıq.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi öz fəaliyyətini iki istiqamətdə həyata keçirəcək. Bunlardan birincisi, müxtəlif sahələrin perspektivlərindən multikulturalizmin öyrənilməsi ilə əlaqəli tədqiqat yönümlü fəaliyyətlər olacaq. Bu baxımdan, biz, Azərbaycanda multikulturalizm ənənələrinə və multikulturalizmin qlobal təcrübələrinə dair sistemli tədqiqatın təşkil edilməsini planlaşdırırıq. Bu məqsədlə, Mərkəz, elmi konfranslar, seminarlar, dəyirmi masa müzakirələrinin keçirilməsini, eləcə də, kitabların və monoqrafiyaların nəşrinin təşviq edilməsini planlaşdırır. Multikulturalizmə dair resenziyalı elmi jurnalın yaradılması da həmçinin gələcək layihələrimizin bir hissəsidir. Mərkəz həmçinin, universitetlərdə bakalavr və magistr səviyyələri üçün "Multikulturalizm" üzrə yeni kursların təşviq edilməsini planlaşdırır. Hazırda, biz növbəti tədris ilindən başlayaraq bu layihənin həyata keçirilməsi üçün Bakıdakı ali təhsil müəssisələri ilə əməkdaşlıq edirik. Biz həmçinin, orada tədris olunacaq "Azərbaycan Multikulturalizmi" üzrə kursun keçilməsi perspektivlərini xarici universitetlər ilə müzakirə edirik. İkinci istiqamət, Azərbaycanda etnik və dini qrupların nümayəndələrinin mədəni irsinin qorunması və təşviq edilməsi məqsədini daşıyan layihələri əhatə edəcək. Müxtəlif milli və beynəlxalq layihələr, eləcə də, mahnı müsabiqələri, konsertlər, festivallar, xeyriyyə tədbirləri, təsviri və tətbiqi incəsənət sərgiləri Mərkəz tərəfindən keçiriləcək.

Mərkəzimiz dünyanın hər yerindən olan universitetlər, akademiklər, ziyalılar və dövlət xadimləri ilə əməkdaşlığa hazırdır. Əlbəttə, biz sizi, hörmətli qonaqlarımızı da tərəfdaşlarımız kimi görməyi, eləcə də, təkliflərinizi və layihələrimizdə fəal iştirakınızı görməyi səbirsizliklə gözləyirik.

*Sağ olun!*




**Şimali Qafqaz Xalqlarının Əlaqələndirmə Şurasının sədri, Müfti İsmayıl Berdiyev** çıxış etdi:

Bu konfrans həqiqətən olduqca vacib, yaşayışımızı təmin edən vacib məsələlərə toxunur. Müzakirə olunan problemdən çıxış yolunu təbii ki, müştərək fikirləşib tapa bilərik. Tolerantlıq, yəni dözümlülük bu günümüz üçün həqiqətən də aktual məsələdir. Bütün müqəddəs kitablarda qeyd olunduğu kimi, insanı anlayaraq qəbul etmək lazımdır. Təkcə Qurani-Kərimdə deyil, digər səmavi kitablarda da insana öz qonşusunu və yaxınlarını sevmək barədə əmr olunur. Təəssüf ki, bu əmrlərə hər zaman və hər yerdə əməl olunmur. Bunun da səbəbləri var. Səbəblərdən biri də odur ki, dünyada və bütün yer üzündə iblis var. Bu iblisin adının nə olması fərq etməz, biz ona istər iblis, istər şeytan, istər dəccal, nə adı veririksə verək, o var və öz şər əməllərini hər yerdə davam etdirir. Bəzi





dövlətlərin bir-biri ilə münasibətindəki gərginlik, siyasi qarşıdurmalar, silahlı münaqişələr və müharibələr buna sübut deyilmi?

Bu, Azərbaycana qarşı yeridilən siyasətdə də özünü büruzə verir. Ölkənin ərazi bütövlüyünə qəsd edilib, 20 ildir ki, insanlar Qarabağdakı doğma yurdlarına qayıda bilmir. Eyni zamanda, əvvəllər bizdə - Şimali Qafqazda baş verənləri də siz çox gözəl bilirsiniz. Allah-Təalaya şükürlər olsun ki, problemləri həll edə bildik. Yəqin Allahın istəyi belə imiş ki, ölkəmizin başçısı dinə bağlı bir insan, imanlı şəxs olsun və bizi narahat edən problemlər yavaş-yavaş öz həllini tapsın. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkədə yaşayan bütün insanların, dinindən, millətindən asılı olmayaraq, hər bir kəsin demokratik şəraitdə, firavan yaşaması üçün çalışır.

Şimali Qafqazda bir şəxsi daim ehtiramla anırlar. Bu, Əhməd Hacı Kadırovdur. O, bütün həyatını insanların bu ərazilərdə əmin-amanlıqda yaşaması üçün sərf etdi. na nail olmaq üçün həsr etmişdir. Hazırda isə onun yolunu oğlu Ramzan Kadırov uğurla davam etdirir. Təsadüfi deyil ki, Çeçenistanda əmin-amanlıq hökm sürür. Əvvəllər Qroznı şəhərində olanlar indi getsələr həmin şəhəri tanımazlar. Çünki, tərəqqi və inkişaf edən Qroznı Avropa ölkələrinə bənzəyir.

Sizə minnətdarlığımı bildirərəm. Allaha əmanət olun.

*Əs-salamu aleykum və rəhmətullahu və bərakatuh!*




**Bakıdakı Avropa yəhudiləri dini icmasının sədri Gennadi Zelmanoviç** çıxış etdi:

*Öncə konfrans iştirakçılarını ürəkdən salamlayıram.*

Məndən əvvəl çıxış edən Melix Yevdayevin Azərbaycan xalqı haqqında gözəl sözlərinə kiçik bir əlavəm var. 2500 ildir Azərbaycan Dağ yəhudiləri icması bu torpaqda yaşayır. Həmçinin Gürcüstan və Avropa yəhudiləri də təqribən 200 ilə yaxındır ki, Azərbaycandadırlar. Avropa icma nümayəndələri Rusiya, Belarus, Ukrayna, Polşa mənşəli şəxslərdir. Bakıda iqtisadi və ticari inkişaf, eləcə də neft sıçrayışı zamanı bir çox Avropa ölkələrindən yəhudilər buraya gələrək Azərbaycanda məskunlaşdılar. İkinci Dünya müharibəsi illərində də burada yəhudi ailələri məskunlaşdı. Onlar çox gözəl qarşılandı və onlar üçün yaxşı şərait yaradıldı.





Bu gün Azərbaycan Prezidenti İlham Əliyev cənablarının, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin qayğıkeş münasibətilə buradakı tolerantlıq mühiti inkişaf etdirilir. 2013-cü ildə Bakıda Avropa yəhudilərinin sinaqoqunun inşa edilməsinə sponsorlar tərəfindən razılıq alındıqda bunda Qafqaz Müsəlmanları İdarəsinin, Katolik və Ortodiks kilsələrinin də xüsusi dəstəyi vardı. Sinaqoq inşa edildikdən sonra onun açılışında da biz bu icmaların rəhbərlərini yanımızda gördük. Sinaqoq açılışlarında iştirak etdiyim bəzi ölkələrdə bunu müşahidə edə bilmədim. Orada yalnız dövlət rəhbərliyi və yəhudi icmaları açılışda təmsil olunurdular. Mən həmin tədbirlərdə Bakıdakı bu təcrübəni onların diqqətinə çatdırdım. Çünki açılışı həyata keçirilən məscid də, sinaqoq da, kilsə də Allahın evidir. Bu ümumi naliyyətimizdir. Bizim orada iştirakımız ümumi bir ənənəmiz olmalıdır.

Azərbaycanın tolerantlığı artıq xalqın öndə olduğu bir mərhələdir. Bizim daha sıx və qardaş münasibətlərimiz var, bu inkişaf etməkdədir və bütün dünya üçün nümunədir. Sinaqoq, məscid və kilsə açılışları bu tolerantlıq və dostluq münasibətlərini möhkəmləndirmək üçün gözəl fürsətdir.

Azərbaycandakı iqtisadi inkişaf haqqında da danışmaq istərdim. Bütün dünyanı bürüyən iqtisadi böhran şəraitində Azərbaycan iqtisadiyyatı inkişaf etməkdədir. Zənnimcə, bu inkişafda bütün xalqın və bütün konfessiyaların müəyyən töhfəsi var. Çünki bu icmaların hər biri Azərbaycanın inkişafı üçün əllərindən gələni əsirgəmirlər. Azərbaycanı fərqləndirən cəhətlərdən birinin də bu olduğuna inanıram. Onların arasında yəhudilər də var. Misal olaraq Lev Landaunu göstərə bilər. Nobel mükafatçısı və böyük fizik olan bu insan Azərbaycan elminə xüsusi töhfələr verib. Biz ona bir yəhudi kimi deyil, Azərbaycan xalqının bir yetirməsi kimi baxır və fəxr edirik.

Diqqətinizə görə bir daha sizə təşəkkürümü bildirirəm.

*Sağ olun!*




Günün ikinci yarısında Beynəlxalq konfransda "ATƏT regionu və onun hüdudlarından kənarda dini tolerantlığın üzləşdiyi çağırışlar" mövzusu müzakirə edildi. ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, Baş layihə rəhbəri Blerim Velanın moderatorluğu ilə keçən sessiyada **millət vəkili Azay Quliyev** çıxış etdi:

Belə bir tədbirin keçirilməsini çox aktual hesab edirəm. Təəssüf ki, son vaxtlar ATƏT ərazisində dini dözümsüzlük mühiti pisləşməkdə davam edir və hazırda dini və bu hal əmək bazarında, təhsildə və sosial həyatda açıq şəkildə hiss olunmaqdadır. Dini tolerantlıq mühiti sanki daralır, bəzi ölkələrdə məscidlərin tikintisinə, minarələrin ucaldılmasına qadağa qoyulur. İslam Peyğəmbəri (s) təhqir olunur. İslamafobiya və Anti-semitizmin Avropada vüsət alması dünyanı narahat edən məsələlərdir. Məktəbdə və siyasi həyatda dini dözümsüzlük halına tez-tez rast gəlinir.





Bu gün ayrı-ayrı dövlətlərin dini ekstremizmi dəstəkləməsi isə bütün bəşəriyyət üçün təhlükə törədir. Vicdan azadlığı və tolerantlıq adı altında dini missionerliyin və təriqətçiliyin yayılması da belə təhlükələrdəndir.

Dindən siyasi və digər məqsədlər üçün sui-istifadə edilməsi müşahidə olunur, buna isə heç cür imlan vermək olmaz. Buna misal olaraq İŞİD-in törətdiyi əməlləri göstərmək olar. İŞİD-in arxasında duranlar və onu dəstəkləyənlər məhz din pərdəsi altında cinayətlər törədir, şəhərləri məhv edir, günahsız insanları qətlə yetirirlər. Amma bütün tanınmış beynəlxalq KİV-lər - BBC, CNN və digərləri "İslam dövlətin"dən bəhs edir. Bu isə dünyanın hər yerində İslama nifrət hissi yaradır və dini tolerantlıq mühitinə ciddi zərbə vurur.

Bir məsələyə də toxunmaq istərdim. Konstitusion quruluşu devirməyə qalxan dini partiya liderlərinin hüquqi məsuliyyətə cəlb olunması siyasi motivli həbs hesab edilir. Beynəlxalq təşkilatlar hesabatlarında bu məsələni xüsusi qabardır, yanlış fikir formalaşdırırlar.

Müxtəlif dinlərin cəmiyyətə inteqrasiyası çox mühüm bir amildir, təəssüf ki, bəzi ölkələrdə hökumətlər bu məsələ ilə bağlı konkret addımlar atmır və siyasi iradə nümayiş etdirmirlər. Ayrı-ayrı dövlətlər dini missionerliyə külli miqdarda pul ayır və ixrac etdikləri dini cərəyanla ölkənin dini tolerantlığını, eyni zamanda ictimai-siyasi sabitliyini təhdid etməyə cəhd göstərirlər.

Mənə yaradılmış imkandan istifadə edib dini tolerantlığın gücləndirilməsi istiqamətində təkliflərimi bu tribunadan səsləndirmək istərdim:

Tarixi kitablar dini tolerantlıq baxımından təftiş olunmalı və zərərli məqamlar aradan qalxmalıdır. Tolerantlıq mühitinin lazımi səviyyəyə gətirmək üçün təhsildə və təbliğatda olan boşluqlar və yol verilən xətalar aradan qalxmalıdır. Dini tolerantlığı təbliğ edən təlimlər və kurslar təşkil edilməli, ATƏT ərazisində dini ekstremist ideologiyaya qarşı effektiv addımlar atılmalıdır. Ən yaxşı təcrübəyə malik ölkələr ATƏT ərazisində sistemli şəkildə təbliğ edilməlidir. Milli azlıqlar üzrə olduğu kimi, ATƏT-də dini azlıqlar üzrə Ali Komissarlıq institutu yaradılmalıdır.

ATƏT ərazisində dini nifrət zəmində törədilmiş cinayətlərin və dini nifrət zəminində edilmiş çıxışların monitorinqi aparılmalıdır.

Avropa İttifaqı bu hallara qarşı mübarizəni gücləndirməli, çeşidli layihələr həyata keçirməli və dözümsüzlük nümayiş etdirənlərə qarşı cəzanı sərtləşdirməlidir. Dini qanunvericilik bazası təkmilləşdirilməli və onun icrası prosesinə dini icmalar cəlb olunmalıdır. Hökumət-QHT-dini icmalar arasında anlaşma və dialoq mühiti daha da gücləndirilməlidir.

Tolerantlıq məsələləri ilə bağlı da KİV-in və sosial medianın rolu artırılmalı, dinlərin gerçək mahiyyəti və cəmiyyətdəki funksiyası insanlara doğru-dürüst izah edilməlidir. Dini və siyasi liderlər öz ölkəsində və dünyada başqa bir dinin təhqir olunmasına və basqıya məruz qalmasına dözməməli və bu hallara qarşı açıq mübarizə aparmağı bacarmalıdır.

Mənim fikrimcə, vətəndaş cəmiyyəti tolerantlıq mühitinin bərqərar olması və qorunmasında mühüm rol oynaya bilər. Ona görə də vətəndaş cəmiyyəti dövlət və dini qurumlarla əməkdaşlığı daha da gücləndirməlidir. Rəhbərlik etdiyim qurum - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının bu sahədə mühüm işlər görüb. Bu məsələ ilə bağlı ölkə xaricində 7 layihə icra olunub, 3 layihə isə icraya yönəldilib. Azərbaycanda isə 100-dən çox layihəyə dəstək verilib.








**Rusiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin** çıxış etdi:

Çıxış imkanı yaratdığınıza görə təşəkkür edirəm. Mən bir neçə kəlmə Rusiya təcrübəsi haqqında danışmaq istərdim. Ümid edirəm ki, bu cür maraqlı mövzunun, yəni, dini tolerantlığın araşdırılması təcrübəsi maraqlı və faydalı olacaq. Rusiyadan danışarkən bir məsələni vurğulamaq lazımdır, bizim ölkəmizdə insanlar özlərini dinlə çox identifikasiya edirlər. 145 milyon əhalimiz var və onlardan 105 milyonu özünü pravoslav kilsəsinin ardıcılı adlandırır. 7 faiz, yəni, 9 milyon insan özünü müsəlman hesab edir, 1 faizi özünü katolik, protestant yəhudi sayır. Yerdə qalan cüzi hissə isə özünü ateist adlandırır.

Rəsmi məlumatlara görə Rusiya Federasiyasında dini mərasimlərdə əhalinin sadəcə 9 faizi iştirak edir. Rusiyanın təcrübəsi haqda danışanda yəqin ki, universal xarakteri də unutmamalıyıq. Dini və etiqad azadlığı üçün hökumət xüsusi şərait yaratmalıdır. Bu şəraitdə insanlar öz

dini hüquqlarından istifadə etməlidirlər. Kilsələr, sinaqoqlar, məscidlər normal fəaliyyət göstərməlidir. Sovet dövrü bizim fəxr edə bilməyəcəyimiz dövrlərdəndir. Məlum məsələdir ki, o dövrdə kilsə basqı altında idi, məsuliyyətini, təyinatını tam icra edə bilmirdi. Amma ən vacibi odur ki, biz çox sərt şəkildə bu vəziyyətdən çıxa bildik və tamamı fərqli bir istiqamətə gedə bildik. İndi dövlət səviyyəsində yaradılan siyasət kilsəyə də böyük bir müsbət töhfə verir. Rusiya konstitusiyası həm vicdan, həm söz azadlığına təminat verir, seçim azadlığı təmin olunur. İstənilən dinə etiqad edə bilərsən və ya heç bir dinin ardıcılı olmaya bilərsən. Qanunlar seçim azadlığını təmin edir. Seçmək, malik olmaq, dini və digər etiqadları yaymaq hüququn verir. İnsanlar qanunun verdiyi hüquqlar çərçivəsində fəaliyyət göstərə bilərlər. 1997-ci ildə "Vicdan azadlığı haqqında" və "Dini qurumlar haqqında" federal qanun qəbul edilib, bu da öz növbəsində qanun qarşısında hər bir insanın bərabər hüquqlu olduğunu bir daha təsbit edir. bərqərar etmişdir.

Sovet ittifaqında dini qurumlara nəzarət edən xüsusi dövlət orqanı fəaliyyət göstərirdi ki. Amma onun məhdud səlahiyyəti var idi. Bu gün isə Rusiyada belə bir komitə yoxdur. Qeydiyyatla bağlı olan bütün məsələlər, eləcə də onların formalaşması məhkəmə orqanları vasitəsi ilə tənzimlənir. Son rəqəmlərə görə, Rusiyada 25 min dini qurum fəaliyyət göstərir. Ölkə Prezidentinin və Rusiya Federasiyası Şurası yanında bərabər əsasda xüsusi şuralar fəaliyyət göstərir. Siyasi, ictimai xadimlər, dini konfessiyaların təmsilçiləri bu şuralarda təmsil olunurlar. Düşünürəm ki, bu da qarşılıqlı anlaşmanı sübut edən bir faktdır. Bu, həm də dövlətin sözügedən sahəyə diqqətinin göstəricisidir.

Son illərdə Rusiyada kilsələrə məxsus olan mülklərin, ərazilərin qaytarılmasına da ciddi önəm verilir. məsələsidir. 1991-ci ildə Rusiyada yalnız 7,5 min pravoslav kilsə və 16 monastır var idi. Son illər 12 min yeni kilsə tikilib. Əvvəllər bizim ölkədə müsəlmanların 94 məscidi var idisə son vaxtlar 8 mindən çox məscid inşa edilib. Rus Pravoslav Kilsəsinin 2 televiziya kanalı və 5 radio stansiyası, müsəlmanların bir televiziya-internet kanalı fəaliyyət göstərir. Daha bir maraqlı məqamı qeyd edim, 2010-cu il aprelin 1-dən etibarən məktəb proqramına dinin





tədrisi əlavə olunub. Bu, o qədər də sadə qərar deyildi. Çünki, bu mövzu ətrafında çoxlu müzakirələr gedirdi və həmin müzakirələr bu gün də davam edir. Mən belə hesab edirəm ki, biz düzgün istiqamətdə hərəkət edirik. Mənim fikrimcə, bu gün danışdığımız dini tolerantlığın əsasını məhz məktəblilər qoyacaqlar. Məhz dini dəyərlər, konfessiyalar haqqında elmi cəhətdən əsaslanmış məlumatı olan gənclər bunu edəcək.

İslam təbii ki, Rusiya üçün xüsusi bir məsələdir. Rusiyada nə qədər müsəlmanın olması hələ tam dəqiq müəyyənləşdirilməyib. 2002-ci ilin statistikasına görə Rusiyada ənənəvi müsəlman xalqlarının sayı 10 faiz təşkil edib, bu isə 14, milyon insan deməkdir. Rusiyada elə regionlarımız var ki, əhali tərkibinin çox hissəsi müsəlmanlardan ibarətdir. İnquşetiyanı, Çeçenistanı, Dağıstanı, Kabardin-Balkarı, Tatarıstanı buna misal çəkmək olar. Əldə etdiyimiz məlumata görə, müsəlmanların 42 faizi dinin əmrlərinə itaət edənlərdir. Onu da qeyd edim ki, Rusiyada müsəlmanların sayı artmaqdadır.

Ötən əsrin 80-ci illərində Sovet ittifaqının tənəzzülü nəticəsində müsəlmanlar arasında İslam fundamentalizminə, bunu ideyalarına maraq yaranmağa başladı. Bundan çox səmərəli şəkildə istifadə edən beynəlxalq ekstremist və terrorçu təşkilatlar Çeçenistan və onu ətrafında baş verənlər və hamıya məlum hadisələr törətdilər. Yalnız mərkəzi hakimiyyətin qətiyyətli və sağlam düşüncəli addımları, aidiyyəti dövlət qurumlarının səyi nəticəsində həmin o tendensiyaların qarşısını almağa nail olduq. Hazırda Şimali Qafqaz xalqları sivil qanunlar əsasında yaşayırlar. Həmin ərazidə yaşayan müsəlmanlara öz dini ayinlərini yerinə yetirmək üçün bütün şərait yaradılıb. Buna baxmayaraq, ekstremist düşüncəli, terrorçuluqla məşğul olan qruplaşmalar hələ də var. Təbii ki, belə təşkilatların və dəstələrin İslama heç bir aidiyyəti yoxdur, ola da bilməz. Bu din məsələsi deyil, bu sosial mənəvi problemlərin, ətraf mühitin, xarici qüvvələrin təsirinin və digər ünsürlərin nəticəsidir. Rusiyada Pravoslav və İslam dini arasında heç bir qarşıdurma yoxdur. Əksinə, qarşılıqlı hörmət əsasında dialoq var.

Təbii ki, Rusiyada problemlər var və bunların həlli istiqamətində işlər görülür. Amma böyük məmnunluqla qeyd etmək istəyirəm ki, dini

zəmində heç bir münaqişə yoxdur. Maraqlı bir tərəf də budur ki, Rusiya və Azərbaycan sivil ölkələrdir və hər iki ölkədə din dövlətdən ayrıdır. Rusiya və Azərbaycan dövlətləri arasında dinlərarası müsbət dialoq mövcuddur. Onu qeyd etməliyəm ki, həm Qafqaz Müsəlmanları İdarəsi tərəfindən, həm də Rus Pravoslav kilsəsi tərəfindən çox məzmunlu, gözəl və qarşılıqlı ehtirama əsaslanan əməkdaşlıq qurulub. Rus Pravoslav kilsəsi müsəlmanların əksəriyyət təşkil etdiyi Azərbaycanda öz fəaliyyətini həyata keçirmək üçün nadir imkan əldə edib. Həm dövlət, həm rəhbər insanlar, həm də dini liderlər vəziyyəti doğru-düzgün başa düşür, insanların hüquqlarına hörmət edərək onlara dəstək olurlar. Düşünürəm ki, bu müsbət təcrübədir. Bu təcrübəni nəzərə almaq və səmərəli tətbiq etmək üçün addımlar atılmalıdır. Rusiya bu mənada müəyyən təcrübəyə malik olduğu üçün bu istiqamətdə öz fəaliyyətini davam etdirəcək.

*Diqqətinizə görə çox sağ olun!*






**İsrail dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rafael Harpaz** çıxış etdi:

*Hörmətli konfrans iştirakçıları!*

Belə bir mühüm mövzuya həsr edilən konfransa dəvət olunduğum üçün çox şadam, dəvətə və çıxış etməyə yaratdığınız imkana görə minnətdarlığımı bildirirəm.

Öz dövlətimi Azərbaycanda təmsil edən səfir kimi deyə bilərəm ki, çalışdığım ölkədəki tolerantlıq mühiti həqiqətən də yüksək səviyyədədir. Biz tez-tez bunun şahidi oluruq. Şahidi olduğum hadisələrdən birini diqqətinizə yetirmək istəyirəm. Bir neçə il öncə Bakıda maraqlı bir mərasim keçirildi. Azərbaycandakı Dağ yəhudiləri icması yeni Tövratın təqdimatını təşkil etmişdilər. Maraqlıdır ki, müsəlman icmasının nümayəndələri də həmin tədbirə qatılmışdılar. Xüsusi ilə Qafqaz Müsəlmanları

İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə həzrətləri mərasimdə iştirak etdi. Belə bir xoş mənzərəni görmək təbii ki, biz diplomatlar üçün də maraqlıdır. Açıq etiraf edək ki, ATƏT üzvü olan ölkələrin heç birində bunu görmək mümkün deyil. Ona görə də məhz Azərbaycandakı tolerantlıq mühiti bizlər üçün gözəl bir nümunədir. Bu konfransımızda iştirak edən nümayəndələr arasında ilk dəfə Bakıya gələn qonaqlar da var, onlar bu gözəl və əmin ölkədə reallığı öz gözləri ilə görmək imkanı qazanıblar.

İslam və yəhudi dinlərində üst-üstə düşən çoxlu məqamlar var. Bəklə də elə ona görə yəhudilər tarixən müsəlmanlar arasında rahat yaşayıb, elmin müxtəlif sahələri ilə məşğul ola bilib. Təəssüf ki, biz bu gün fərqli bir mənzərəni müşahidə edirik. Sanki Avropanın üstünü qara buludlar alıb, antisemitizm meylləri güclənib.

Bəs Azərbaycanda necədir? Bu gün Bakının küçələrində yəhudi milli geyimi ilə sərbəst gəzmək mümkündür. Etiraf edək ki, bəzi Avropa ölkələrində bu, əməli-başlı təhlükəli bir işdir. Son illər antisemitizmə bağlı hadisələrin 91 faizi məhz özünü demokratik ölkə sayan Avropa dövlətlərinin ərazisində baş verir. Deməli, biz tarixi faciələrdən ibrət götürə bilməmişik.

Bu gün antisemitizm yeni bir mərhələyə qədəm qoyub, sosial şəbəkələr vasitəsi ilə bütöv bir xalqa qarşı nifrət oyadılır, dini inanclar təhqir edilir. Ona görə də məhz ATƏT məkanında belə konfransların keçirilməsinin mühüm əhəmiyyəti var. Biz Azərbaycan təcrübəsini bu geniş məkanda təşviq etməliyik. Azərbaycan tarixən tolerant, digər din və mədəniyyətlərə dözümlü münasibət göstərən bir məkan olub. Təsadüfi deyil ki, əsrlərdir yəhudi xalqı burada rahat şəkildə yaşayır, cəmiyyətə inteqrasiya olunur. Bunu görmək üçün Bakıdakı sinaqoqa, yəhudi uşaqlarının təhsil aldığı məktəbə, Qubadakı Qırmızı qəsəbəyə getmək kifayətdir.

Məni dinlədiyinizə görə hər kəsə təşəkkür edir və konfrans iştirakçılarını Azərbaycan nümunəsini Avropada təşviq etməyə çağırıram.








**Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Haydrun Tempel** çıxış etdi:

*Hörmətli həmkarlarım, dini icmaların rəhbərləri, konfrans iştirakçıları!*

Söz verdiyinizə görə təşəkkür edirəm. Məndən öncə çıxış edən İsrail dövlətinin səfirinin fikirlərinə qoşuluram. Mənim ölkəm antisemitizmlə mübarizə ilə bağlı üzərinə düşən məsuliyyəti yaxşı başa düşür. Bununla bağlı dünyada və Avropada çox işlər görülür, lakin təəssüflə deməliyik ki, bu problem tam həll edilməyib. Üstəlik, insanlıq üçün təhlükə sayılan bu problemin yeni meylləri ortaya çıxıb. Ona görə də birgə mübarizə üçün səylərimizi birləşdirməliyik.

2 ildir ki, səfir kimi dövlətimi Azərbaycanda təmsil edirəm, bu ölkədəki tolerantlıq mühiti məni heyran edib. Bildiyiniz kimi, təkcə Bakıda

deyil, Şəmkirdə, digər rayonlarda alman kilsələri var və bu dini abidələr Azərbaycan mədəniyyətinin, tarixinin bir hissəsini təşkil edir. Xüsusi bir minnətdarlıqla qeyd edim ki, ölkə rəhbərliyinin diqqət və qayğısı ilə həmin kilsələr qorunur, bərpa olunur. Azərbaycan xalqı həmişə burada yaşayan almanlara xoş münasibət göstərib, onların rahat, təhlükəsiz yaşamaları üçün şərait yaradıb. Ötən əsrin əvvəllərinə Demokratik Cümhuriyyət zamanında da belə olub, bu gün də belədir.

Azərbaycan paytaxtına təşkil edilən bu konfransı çox mühüm hesab edirəm, faydalı fikir mübadiləsi aparır, təcrübəmizi bölüşürük. Həm də növbəti addımlarımızı götür-qoy etmək imkanı əldə etmişik. Belə hesab edirəm ki, bu sahədə Azərbaycan hökuməti ilə əməkdaşlığımızı davam etmək çox faydalı olardı. İstər UNESCO, istərsə də ATƏT kimi nüfuzlu beynəlxalq təşkilatların köməyi ilə müxtəlif yeni layihələr üzərində çalışa bilərik.

Bu konfransda səsləndirdiyiniz dəyərli fikirlərə görə təşəkkür edirəm.

*Sağ olun.*








**Albaniya Müsəlmanları Dini icmasının sədri Skender Bruçay** konfransda çıxış etdi:

*Hörmətli konfrans iştirakçıları!*

Bu konfransda iştirak etmək mənim üçün böyük bir zövqdür. Bu səbəbdən təşkilatçılara öz dərin təşəkkürümü bildirirəm.

Biz dini tolerantlıqdan danışırıq, müzakirə aparır və təcrübəmizi bölüşürük. Müzakirələr zamanı Azərbaycanın bu sahədə böyük bir təcrübəyə malik olduğunu bir daha gördüm.

Mən bir albaniyalı olaraq ölkəmdəki nümunələrdən də söz açmaq istəyirəm. Biz bir cəmiyyət olaraq birlikdə yaşayır, fəaliyyət göstərir, gələcəyimizi qururuq. Albaniya Balkanlarda yerləşən kiçik bir ölkədir, 4 milyon əhalisi var. Əhalinin 99 faizini albanlar təşkil edir, ölkəmizdə

müsəlmanlar da, xristianlar da var. Biz xalq olaraq albanıq, amma hər birimiz fərqli dinlərə sitayiş edirik. Azərbaycanda olduğu kimi Albaniyada da bir zamanlar kommunizm ideologiyası hökm sürüb, kilsə və məscidlər dağıdılıb, din xadimləri həbs olunub. 1999-cu ildə vəziyyət nisbətən yaxşılığa doğru dəyişdi, həmin il bizdə ilk dəfə məscid fəaliyyətə başladı. Orada müsəlmanlarla yanaşı katoliklər, pravoslavlar da təmsil olunurdu. İştirakçılar arasında 20 ildən artıq həbsxana həyatı yaşamış bir keşiş də vardı. O, həbsdən çıxdıqdan sonra kilsənin açılmasına nail olmuşdu. Bu cəhətdən müsəlmanların da məscidə qovuşması üçün səy göstərirdi. Bu özü unikal bir nümunədir.

Biz dinlərarası dialoqdan danışdığımız zaman kimlərinsə müsəlmanlaşdırılması və ya xristianlaşdırılması barədə danışmırıq, bir-birimizi anlamaq və başa düşmək haqqında söhbət açırıq. Öz identefikasiyamızı qorumaqla bir-birimiz yaxınlaşmalıyıq. Belə ki, özümüzə, öz mədəniyyətimizə hörmət etmədən başqalarına da ehtiram göstərə bilmərik.

İkinci Dünya müharibəsi illərində 3 mindən artıq yəhudi Albaniyaya sığınmışdı. Həmin vaxt müsəlmanlar, məscid imamları onlara yardım göstərmiş, evlərində gizlətmişdilər. O zamanlarda digər Avropa ölkələrində yəhudilərin sayı iki dəfə azalmışdı, halbuki Albaniyada onların sayı durmadan artırdı.

Maraqlı faktdır ki, Albaniyada fəaliyyət göstərən katolik, pravoslav və müsəlman icması olaraq biz birlikdə Məşvərət Şurası yaratmışıq. Hökumətin dəstəyi ilə biz cəmiyyətdə mövcud olan problemlərin həllinə öz töhfəmizi veririk. Səmavi din nümayəndələri olaraq biz əl-ələ verib birlikdə fəaliyyət göstərməli və ölkəmiz, cəmiyyətimiz üçün faydalı olmalıyıq. Belə olmasa insanlar bizə hörmət bəsləməz.

Diqqətinizə çatdırmaq istədiyim aktual məsələlərdən biri də təhsildir. Biz uşaqların dünyəvi təhsillə bərabər dini maarifləndirilməsinə də xüsusi diqqət ayırmalıyıq. Belə bir təhsilin nəticəsində onlar fərqli din mənsublarını rahat anlayacaq və bir-birlərinə hörmət bəsləyəcəklər. Düşünürəm ki, problemlərin həllində din amilindən müsbət yön-





də çox faydalanmaq, tolerantlığı yaymaq olar. Məlum məsələdir ki, problemlər hər zaman ola bilir, lakin biz dindarlar problemlərin nədən ibarət olduğunu, onu yaradan amilləri görməliyik.

Mənə diqqət ayırdığınıza görə sizə minnətdarlığımı bildirirəm.

*Çox sağ olun!*




Sonra söz **Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənova** verildi:

*Hörmətli konfrans iştirakçıları!*

Müasir dünyamız üçün xüsusi önəm daşıyan mövzuya həsr edilmiş bu tədbirdə mənə söz verdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Həqiqətən də iqtisadi, siyasi, hərbi və sosial sarsıntı və təlatümlərlə zəngin olan çağdaş dünyamızda dözümlülüyün, xüsusilə dini tolerantlığın və mədəniyyətin təşviqi və inkişafına nail olmaq kifayət qədər çətin, eyni zamanda şərəfli bir missiyadır və buradakı çıxışlardan da göründüyü kimi, ölkəmiz bu missiyanın öhdəsindən uğurla gəlir. Bu nailiyyətin əldə edilməsi, burada qeyd edildiyi kimi, əlbəttə ki, ilk növbədə Azərbaycan dövlətinin, əsası Ümummilli Liderimiz Heydər Əliyev





tərəfindən qoyulmuş və hörmətli Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilən din-dövlət sahəsində siyasəti, xalqımızın ümumbəşəri dəyərlərə, habelə İslam dininin humanist ideallarına sədaqəti ilə bağlıdır.

Düşünürük ki, ölkəmizdə əmin-amanlığın bərqərar olmasında, etnik və konfessional rəngarəngliyin ümummilli dəyər səviyyəsinə qalxmasında vətəndaş cəmiyyətinin ayrı-ayrı institutları, xüsusilə dini icmalar da əhəmiyyətli rol oynamalıdırlar. Mən sizə bölgənin ən iri icması olan, az qala ili yüz illik tarixi ənənələrə malik Qafqaz Müsəlmanları İdarəsinin bu sahədə fəaliyyəti barədə qısaca danışmaq istərdim.

Qafqaz Müsəlmanları İdarəsi mövcud olduğu bu çətin və kataklizmlərlə dolu bir dövrdə, etnik və geosiyasi baxımdan son dərəcə mürəkkəb və həssas bir bölgədə çox şərəfli bir missiyanı yerinə yetirmişdir. Əslində bütün dövrlərdə bu İdarənin əsas nizamnamə funksiyası Cənubi Qafqazda mütləq əksəriyyəti təşkil edən müsəlman çoxluğun dini icmalarının hüquq və mənafelərini təmin etməkdən və qorumaqdan ibarət olmuşdur. Lakin o heç vaxt bununla öz vəzifəsini bitmiş hesab etməmişdir. Tarixi sənədlərin araşdırılması göstərir ki, Qafqazın ayrı-ayrı regionlarında mütəmadi olaraq baş qaldıran etnik, dini, məzhəb və vətəndaş qarşıdurmalarında bu mərkəz əldə Qurani-Kərim, dildə Allah kəlamı sülhyaratma, ara sakitləşdirmə funksiyalarını

həyata keçirmişdir. Ən müxtəlif iri dövlətlərin imperialist ambisiyalarının həyata keçirilməsinə yönəldilmiş millətlərarası qarşıdurma, xüsusilə bu cür qarşıdurmaların dini müstəviyə keçirmək cəhdlərinin qarşısı məhz bölgə müsəlman icmalarının bu mərkəzinin səyləri nəticəsində alınmışdır.

Qafqaz Müsəlmanları İdarəsinin rəhbərlərinin – Şeyxülislamların bu sahədə xidmətləri ayrıca qeyd olunmalıdır. Məhz onların yalnız Şərq-müsəlman müdriklərinə xas olan uzaqgörən addımları sayəsində bölgədə bir çox qanlı dini-etnik və milli zəmində toqquşmaların qarşısı alınmışdır. Örnək üçün çox uzağa getmək lazım deyil. Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində SSRİ-də və respublikamızda siyasi hakimiyyətin demək olar ki, iflic vəziyyətinə düşməsi Azərbaycanı az

qala vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxarmışdı. Qanlı Yanvar günlərində milli mövcudluğumuz üçün real hədə təkcə azğınlaşmış sovet əsgərlərinin dinc əhaliyə tuşlanmış silahı deyildi, həm də ölkəmizin ayrı-ayrı bölgələrində məkrli düşmənlərimizin böyük ustalıqla planlaşdırdıqları siyasi separatizm, dini və milli ayrı-seçkilik toxumu səpmək cəhdləri idi. Belə bir ağır zamanda Moskvada, öz həyatını itirmək təhlükəsi altında xalqımızın azadlıq mücadiləsinə qanlı qəsdə qarşı haqq səsini qaldıran Ümummilli Liderimiz Heydər Əliyevi, Bakıda, oxşar təhlükəli vəziyyətdə ilk dəstəkləyən, Azərbaycanımızı milli və dini vəhdətə səsləyən məhz hörmətli Şeyxülislamımız Allahşükür Paşazadə həzrətləri oldu. Həmin günlərdə Şeyximizin fəaliyyətini yüksək dəyərləndirən hörmətli Prezidentimiz cənab İlham Əliyev onun haqqında belə deyir: "Ölkəmiz üçün ən çətin anlarda o, birinci sıralarda idi. Müstəqilliyimizin ərəfəsində yaşanan çox ağır hadisələr zamanı Şeyx həzrətlərinin müdrik sözü, onun vətəndaş mövqeyi Azərbaycanı daha da böyük bəlalardan qurtara bilmişdir". Bax, milli və dini qarşıdurma, etnik-siyasi separatizm həmin günlərdə bu bəlalardan ən böyüyü idi.

QMİ-nin bütün regionda sülhün, əmin-amanlığın və dözümlülüyün təmin olunması sahəsində həyata keçirdiyi əsas fəaliyyət istiqamətlərindən biri də bölgədəki və ölkəmizdəki digər ənənəvi dini icmalarla qarşılıqlı əməkdaşlığın genişləndirilməsidir. Bu, müxtəlif formatlarda, o cümlədən, müştərək tədbirlərin həyata keçirilməsi, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, müxtəlif birgə layihələrin icrası formasında özünü göstərir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 01.07.2011-ci il tarixli Fərmanında nəzərdə tutulan təklifinə uyğun olaraq və birbaşa onun maliyyə dəstəyi ilə İdarəmizin Gürcüstanda, İranda, Türkiyədə, Rusiyada, o cümlədən Şimali Qafqazda nümayəndəlikləri də açılmışdır.

Bilirsiniz ki, Azərbaycan son illər ərzində birbaşa və ya dolayısı ilə dini tolerantlığa həsr edilən bir çox beynəlxalq və regional tədbirlərə, o cümlədən Dünya Dini Liderlərinin Sammitinə, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının iclaslarına ev sahibliyi etmişdir. Məmnuniyyət hissi ilə





qeyd etmək istərdim ki, bu tədbirlərin hər birində əsas təşkilatçı və milli koordinator qismində məhz QMİ çıxış etmişdir və adı çəkilən şuraların birincisinin həmsədri, digərlərinin isə sədri bizim İdarənin rəhbəri Şeyxülislam Allahşükür Paşazadə həzrətləridir. Məlumat üçün bildirim ki, bugünkü konfransın da ölkəmiz tərəfindən təşkilatçısı qismində məhz QMİ çıxış edir.

Nə qədər ki, tolerantlıq məfhumunun elmi, hüquqi və sosioloji çərçivələri hələ dəqiq müəyyən edilməmişdir, fikrimcə xüsusilə ölkəmiz üçün aktual olan bir məsələyə də qısaca olaraq toxunmaq istərdim. Bu gün milli-dini hətta etnik tolerantlıqla, onun Azərbaycan modeli ilə bağlı geniş diskussiyalar, araşdırmalar aparılır, amma məzhəb tolerantlığı sanki kölgədə qalır. Halbuki, bizim ölkəmizin bu gün, bu sahədə nümunə ola biləcək uğurları daha sanballı və daha gözəçarpandır. (Bu arada bir faktı qeyd edim ki, hərb tarixini öyrənən konfliktoloqların fikrincə bəşəriyyət tarixindəki müharibələrin və münaqişələrin əhəmiyyətli hissəsi məhz təriqət və məzhəb şüarlarına söykənir.)

Tarixi reallıq belə gətirmişdir ki, ölkəmizin müsəlman əhalisinin təqribən 65 faizə qədəri şiə məzhəbinin, qalanı isə sünni məzhəbinin tərəfdarlarıdırlar. Çox az sayda ölkələr üçün səciyyəvi olan bu cür məzhəb rəngarəngliyindən, ölkəmizdəki siyasi, dini, milli sabitliyi gözləri götürməyən şər qüvvələr istifadə etməyə zaman-zaman cəhd göstərmişlər.

Məsələn, 1823-cü ildə Qafqaz Şeyxülislamlığını, 1832-ci ildə isə Qafqaz müftiliyini ayrı-ayrılıqda təsis edib sonradan onların ayrı-ayrı müstəqil idarələrdə, dövlət hesabına fəaliyyət göstərmələri barədə qərar qəbul edərkən Çar Rusiyasının öz qarşısına qoyduğu "Parçala və hökm sür!" planını bu gün anlamaq o qədər də çətin deyil. Yaxud 1917-ci ildə mərkəzi rus hakimiyyətinin zəifləməsindən yararlanan əhalinin müstəqil dövlət qurmaq arzularından yayındırmaq məqsədi ilə iri imperialist dövlətləri Bakı neftini əldən buraxmamaq üçün yenə məzhəb kartını ortalığa atırlar və dərhal da öz qarşılarında bölgənin dini liderlərini görürlər. Həmin ilin aprel ayında Təzəpirin axundu Ağa Əlizadənin təşəbbüsü ilə Qafqaz Müsəlman Ruhanilərinin I Qurultayı çağırılır, çox mühüm məsələlər müzakirə olunur. Başlıcası isə Təzəpir məscidində bölgə müsəl-

manlarının hər iki məzhəbinə aid olan nümayəndələri, Şeyxülislam və müftinin rəhbərliyi altında birgə namaz qılırlar. Bununla da növbəti dəfə sübut olunur ki, bizim xalqımızın milli və dini vəhdət prinsiplərinə, İslam dininin məzhəblərüstü humanist, ümumi ideallarına sadiqliyi daha güclü, daha dərin köklərə malikdir və belə mühitin formalaşmasında QMİ-nin, habelə müsəlman din xadimlərinin kifayət qədər tarixi xidmətləri var.

Mən öz çıxışımı Bakıda fəaliyyət göstərmiş bir diplomatın məşhur kəlamı ilə bitirmək istərdim: "Bu gün Azərbaycanda dinlər arasında müşahidə olunan dözümlülük və tolerantlıq münasibətləri hamı üçün, bütün Avropa ölkələri üçün müsbət nümunə ola bilər. Azərbaycan artıq təkcə öz neftini deyil, tolerantlıq mühitinə də ixrac edə bilər". Fəxrlə deyə bilərəm ki, Azərbaycan brendi hesab ediləcək bu zəngin mənəvi kapitalın formalaşmasında bizim müsəlman icmaları da əhəmiyyətli rol oynayırlar.

*Diqqətinizə görə təşəkkür edirəm!*








Sonra **Konstitusiya Araşdırmalar Fondunun sədri Əliməmməd Nuriyev** çıxış etdi:

*Hörmətli xanımlar və cənablar!*

Vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları adından Qafqaz Müsəlmanlar İdarəsinə, ATƏT-ə, ATƏT-in Bakı Layihələrin Əlaqələndirilməsi Bürosuna bu konfransın təşkili üçün minnətdarlığımı çatdırmaq istəyirəm. İlk növbədə qeyd etmək istəyirəm ki, dini tolerantlıq mövzusunda son zamanlar tez-tez müzakirələr aparmağımız, tədbirlərin keçirilməsi, təşəbbüslərin irəli sürülməsi bizləri həm məmnun edir, həm də qayğılandırır. Çünki, bu müzakirələrin intensivləşməsi də göstərir ki, dini tolerantlıqla problemlər artıq o həddə çatıb ki, bütün ATƏT məkanında dinc birgəyaşayışa, sülh və əmin-amanlığa, inteqrasiya proseslərinə əsas təhdidlərdən birinə çevrilib. Vətəndaş cəmiyyəti fəlsəfəsinə

və missiyasına uyğun olaraq cəmiyyətdə dini zəmində "ayrılma nöqtə və xətlərini" daha aydın görür, hiss edir. Vətəndaş cəmiyyəti bu məsələlərdə hər zaman həssaslığını nümayiş etdirib və ilk olaraq "həyəcan təbili" çalıb. Bu gün bütün ATƏT məkanında dini dözümsüzlük hallarının artması, əvvəllər heç görünməmiş miqyasda təzahür etməsi artıq bu problemlərin həlli üçün yalnız vətəndaş cəmiyyətinin təşəbbüsləri yetərli deyil, lakin əsas alətlərdən biridir. Bugünkü tədbirdə ATƏT-in, ATƏT üzvü ölkələrin dini dözümsüzlük, dini zəmində nifrət, ayrı-seçkiliyə qarşı gördükləri tədbirlərdən, atılan addımlardan danışıldı, və danışılacaq. Vətəndaş cəmiyyəti nümayəndələri olaraq bu tədbir və addımları diqqətlə izləyir və təqdir edirik. Astana Bəyannaməsinin qəbulu, dini düşmənçilik və ayrı-seçkilik zəmində baş verən cinayətlər barədə məlumatların toplanması və illik hesabatların açıqlanması, ATƏT Nazirlər Şurasının 3/13 saylı qərarını qeyd edərək vətəndaş cəmiyyətinin, QHT-lərin bu addımlara çox böyük əhəmiyyət verdiyini diqqətə çatdırmaq istəyirəm. Bu təşəbbüslər dini zəmində ayrı-seçkiliyə, düşmənçiliyə qarşı mübarizə aparanlar üçün böyük dəstək və prioritetlərin müəyyənləşməsi, səylərin əlaqələndirilməsi, ümumi yanaşma üçün böyük imkanlar yaradır. Həmçinin, bu addımlar göstərir ki, dini zəmində ayrı-seçkilik, diskriminasiya hallarının artmasının yaratdığı təhlükələr aydın şəkildə dərk olunur və adekvat reaksiya üçün cəhdlər edilir.

"Cəhdlər edilir" ifadəsini təsadüfən işlətmədim. Qlobal miqyasda dini zəmində düşmənçilik tendensiyası artıq doğurdan da ifrat təhlükəli dini zəmində düşmənçilik tendensiyası ilə müqayisədə atılan addımlar yetərlidirmi? Həmin addımlar bu tendensiyanın qarşısını almağa kömək edəcəkmi? Dini tolerantlıq, multikultralizm ənənələrinin, dəyərlərinin daha dərindən kök atması üçün daha nələri etməliyik? Dini zəmində ayrı-seçkilik, düşmənçilik hallarının artmasının, multikultralizm ənənələrindən imtinanın səbəbləri barədə kifayət qədər məlumatlıyıqmı? Bu səbəblərin nədən qaynaqlandığını aydın dərk edirikmi? Hansı yeni nümunələr, təklif etməliyik? Xüsusən gənc nəslə nələri tövsiyə edirik? Düşünürəm ki, dini tolerantlıqla bağlı müzakirələrimizdə bu suallara cavab verməyə çalışmalıyıq.





Son illər dini zəmində ayrı-seçkilik və diskriminasiya hallarının qabaqcıl, demokratik ənənələri ilə seçilən Avropa ölkələrində müşahidə olunması bizi məyus etməyə bilməz. Multikultralizm ənənələrindən uzaqlaşma meyllərinin daha qabarıq təzahür etməsi onu göstərir ki, preventiv tədbirlər görmək, təhlükə mənbəyini və potensialının zamanında layiqincə qiymətləndirə biləcək, adekvat olacaq qədər müdrik olmamışıq. Yaxud, multikultralizm ənənələrindən uzaqlaşma meyllərinə kifayət qədər müqavimət göstərə bilməmişik. Eyni zamanda, dini diskriminasiya hallarının ön plana çıxmasına təkan verəcək addımların əks-təsirini düzgün qiymətləndirə bilməmişik. Misal kimi, Fransada hicab, Belçikada məscidlərin tikilməsinə qadağaları, Avstriya, Hollandiya və Macarıstanda baş verənləri göstərə bilərik. Xüsusən qanunvericilikdə insanların dini etiqadlarından irəli gələn ayinlərin, rəmz və geyim formalarının qadağan edilməsinin əks-təsirini də düşünmək vacibdir. Bu cür qanunların qəbulunu, addımların atılmasını bəzən təhlükəsizlik maraqları ilə izah edirlər. Şübhəsiz ki, təhlükəsizlik maraqları hər bir dövlət üçün prioritetdir. Amma elə etmək lazımdır ki, bu bumeranq və domino effekti verməsin. Hazırda biz hər iki effekti müşahidə edirik. Bu cür qanunların qəbulu dini tolerantlığa qarşı çıxanlara əlavə arqumentlər verir. Həmçinin, praktikada müşahidə edirik ki, bir ölkədə dini tolerantlığa xələl gətirəcək təşəbbüslər digər ölkələr üçün siqnal olur.

Digər tərəfdən, müxtəlif qrupların təzyiqi ilə atılan bu addımlar və onların əsaslandırılması üçün informasiya kampaniyaları milliyyətçi, ksenofob, irqçi qüvvələrin təsirinin artmasına yol açır. Belə qüvvələr bu cür addımlardan təbliğat kimi istifadə edir və yeni ardıcıllar qazanırlar. Avropa Parlamentinə son seçkilərin nəticələri bu baxımdan narahatlıq doğurmaya bilməz. Bütün bunlar ciddi təhlil edilməli və müvafiq nəticələr çıxarılmalıdır. Təhlükəsizliklə bağlı qərarlar qəbul edilən zaman elə yanaşmalar olmalıdır ki, atılan addımlar dini tolerantlıqla bağlı əks-effekt verməsin.

Son zamanlar dini tolerantlığın həddləri ilə bağlı müzakirələrin də şahidi oluruq. Cəmiyyət hara qədər tolerant olmalıdır? Tolerantlığın hansı həddi təhlükəsizlik maraqlarına cavab verir? Əslində bu sualların

səslənməsi dini tolerantlıq, multikulturalizm mədəniyyətinin böhran keçirməsindən xəbər vermirmi? Belə fikirlər səslənir ki, həddindən artıq dini tolerantlıq neqativ nəticələr doğurur, hər hansı dinin nümayəndələrinin nümayişkaranə şəkildə rituallar icra etməsi, ayinlər yerinə yetirməsi, yaxud missionerlik fəaliyyəti qıcıq doğurmur. Eyni zamanda bu zaman müəyyən siyasi maraqlar ön plana çıxır, dini icmalar siyasi alətə çevrilir. Siyasi proseslərdə dinə mənsubluğa görə, konsolidasiya və qruplaşmalar yaranır. Sonra isə bu qruplar siyasi təzyiq mexanizminə çevrilir. Bu cür fikirlər, həm Avropada müsəlmanlara, yəhudilərə münasibətdə, həmçinin müsəlman ölkələrində xristianlara münasibətdə səslənir. Şübhəsiz ki, bu cür fikirlərdə də müəyyən həqiqət payı var. Düşünürük ki, dini tolerantlıqla bağlı məsələlərdə elə geniş çərçivələr yanaşma olmalıdır ki, dini etiqad azadlığı tam dolğunluğu ilə ifadə oluna bilsin. Eyni zamanda elə mexanizmlərdə mövcud olmalıdır ki, dini tolerantlıqdan dini radikalizmi yaymaq üçün istifadəyə adekvat reaksiya vermək imkanları da olsun. Hazırda ATƏT məkanında bu yanaşmanı optimal hesab edirik. Bu baxımdan ATƏT-in Astana Bəyannaməsində, ATƏT Nazirlər Şurasının 3/13 saylı qərarında nəzərdə tutulan müddəalar aktuallığını saxlamaqdadır. Bu məsələdə ATƏT-in üzərinə böyük məsuliyyət düşür. Dini dözümsüzlüyün artması tendensiyasını nəzərə almaqla ATƏT həmişəkindən daha artıq bu məsələlərə diqqət ayırmalı, ATƏT məkanında ölkələrin dini etiqad azadlığını tənzimləyən qanunvericiliyin əvvəldə qeyd etdiyim prinsiplər prizmasından dəyərləndirilməsi və hesabatların yayılması, tövsiyələrin verilməsi olduqca vacibdir.

Son illər dini tolerantlıq, multikultralizm dəyərlərinin təbliğində ATƏT məkanı ölkələrindən Azərbaycan və Qazaxıstanın səyləri xüsusilə vurğulanmalıdır. Xüsusən qlobal miqyasda qarşıdurmaların, ekstremizm və terrorçuluğun artdığı bir dönəmdə müsəlman ölkələrinin bu istiqamətdə səyləri ATƏT məkanı dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən daha çox dəstəklənməlidir. Dini tolerantlıq, multikultralizm təşəbbüslərinin Şərqdən güclənməsi yeni imkanlar açır. Bu imkanlar Qərbdə də layiqincə qiymətləndirilməlidir. Xüsusən islamafobiya meyllərinin artdığı bir dövrdə bu təşəbbüslərin Qərbdə dəstəklənməsi dini tolerantlıq





ardıcıllarının mövqeyinin güclənməsi üçün əlavə stimullar verir. Bu baxımdan Azərbaycanın dinlərarası dialoqun dəstəklənməsi, multikultralizmin, dini tolerantlıq dəyərlərinin təbliği istiqamətində atdığı addımlar ATƏT məkanında və qlobal miqyasda olduqca böyük səmərə verməkdədir. Azərbaycanın tolerantlıq və multikulturalizmin təmin edildiyi model dövlət olması ilə yanaşı, bu dəyərlər ətrafında beynəlxalq muzakirənin gerçəkləşdirdiyi mərkəzə çevirmişdir. Azərbaycanın bu platformanın mərkəzinə çevrilməsində Bakı humanitar forumları, eləcə də son on ildə ölkədə keçirilmiş müxtəlif beynəlxalq konfrans və tədbirlər dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev III Bakı Beynəlxalq Humanitar Forumunun açılış nitqində tədbirin Azərbaycanda keçirilməsinin təbii hal olduğunu vurğulayaraq bildirmişdir: “Ölkəmizdə hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı kimi tanınmışdır. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur”.

Azərbaycan çox mürəkkəb bir coğrafi məkanda yerləşir. Regionda təkcə siyasi baxımdan deyil, dini və milli mənsubluq baxımından da kifayət qədər həssaslıq var. Lakin bütün bu məsələlərə rəğmən Azərbaycan dini və milli tolerantlıq baxımından bölgə dövlətləri arasında liderlik edir.

Vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatlan nə edə bilər? Bu məsələdə vətəndaş cəmiyyətinin üzərinə böyük məsuliyyət düşür. Vətəndaş cəmiyyəti ilk növbədə maarifləndirici tədbirləri genişləndirməli və dini tolerantlıq, multikultralizmlə bağlı məsələlərin aktuallaşması, gündəlikdə qalması və hökumətlərin prioritetləri sırasında qalmasına çalışmalıdır. Xüsusən, dini tolerantlığa xələl gətirəcək çağırışların daha ucadan səsləndiyi bir vaxtda vətəndaş cəmiyyəti daha cəsarətli və fəal olmalıdır. Vətəndaş cəmiyyəti hökumətləri və dini konfessiyalar arasında dialoqun daim dərinləşməsi və ortaq nöqtələrin tapılması, yeni təhdidlərə yeni üsullarla cavab verilməsi üçün yeni ideyalar, təşəbbüslər təklif etməlidir. Bu məsələlərdə vətəndaş cəmiyyəti həm hökumətləri, həm də dini konfessiya və icmaları, dini təsisatları ani qərarlar verilmə-

sindən çəkindirmək, dialoq və müxtəlif formatlarda müzakirə müstəvisi, platformalar yaradılmasına səy göstərməlidir. Vətəndaş cəmiyyəti dini radikalizm və ekstremizin yayılmasının qarşısının alınması üçün yeni preventiv tədbirlər təklif etməli, hökumətləri buna təşviq etməlidir. Bu yeni addımlar sosial şəbəkələrdən təşviq məqsədilə daha fəal istifadə, ölkələrarası, həmçinin müxtəlif dinlərə məxsus təsisat və liderləri, ziyalı nümayəndələrini özündə birləşdirən şəbəkələrin yaradılması, gənclər arasında dini tolerantlığın, multikultralizmin təbliğində yeni media və avanqard incəsənətin imkanlarından daha geniş istifadə edilməsi ola bilər. Vətəndaş cəmiyyəti dinlərarası dialoq təşəbbüslərinin dəstəklənməsi və gənclərin bu proseslərə cəlb olunmasında mühüm rol oynaya bilər. Bu prosesin irəli aparılmasında biznes, siyasi və digər maraqlardan uzaq vətəndaş cəmiyyəti institutları daha yaxşı imkanlara malikdirlər. Vətəndaş cəmiyyəti institutlarının unikal statusundan bu istiqamətdə daha çox istifadə olunur. Azərbaycanda Heydər Əliyev Fondu bu baxımdan çox uğurlu nümunələr yaradıb və yaratmaqdadır. Fondun prezidenti, millət vəkili, UNESCO və İSESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu istiqamətdə təşəbbüsləri və səyləri diqqətəlayiqdir və digər ölkələr tərəfindən öyrənilməyə dəyər.

Eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə həzrətləri dini tolerantlığın təbliği, dinlərarası dialoqun dəstəklənməsi istiqamətində çox əhəmiyyətli töhfələr verir. Vətəndaş cəmiyyəti olaraq biz Qafqaz Müsəlmanları İdarəsinin, hörmətli Şeyximizin bu təşəbbüslərini diqqətlə izləyir və təqdir edirik. Azərbaycanda tolerantlıq dəyərlərinin qorunub saxlanılmasında, dinlərarası münasibətlərdə harmoniyanın qorunmasındakı şəxsi səyləri və təşəbbüsləri artıq Azərbaycan miqyasını aşıb. Bu gün Qafqaz Müsəlmanları İdarəsi öz təşəbbüsləri ilə yəhudilər və müsəlmanlar, müsəlmanlar və xristianlar arasında davamlı dialoq və müzakirələrin aparılmasında əsas körpülərdən, təşkilatçılardan birinə çevrilib. Dini xadim kimi Şeyxülislam həzrətləri öz nüfuzundan, əlaqələrindən maksimum istifadə edərək mümkün konfliktlərin yaranmaması üçün çox böyük iş görür. Qafqaz Müsəlmanları İdarəsi eyni zamanda vətəndaş cəmiyyəti





üçün də çox etibarlı, əməkdaşlığa daim açıq, dəstək verən tərəfdaşdır. Vətəndaş cəmiyyətinin dini tolerantlığın təşviqi, multikulturalizm ideyalarının təbliği ilə bağlı təşəbbüsləri daim Qafqaz Müsəlmanları İdarəsi tərəfindən dəstəklənir. Bu mövqe və yanaşmasına görə QMİ-yə və şəxsən Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə təşəkkür edirəm.

Dini qurumlar və təsisatlar yanında vətəndaş cəmiyyəti institutlarının təmsilçilərindən ibarət məşvərətçi qurumların yaradılması, bu qurumların dini siyasətin hazırlanması və həyata keçirilməsinə cəlb edilməsi də olduqca əhəmiyyətli olardı. Bu cür məşvərətçi qurumlar daha rasional və dini siyasətin həyata keçirilməsində əhəmiyyətli rol oynaya, qəbul edilən qərarlara ictimai etimadın artmasında, mümkün narazılıqların müzakirə və dialoq yolu ilə aradan qaldırılmasında, ortaq nöqtələrin tapılmasında çox böyük səmərə verə bilərlər.

Dini tolerantlığın və multikultralizmin təbliğində informasiya kommunikasiya texnologiyalarından səmərəli istifadə olunması da olduqca vacib məsələdir. Çox təəssüf ki, hazırda sosial şəbəkələr, internet dini ekstremizm, radikalizm ideyalarının yayılması üçün çox geniş imkanlar açıb. Bu istiqamətdə dini tolerantlıq, multikultralizm tərəfdarlarının zəif görünməsi dərin narahatlıq doğurur. Bunun üzərində də düşünmək vacibdir. Bu istiqamətdə dini tolerantlıq tərəfdarlarının dini təsisat və mütərəqqi din xadimlərinin üzərinə çox böyük məsuliyyət düşür. Onlar yeni media və internetin verdiyi imkanlardan daha yaradıcı yanaşmalıdırlar. Həmçinin bu məsələlərlə bağlı tənzimləmələrə, dövlət və ictimai nəzarətin həyata keçirilməsinə də yenidən baxmaq olar.

Dini tolerantlığın və multikultralizmin təbliği ilə bağlı məsələlərdə təhsil sisteminin də önəmini hər zaman qiymətləndirmək zəruridir. Dini mövzuda radikalizmin güclənməsi meylləri bir daha göstərir ki, bu sahəyə də yenidən nəzər salmalıyıq. İbtidai siniflərdən başlayaraq dini tolerantlıq və multikultralizm dəyərləri daha səmərəli öyrədilməli və təşviq edilməlidir. Təhsil siyasətində elə islahatlar aparılmalıdır ki, dini tolerantlıq və multikultralizm dəyərlərinin təbliği tədrisin əsas vəzifələrindən birinə çevrilsin.

Sonda qeyd etmək istərdim ki, dini ekstremizm və radikalizmin

artması təhlükəsi qarşısında biz asanlıqla geri çəkilməməliyik və uzun illərə ərzində dini tolerantlıq və multikultralizmlə bağlı əldə etdiyimiz nailiyyətlərdən belə asanlıqla imtina etməməliyik. Bununla bağlı siyasətçilərin, siyasi institutların üzərinə çox böyük məsuliyyət düşür. Son zamanlar siyasi maraqlar naminə dinin istismar edilməsi cəhdlərinə daha tez-tez rast gəlirik. Bir çox hallarda bu məsələlərdə populist yanaşma rasional yanaşmaları üstələyir. Yaxud elə vasitələrdən istifadə olunur ki, bu üsullarla məqsədə çatmaq özü problem yaradır. Seçilən vasitələr, üsullar neqativ nümunələr yaradır. Hələ Mahatma Qandi xəbərdarlıq edirdi ki, bir çox hallarda hansı üsulların tətbiqi nəticədən daha önəmlidir. Bu siyasi qərarların qəbulunda özünü daha qabarıq göstərir. Yuxarıda qeyd etdiyim kimi, hüquqi qadağaların tətbiqi buna misal ola bilər.



## *Noyabrın 18-də Beynəlxalq konfrans panel iclaslarla öz işini davam etdirdi*




"Demokratik cəmiyyətdə dinlərarası dialoqun və tolerantlığın rolu" mövzusundakı sessiya Arxiyepiskop Aleksandr İşeinin moderatorluğu ilə keçdi. Panel iclasda **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın** məruzəsi dinlənildi:

Bu tədbir əlamətdar tarixi hadisə ilə eyni vaxta təsadüf edir. Bildiyiniz kimi, 16 noyabr BMT-də Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Tolerantlıq prinsipləri haqqında Bəyannamədə deyilir ki, bütün insanlar öz təbiətlərinə görə fərqli olsalar da, dəyər və hüquqlarına görə bərabərdirlər. Dözümlülük dünyada mədəniyyətlərin, insanların müxtəlifliyinin başa düşülməsi və hörmət göstərilməsidir. Bu gün hər birimiz çox yaxşı dərk etməliyik ki, biz öz ölkəmizin vətəndaşı olmaqla yanaşı, bəşəriyyət adlı böyük bir ailənin üzvüyük. Qloballaşma prosesi hər birimizi ümumi məkanın sakinlərinə çeviribdir. Burada insanlararası,





dövlətlərarası, xalqlararası dialoq məhz etik normaları, haqq-ədalət prinsipləri əsasında qurulmalıdır. Milli özünəməxsusluğu saxlamaqla bəşəri-mədəni dəyərləri mənimsəmək tolerantlığın ən vacib amilidir. Bu prinsip və normalara əməl olunmadıqda düşmənçilik, dözümsüzlük, etnik təmizləmələr, soyqırımı, müharibələr baş verir. Və əfsuslar olsun ki, bu qarşıdurmaların sayı azalmır, əksinə artır.

Son illərdə Azərbaycanda din və mədəniyyətlə bağlı çoxsaylı beynəlxalq konfranslar keçirilir. Elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən bu konfranslarda dini tolerantlıqla bağlı yeni təkliflər hazırlanıb təbliğ edilir. Qeyd etmək istərdim ki, belə konfransların respublikamızda keçirilməsi bir tərəfdən beynəlxalq aləmdə dövlətimizin siyasi nüfuzunun yüksəldiyini göstərir, digər tərəfdən də Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqun səmərəli inkişafına töhfə verən bir ölkə olduğunu dünyaya tanıdır.

*Hörmətli tədbir iştirakçıları.*

Mədəniyyətin mühüm elementi olan ümumi tolerantlıq vətəndaş cəmiyyətinin əsas əxlaqi prinsipidir. Ölkəmiz tarixən milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Həm tarixi mənbələr, həm də müxtəlif vaxtlarda ölkəmizə gələn xarici qonaqlar bunu təsdiq ediblər. Azərbaycanda tarixən çoxsaylı etnosların və müxtəlif dinlərin birlikdə yaşamasına baxmayaraq, indiyə kimi heç vaxt bu ərazidə milli ayrı-seçkilik baş verməmiş və dini qarşıdurma olmamışdır. Eyni zamanda, təcrübə göstərir ki, mütləq dözümlülük də öz növbəsində özbaşınalıq və zorakılığa yol açır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda dini və milli tolerantlığın mövcudluğunu onun dövlətçilik tarixi təsdiq edir. Məhz buna görə də tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq konsepsiyasına uyğun olaraq ölkədə dövlət-din münasibətlərinin, millətlərarası və dinlərarası dialoqun genişlənməsi üçün əlverişli şərait yaradılmış, bu sahədə beynəlxalq hüquq normalarına uyğun qanunvericilik bazası bərqərar olmuşdur. Bu sahədə yaradılmış müdrik siyasi-mənəvi xətt Azərbaycan Respublikasının

Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir və zənginləşdirilir.

Cənab Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən müxtəlif səviyyəli tədbirlər Azərbaycanı regionda və dünyada tolerantlıq nümunəsinə çevirmişdir. Eyni zamanda, Azərbaycanın bu təcrübəsi dünyada gedən proseslərə müsbət töhfələr verir.

*Hörmətli konfrans iştirakçıları.*

Üçüncü minilliyin başlanğıcında bəşəriyyətin qarşısında duran mühüm məsələlərdən biri də yarana biləcək mümkün münaqişələrin qarşısının alınması və onun həllinin optimal variantının tapılmasıdır.

Qeyd etmək lazımdır ki, dinlərarası və mədəniyyətlərarası dialoq əvvəlki dövrlərlə müqayisədə daha çox aktuallıq kəsb edən qlobal problemlərdən biridir. Əlbəttə, ölkəmiz öz gəlirlərindən daha çox ekoloji və digər sosial məsələlərə dair layihələrə yönəldə bilərdi. Lakin qonşu ölkənin təzyiqi, daha doğrusu, təcavüzü nəticəsində, Azərbaycan hərbi sahəni gücləndirmək məcburiyyətindədir. Çünki, Ermənistan bütün imkanlardan istifadə edərək, öz hərbi gücünü artırır və atəşkəs rejimi olmasına baxmayaraq, daimi olaraq dinc vətəndaşlarımızı, o cümlədən, uşaqları silahlı hücuma məruz qoyurlar. Təbii ki, biz dialoqa və sülh danışıqlarına üstünlük veririk. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bütün mötəbər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul etmişlər. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir və biz burada böyük ədalətsizliklə, ikili standartlarla üzləşirik. Elə münaqişə və konfliktlər var ki, onlara dair qətnamələr çox qısa vaxt ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıbdır. Biz dünya ictimaiyyətini, eləcə də din xadimlərini bu problemin həllində dəstək olmağa səsləyirik. Bu mənada dini ocaqların rolu mühüm əhəmiyyət kəsb edir. Hər bir din insanlara, insanlığa xidmət edir. Tolerantlıq hər bir insana heç bir diskriminasiya olmadan iqtisadi və sosial inkişaf imkanı yaradılmasını tələb edir. Son illərdə dünyada ekstremizm və zorakılığın güclənməsi müşahidə olunur. Tolerant yanaşmanın zəif olması bu mənfi tendensiyanın güclənməsinə təkan verir. Mən xüsusi ilə qadınlara və uşaqlara qarşı edilən zorakılığın üzərində dayanmaq istərdim. Bütün dinlərdə və milli adət-ənənələrdə, o cümlədən Azərbaycanda da qadın və uşaqlara qarşı münasibətdə xüsusi diqqət var. Tolerantlıq və dialoq çərçivəsində qadın və kişilər üçün bərabər imkanlar yaradılmalıdır. Onların hər ikisinin yetişməkdə olan gənc nəslin düzgün təlim və tərbiyə almasında mühüm rolu var. Buna görə də qloballaşan dünyada qadın və kişilərin fəaliyyəti xüsusi əhəmiyyətə malikdir. Bir məsələni də qeyd etmək istərdim ki, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq sahəsində nailiyyətlərin əldə edilməsi gender problemi həll olunmadan mümkün deyil. Onlar münaqişələrin qarşısının alınmasına və sülhün yaranmasına böyük töhfə verə bilərlər. Bu baxımdan qadınların ortaq istəyi münaqişə və konfliktlərin təsirinin mümkün qədər azalmasıdır.

Bu gün dünyanın müxtəlif yerlərində - Avropada, Yaxın Şərqdə, bizim regionda dini zəmində, məzhəb zəminində, başqa səbəblər üzündən qan tökülür, vətəndaş müharibələri aparılır, qarşıdurmalar baş verir. Dünyada həm coğrafi, eyni zamanda, humanitar baxımdan Azərbaycanın nadir rolu var. Biz Şərqlə Qərb arasında, qədim "İpək yolu" üzərində yerləşən bir ölkəyik. Avropanı yaxşı anlayırıq, eyni zamanda, müsəlman dünyasının da bir parçasıyıq. Dövlətimiz çalışır ki, sivilizasiyalararası dialoq daha da güclənsin. Azərbaycanda milli, dini zəminində heç vaxt qarşıdurma olmayıb və olmayacaq. Bunun qarantı Azərbaycan dövləti və Azərbaycan xalqıdır. Ona görə də bütün ölkə vətəndaşları təhlükəsizlik şəraitində yaşayırlar. Artıq dünyanın bütün ölkə və xalqları Azərbaycanın dini və mədəni tolerantlıq modelini qəbul edir və bu təcrübə öz unikallığı ilə seçilir. Mən bir daha belə bir mötəbər tədbirdə çıxış üçün şərait yaratdığına görə təşkilat komitəsinə öz təşəkkürümü bildirirəm.

*Diqqətinizə görə minnətdaram!*




Sonra söz **UNESCO-nun Strateji Planlaşdırma Bürosunun təmsilçisi Ann-Belinda Preisə** verildi:

*Hörmətli nümayəndələr.*
*Dini icmaların nümayəndələri.*
*Alimlər və ekspertlər.*
*Xanımlar və cənablar.*

İcazə verin, çıxışıma ilk növbədə bu mühüm konfransın təşkilatçılarına – Azərbaycan hökumətinə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT), Qafqaz Müsəlmanları İdarəsinə təşəkkür etməklə başlamaq istəyirəm. Çox şadam ki, hamımız üçün maraqlı olan bir mövzunu - dini tolerantlığın təbliğini birlikdə müzakirə etmək imkanı qazanmışıq. Fürsətdən yararlanıb konfransa öz müraciətini göndərən





UNESCO-nun Baş direktoru, xanım İrina Bokovaya təşəkkürümü bildirirəm.

Əslində, UNESCO, müxtəlif mədəniyyətlərin və sivilizasiyaların görüşdüyü, Şərqlə Qərb, Şimalla Cənub arasında bir körpü rolunu oynayan Azərbaycan adlı bu gözəl ölkədə ilk dəfə deyil ki, tədbir keçirir. UNESCO, geniş “Bakı prosesinin” bir hissəsi kimi hələ 2011-ci ildə Azərbaycan hökümətinin təşəbbüsü irəli sürülən Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumununda fəal şəkildə iştirak edib. Bundan başqa, Bakıdakı qədim İçərişəhər UNESCO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilib.

UNESCO ilə Azərbaycan arasındakı əməkdaşlıq davam edir, bu təşkilat və Azərbaycan hökuməti mədəniyyətlərin yaxınlaşmasına öz töhfələrini verirlər.

*Xanımlar və cənablar.*

Bu konfransın mövzusu çox aktualdır. Bu gün dünyadakı münaqişə ocaqları - Malidə, Əfqanıstanda, Suriyada və İraqda baş verənlər dini tolerantlıq və dinlərarası dialoq məsələsini ön plana çəkir. Çünki bu ölkələrdəki münaqişələr zamanı dindən siyasi alət kimi istifadə etməklə vəziyyəti daha da gərginləşdirilər. Bu tendensiya çox ciddi narahatlıq doğurur.

Bu gün bəzi qüvvələr qədim mədəniyyət abidələrini, müqəddəs məkanları məhv edir. Bir neçə il öncə bəlkə də bu halların baş verəcəyini təsəvvür etmək mümkün deyildi. Təəssüf ki, bu gün real mənzərə bundan ibarətdir - digər dinlərə qarşı zorakılıq, mədəniyyət abidələrinə qarşı vəhşilik, özgə ərazilərin talan edilməsi. Bu bizi arzuolunmaz keçmişə qaytarır, yoxsa bu, müəyyən mənada post-modern, hiper-qloballaşmış versiyada aparılan müharibədir?

Əgər biz gələcəkdə dinlərarası dialoq üçün möhkəm əsaslar yaratmaq istəyiriksə, məhz bu suala cavab axtarmalıyıq.

UNESCO-nun bu məsələdə məqsədi, görmək istədiyi bəllidir- mədəniyyətlərarası dialoqun bir hissəsini təşkil edən dinlərarası dialoqa nail olmaq, möminlər və ateistlər, müxtəlif dinlərin, əqidələrin və etiqadların ayrı-ayrı fərdləri və liderləri arasındakı anlaşmanı gücləndirmək –

bununla da, mənəvi ənənələr və onların əsas dəyərləri haqqında qarşılıqlı biliyi və məlumatlılığı artırmaq. Bu məqsədlə UNESCO mədəni müxtəlifliyin və insan hüquqlarına hörmət edilməsi keyfiyyətlərinin əldən-əldə ötürüləcəyi bir dünyada harmonik və həmahəng mövcudluq üçün yerləri genişləndirməyə və artırmağa çalışır.

Bu yanaşmanın hədəflənməsi işi ilə başlayır. UNESCO Nizamnaməsi ilə tanış olanlar yaxşı bilirlər ki, sənəddə aydın yazılıb- "Müharibələr insanların düşüncələrində başladığından, sülh də onların beyinlərində formalaşdırılmalıdır".

Mədəniyyətləri və dinləri bir-birinə qarşı qaldıran nifrətin əksinə çıxış etmək keyfiyyətli təhsilin təmin edilməsi ilə başlayır. Məhz insan ləyaqətinə, mədəni müxtəlifliyə, başqa cür düşünmək hüququna hörmət dəyərlərini formalaşdıran keyfiyyətli təhsil.

Fikir azadlığı, insan hüquqları hər bir qadın və kişinin haqqıdır. Bu, dialoq və qarşılıqlı anlaşma üçün əsas mənbədir. Lakin hər kəsin öz fikrini, düşüncəsini azad şəkildə ifadə etməsi üçün şərait olmalıdır. Bu təmin etmək isə insanlardan savad tələb edir. Güclü savada, informasiya genişliyinə malik olan insanlar belə b ir mühiti formalaşdıra bilər.

Bu gün təsəvvürümüzdə canlandırdığımız kütləvi informasiya vasitələri hekayəsi adətən həqiqi və faktiki olandan uzaqdır. Buna görə də, eşitdiklərimizin və gördüklərimizin daha yaxşı şəkildə qiymətləndirilməsini aparmaq və onları obyektiv analiz etmək qabiliyyəti həmişəkindən daha mühüm əhəmiyyət kəsb etməyə başlayıb. Bu, açıq-aşkar şəkildə etik hesabatlılığa aid edilir: sterotiplərdən və nifrətə təhrikdən azad şəkildə hesabat vermək bugünkü təsvir yönümlü dünyada mümkünsüzdür.

Bu da öz növbəsində, mədəniyyətlərarası bacarıqları – başqalarını cəlb etmək və onların ideyalarına qulaq asmaq, müxtəlifliyi və artan mürəkkəbliyi, açıq və maraqlı münasibət ilə mövcud olan mühiti idarə etmək qabiliyyətini önə çəkir.

Əgər biz buna nail olsaq, mədəni irsin, dini azlıqların qorunmasına töhfəmizi verə bilərik.





Bu töhfə hörmət və özünüdərketmənin yaradıcı birləşməsi ilə başlayır və barışıq, bilik və məlumatlılıq, tarixin doğru şəkildə təqdim edilməsi ilə başa çatır. Bu əsl dinlərarası dialoq və bizim ekstremizmə qarşı cavabımız üçün plandır.

Mən fürsətdən istifadə edərək qeyd etmək istərdim ki, noyabrın 2-ni UNESCO ilk dəfə Birləşmiş Millətlər Təşkilatının Jurnalistlərə Qarşı Cinayətlərə Son Qoyulması Günü kimi qeyd edib.

*Xanımlar və cənablar.*

Bu gün hər hansı bir ölkə, nə qədər güclü olsa belə, təkbaşına heç bir istiqamətdə irəliləyə bilməz. Bizim qarşılaşdığımız problemlər – iqlim dəyişikliyi, yoxsulluğun aradan qaldırılmasından davamlı inkişafa kimi – bir-biri ilə bağlıdır, çünki biz yeni 2015-ci ildən sonrakı İnkişaf Gündəliyinə doğru tələsirik. Ortaq dəyərlər və standartlar, növbəti illərdə qlobal sülhü və inkişafı təmin etmək üçün zəruri əhəmiyyətə malik olacaq.

Beynəlxalq ictimaiyyətin mədəniyyətlərarası və dinlərarası dialoqa, sülh üçün anlaşma və əməkdaşlığa dair yenilənmiş öhdəliyinin qaçılmaz olduğunu görməkdəyik. 2014-cü ilin yazında UNESCO-nun İdarə Heyəti tərəfindən qəbul edilmiş, Mədəniyyətlərin Yaxınlaşması üçün Onillik Tədbirlər Planı bu istiqamətdə atılan mühüm addımdır.

Qarşılıqlı bilik, ümumi ortaq dəyərlər üçün plüralistik çərçivə, prinsiplərin yayılması və mədəniyyətlərarası dialoq üçün alətlər və davamlı inkişafın etik, sosial və mədəni aspektlərinə dair dialoqa çağırışa yönələn dörd əsas fəaliyyət istiqaməti ilə mərhələ, arzuladığımız dünyada xalqlar və millətlər arasındakı yeni əlaqələrin qurulması üçün müəyyən edilir.

UNESCO, xüsusi tərəfdaşlıq, yeni və innovativ əməkdaşlıq üsulları, eləcə də, gələcək dinlərarası dialoqların ən yaxşısını bir araya gətirəcək və ən pisləri geridə qoyacaq yollara və vasitələrə qətiyyətli investisiyalar vasitəsilə hər bir kəsi bu gəminin göyərtəsinə dəvət etməyə hazırdır.

*Sağ olun!*




**Bakıdakı Avropa yəhudiləri icmasının Baş Ravvini Şneor Seqal** fikirlərini bölüşdü:

İlk növbədə, bu gözəl və vacib konfransın təşkilatçılarına - Azərbaycan hökumətinə, ATƏT-in Bakı Ofisinə və Qafqaz Müsəlmanları İdarəsinə öz minnətdarlığımı bildirirəm.

Belə tədbirlərin uğurlu olması üçün bir çox amillər var ki, onlar hökmən nəzər alınmalıdır. Bizim toplaşdığımız və səmərəli müzakirələr aparmağa çalışdığımız bu təbdir çox vaxtında təşkil edilib. Çünki tolerantlıq mövzusundakı bu tədbirin Azərbaycanda keçirilməsi təsadüfü deyil. Bu məkan müxtəlif dinlərin, irqlərin və millət nümayəndələrinin toplaşaraq vahid cəmiyyət yaratdığı bir məkandır. Bir daha qeyd edim ki, tədbir təşkilatçıları yer seçərkən doğru seçim edib və bu amilləri nəzərə alıblar.





Azərbaycandakı tolerantlıqdan danışmağa məncə ehtiyac yoxdur. Çünki bu xalq tolerantlığı əməli təcrübədə yaşayır. Şəxsi təcrübəmdən bir nümunəni qeyd etmək istərdim. Yəhudilərin Sukor adlı bir bayramı var. Bu bayramın tələbi olaraq yeddi gün boyunca evlərin yaxınlığında qurulan çadırlarda yemək yeyilməlidir. Belə vəziyyətdə hər bir yəhudi münasib şəraitin olub-olmayacağından narahatlıq keçirir. Mən sinaqoqun rəhbərliyinə müraciət etdim. Onlar yaşadığım binanın sakinlərinə müraciət edərək bu bayram günlərində mənim çadır qurmam üçün icazə aldılar və mən həmin bayramı rahatlıqla qeyd edə bildim.

Zənnimcə bu, Azərbaycan tolerantlığı üçün ən gözəl nümunədir.

Tolerantlıq barədə danışılanda bəzi insanlar din və imanın cəmiyyətdə anlaşılmazlıq və münaqişə yarada biləcəyini düşünürlər. Bu tamamilə yanlış bir düşüncədir. Hər bir insan fərqli dildə danışır, fərqli düşüncəyə sahibdir. Talmutda deyilir ki, bir-birinə oxşar insan yoxdur. Hər bir insan unikaldır. Hər kəsin özünəməxsus şəxsi nəzəri var. Əgər mən imanlı şəxs olaraq Allahın hər bir kəsi müəyyən niyyətlə yaratdığına inanıramsa demək, hər bir insanın özünəməxsus əməlləri yerinə yetirdiyinə də inanmalıyam. Həmin şəxs cəmiyyətə yalnız özünəməxsus nəzəri bəxş edə bilər. Mənim sahib olduğum baxışla bütün insanların dünyada yaşaması mümkün deyil. Ona görə hər bir insana dünyaya öz töhfəsini vermək üçün şərait yaradılmalıdır. Belə olduqda dünya daha da gözəlləşəcək və dinlərarası dialoqda irəliləyiş əldə olunacaq. Biz din xadimləri bu işdə öz töhfəmizi əsirgəməməliyik.

Bir daha sizlərə minnətdarlığımı bildirir, diqqətinizə görə təşəkkür edirəm.

*Sağ olun!*




Söz **Qafqaz Müsəlmanları İdarəsinin Moskvadakı səlahiyyətli nümayəndəsi Şafik Pşixaçevə** verildi:

*Hörmətli Şeyxülislam həzrətləri!*
*Hörmətli sədarət!*

Belə bir mötəbər konfransı təşkil etdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Belə bir tədbiri yalnız Azərbaycanda təşkil etmək mümkün idi. Çünki məhz bu torpaqda barəsində danışdığımız dəyər mövcuddur və bu, əvəzedilməz dəyərin adı tolerantlıqdır. Bizdən əvvəl tolerantlığın elmi-terminoloji mənalarına toxunuldu, onun məfhumundan söhbət açıldı. Tolerantlıq barədə bizim də öz anlayışımız var. Həm Azərbaycan, həm də Rusiya Federasiyası bu sahədə irəliyə böyük addımlar atıb. Bizim münasibətlərimiz yalnız qarşılıqlı dözümlülükdən ibarət deyil. Təbii ki, münasibətlərdə bu da olmalıdır. Lakin uzun müddət bir-birimizə qarşı yalnız dözümlülük göstərib otursaq, dünya heç də bundan faydalanmayacaq. Həm yaşadığı həyatda, həm də fəaliyyətində gözəl





təcrübəyə malik olan hörmətli Şeyxülislam həzrətləri bu gün bir daha göstərdi ki, yalnız oturub dözməklə deyil, bütün dinlərin və konfessiyaların nümayəndələri ilə qarşılıqlı münasibətlər qurmağa çalışmaq lazımdır.

Hörmətli həmkarlar, Azərbaycandakı vəziyyət, tolerantlığın bu gözəl ölkədəki modeli haqqında dünəndən bəri çox sözlər deyilib. Bu gün Azərbaycanda sülh və qarşılıqlı anlayış mövcuddur. Qeyd etməliyik ki, dinlərarası, konfessiyalararası və mədəniyyətlərarası münasibətlər sahəsi olduqca həssas və incə sahədir. Və bu, özü-özünə formalaşmır, bunun icraçıları olmalıdır. Mən fürsətdən yararlanıb Prezident İlham Əliyev cənablarına minnətdarlığımı bildirmək istəyirəm. Bu şəxs öz mərhum atasının siyasətini uğurla davam etdirir və bu gün həmin münasibətlərin qarantıdır.

QMİ-nin Aparat rəhbəri Simran Həsənov dünənki çıxışında çox gözəl qeyd etdi ki, dini tolerantlığın bərqərar olması üçün siyasi iradə olmalıdır. Lakin bir çox ölkədə məhz biz bu siyasi iradə çatışmır. Bu səbəbdən də həmin bölgələrdə müxtəlif qarşıdurmaları müşahidə edirik. Başa düşürük ki, dünya ideal deyil və burada ideal cəmiyyət yoxdur. Hər bir cəmiyyətin öz qüsurları və öz problemləri var. Lakin bu problemlər qarşılıqlı anlayış çərçivəsində həll olunmalıdır. Bunun üçün isə siyasi iradənin olması labüddür.

Biz bilirik ki, bəşər övladı ali İlahi yaradılışın əsəridir. Əgər biz insan həyatına dəyər və ehtiramla münasibət göstərməsək, münaqişələr zamanı mənfi münasibətlərlə də qarşılaşa biləcəyik. Heç bir din, dini əqidə amili lokal və ya qlobal münaqişə mənbəyi kimi qeyd edilə bilməz. Siyasi iradə ifadə edilsə, insanlar bir-birilərini dinləsə, o zaman dünyada sülh bərqərar olacaq. Azərbaycanda ona görə də dini tolerantlıq var. Ölkə rəhbərliyi bizim möhtərəm Şeyxülislamımız Allahşükür Paşazadə həzrətlərini dinləyir, məsləhətləşir, dini başçımız da xalq qarşısındakı məsuliyyətini və cəmiyyətin inkişafındakı rolunu anlayır. Belə bir qarşılıqlı əməkdaşlıq sayəsində bu məmləkətdə sülh və əmin-amanlıq bərqərar olub.

Rusiya Federasiyası nümunəsindən də qeyd edə bilərəm ki, din xadimləri dini münaqişələrin yaradılmasına rəvac verməyiblər. MDB məkanında artıq 15 ildir ki, ənənəvi dinlərin nümayəndələri Rusiya Federasiyasında dinlərarası Əməkdaşlıq Şurası təsis edilərək effektiv

şəkildə cəmiyyətin müsbət inkişafına öz töhfələrini verirlər. Tarixən Rusiyada din və ya konfessiya zəminində münaqişə yaşanmayıb. Bu həqiqətən də bizim üçün fəxrdir.

Lakin bu dövrdə yalançı – psevdodinlər uydurularaq münaqişə mənbəyinə çevrilib. Dini şüarlar, çağırışlar artıq kimlərinsə şəxsi siyasi məqsədləri üçün sui-istifadə edilir. Siyasi məqsədlər üçün cəmiyyətdə dini radikalizm qızışdırılır, dini dəyərlər şəxsi ambisiyalarda istifadə olunur. Bu zaman dini zəmində münaqişələrin baş verdiyini müşahidə etmək olur.

Yaxın Şərq bölgəsində inqilabi vəziyyətin yaradılması üçün heç bir ehtiyac yox idi. Həmçinin Rusiyanın cənub bölgəsində, Şimali Qafqazda süni formada belə münaqişə yaradılmışdı. Bu münaqişədə mənim bir çox qardaşım, həmkarım həlak olub. Qətlə yetirilmələrinin səbəbi isə zorakılığa qarşı çıxmaları və insanpərvərliyi təbliğ etmələri idi. Bütün bu zorakılıq və qətlləri siyasi sifariş saymaq olar.

Əgər hər bir şəxs insan həyatının ali bir dəyər olduğunu anlasa, din xadimləri öz üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirsələr, o zaman dünyada asayiş bərqərar olar. Amma bundan şəxsi ambisiyalar üçün siyasi məqsədlərdə istifadə edilsə, o zaman bu münaqişələr də daha böyük vüsət alacaq.

İslamın dini şüarı çox sadədir. Mən müqəddəs Qurani-Kərimdən bir ayə söyləmək istəyirəm: ***"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq-aşkar düşməninizdir!"*** ("əl-Bəqərə", 208).

Əgər biz Uca Rəbbimizin bu çağırışına qulaq assaq daha yaxşı bir vəziyyəti müşahidə edəcəyik.

Yenə də buyurur: ***"...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin..."*** ("əl-Maidə", 2).

Hər bir fərd və vəzifəli şəxs bu universal şüara əməl etsə, dünyada daha çox xeyirxahlıq olacaq. İnşallah, gələcəkdə də bir-birimizi başa düşəcəyimizə, anlayacağımıza ümid edirəm.

*Vəs-səlamu aleykum və rəhmətullahi və bərakatuh!*







**ATƏT Sədrinin Müsəlmanlara qarşı dözümlülük və ayrı-seçkiliklə mübarizə məsələləri üzrə şəxsi nümayəndəsi Talib Küçükcan** çıxış etdi:

*Bütün konfrans iştirakçılarını salamlayır və tədbirin işinə uğurlar arzulayıram.*

Qafqaz Müsəlmanları İdarəsinin sədri, hörmətli Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə təşəkkürlərimi yetirirəm. Şeyxülislam həzrətləri dini dözümlülük məsələlərini daim diqqət mərkəzində saxlayır, dünya səviyyəli tədbirlərdə bununla bağlı çıxışlar edir.

ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, səfir Ələsgər Şahtaxtinskiyə minnətdaram ki, Azərbaycan hökuməti ilə əməkdaşlıq edərək belə bir vacib konfransın təşkilinə nail olub.

Bu konfransın əhəmiyyəti ondadır ki, iki gün ərzində təkcə müxtəlif ölkələri deyil, həm də ayrı-ayrı dinləri, konfessiyaları təmsil edən insanlar işgüzar müzakirələr apardılar, bugünkü durumu müzakirə etdilər və ən əsası gələcək üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirdilər. Dini rəhbərlər dünyaya vacib mesajlar verdilər. Mənim fikrimcə, tədbirin uğuru da elə bundan ibarətdir.

Çıxışımın əvvəlində bir vacib məsələni qeyd etmək istərdim. Bu gün Avropada bəziləri belə düşünür ki, dünyəvilik olan yerdə din arxa plana keçəcək. Qərb ölkələrində bu düşüncənin özünə yer tapacağına hardasa inanmaq olar, lakin dünyanın müxtəlif ölkələrində din, dini icmalar və onlara rəhbərlik edən insanlar mühüm bir faktordur.

Bu gün Amerikanın özündə də din çox dinamik bir haldadır. Bu, bir daha sübut edir ki, din müasirliyə mane olmur və ikinci plana keçmir, din həmişəki kimi, həyatımızda əsas amillərdən biridir. Dini icmaların legitim tələbləri var və biz bu tələblərə diqqətlə yanaşmalıyıq.

Bu gün dünyanın qloballaşması, kommunikasiyanın inkişaf etməsi, miqrasiyanın artması müxtəlif dinlərə məxsus insanların birgə yaşamasını şərtləndirir. Vəzifəmə uyğun olaraq ATƏT regionda müsəlmanların üzləşdikləri problemlərlə məşğul oluram və müşahidələrimə görə bu gün müsəlmanların qarşılaşdıqları məsələləri tezliklə həll edə bilməsək, daha ciddi problemlərlə üz-üzə qala bilərik.

Son vaxtlar dünya islamafobiyadan əziyyət çəkir, bu halın miqyası gündən-günə artdıqca müsəlmanlara qorxu mənbəyi kimi baxırlar. Xüsusi ilə 2001-ci il 11 sentyabr hadisələrindən sonra Qərb dövlətlərdə müsəlman olan iş yoldaşından, qonşudan qorxmağa başlayırlar. Avropa mətbuatında, xüsusi ilə sosial mediada müsəlmanlar qorxu mənbəyi kimi təqdim olunur, aşağılanırlar. Müsəlmanların belə bir imicdə tanıdılması təhlükəli tendensiyadır və bu bizi narahat etməyə bilməz.

Müxtəlif dinlərin dinc yaşamasından söhbət açdığımız bir zamanda hər hansı bir dinə qarşı təhqirlər səslənirsə, deməli biz öz fikirlərimizdə səmimi deyilik.

Avropanın siyasi arenasında təkcə İslama deyil, ümumiyyətlə dinlərə qarşı çıxan bəzi qruplar seçkilərdə müəyyən səs qazanırsa, bu artıq





təhlükədən xəbər verir. Əgər biz fundamental insan haqlarından danışırıqsa, hər kəsə öz dini inancları ilə bağlı ayinləri icra etməyə şərait də yaratmalıyıq.

Təklif edərdim ki, ATƏT üzvü olan ölkələrdə dini dözümsüzlüklə bağlı monitorinqlər aparaq, həmçinin qabaqlayıcı tədbirlər barədə düşünək. Vacib məsələlərdən biri də tədris kitablarında dinə qarşı münasibətlərə fikir verilməsidir. Etiraf edək ki, bəzən dərs vəsaitlərində dinlər heç də müsbət imicdə təqdim olunmur.

İki gün ərzində bu konfransda çox mühüm məsələlər barədə muzakirələr oldu, tolerantlığın Azərbaycan nümunəsi haqqında fikirlər səsləndi. Mən bu barədə hazırlayacağım məlumatı ATƏT Sədrinə təqdim edəcəyəm.

Belə bir vacib toplantıda bizi bir araya gətirmək üçün səy göstərən, bu regionda bütün dinlər arasında qarşılıqlı etimad və inam mühiti yaradan Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə bir daha təşəkkürümü bildirirəm.

*Sağ olun.*



Sonra söz **Rus Pravoslav Kilsəsinin kilsə və cəmiyyətin qarşılıqlı əlaqələri şöbəsi nəzdində fəaliyyət göstərən Dinlərin Coğrafiyası Mərkəzinin rəhbəri, professor Roman Silantyevə** verildi:

Bu mötəbər iclasda hamını salamlayıram və öz çıxışımda Rusiya və Azərbaycan nümayəndələrinin Tolerantlıq haqqında çıxışlarından ortaya çıxan yekun nəticəsi barədə danışmaq istərdim.

Təbii ki, tolerantlıq mövzusu gündəmə bu yaxınlarda gəlib. 20 il, 30 il və 100 il öncə bu barədə danışılmırdı. Sadə bir səbəbə görə, çünki bu o qədər aşkar məsələ idi, çünki, tolerantlıq, bir-birinizə hörmət, yəni: dini etiqadından, irqi, irsi, milli fərqlərə baxmadan hörmət var idi və bu barədə danışılmırdı. Çünki, bu açıq-aşkar idi. Çünki, bugünkü gündə tolerantlığa daxil olan hallar 20-30-100 il əvvəl ictimaiyyətdə adi bir hal sayılırdı. Necə ki, səhər dişləri yumaq lazım olduğunu və yaxud ədəbsiz





sözlərin dilə gətirilməsinin yaxşı iş olmadığını xatırlatmağa ehtiyac qalmayıb. Çünki, bu adi bir haldır. Amma bizim sivilizasiyamız, xüsusən də Rusiya, Azərbaycan və Avropa sivilizasiyaları fərqli cür inkişaf edirdi. Avropa bizə yalnız böyük mədəniyyət yox, eləcə də bir çox dəhşətli meyarlar təqdim edir. Misal üçün Avropada "Sosial darvinizm" və "Rasizm" məsələləri ortaya çıxdı. Həmçinin o vaxtlar Avropa alimləri çox ciddi şəkildə insanların iki hissəyə bölündüyünü, ali səviyyəli insanlar və insan səviyyəsindən aşağı olan insanların mövcudluğunu bildirirdilər. Ali səviyyəli insan ağ dərili insan idi ki, hər yerə nüfuz etmək, hər yerdə öz əmrlərini diqtə etmək haqları var idi. Qara dərili insanlarda isə tam əksi müşahidə olunurdu. Onlara insan səviyyəsindən aşağı bir varlıq kimi baxılırdı. İnsanları öz mənşəyinə görə sterelizasiya edirdilər. Nəticədə isə faşizm və həbs düşərgələr yarandı. Təəssüflər olsun ki, Avropa sivilizasiyası bizə əslində bunları verdi. Ona görə də burada sivilizasiya dəyərlərinə Rusiya və Azərbaycan prizmasından da baxılmalıdır. Məncə Rusiya və Azərbaycanın tolerantlığı haqda çox danışmağa ehtiyac yoxdur. Çünki, bu tolerantlıq bizdə qədimdən mövcud idi. Ona görə də tolerantlıq yeni qəbul edilib desək düzgün çıxmaz. Amma hər halda biz insan haqqında danışırıq. İnsan yaxşı deyilsə ona hörmət etmək lazım deyil deyirlər, onunla dostluq etmək lazım deyil deyirlər, ona nəyə görə dözməliyik deyillər. Əgər insan pisdirsə, şər əməllər edirsə onu sülhə dəvət etmək lazımdır və onun şər əməllərinə dözmək lazım deyil! Tolerantlıq artıq bizdə UNESCO-nun təsvir etdiyi məfhumda qəbul olunmur. Rusiyada bir çoxları qeyd edirlər ki, tolerantlıq tibbi bir termin olaraq qəbul edilir. Yəni: sadəcə dözmək yox, pis bir şeyə dözmək kimi qəbul edilir. Misal üçün tibdə siflis və qripə dözümlülük məsələləri qaldırılır. Və fakta görə doğurdan da insanlar bunu təcrübədə müşahidə edir. Yəni: harada tolerantlıq varsa orada sülh də bitir. Misal üçün insanlar çox vaxt belə bir sual verir: Nəyə görə totalitar Şimali Koreyada Pravoslav xristianları özlərini sakit və rahat hiss edirlər, amma Avropa ittifaqına və dəyərlərinə can atan Ukraynada isə rus dilində danışan, həmçinin rus Patriarxının adını çəkən insanlar qətlə yetirilir? Avropa ittifaqına can atan demokratik Ukraynada 5 pravoslav keşişimizin qətlə yetirilməsi ola

bilər. İnsanlar sual verir: Nəyə görə Hüseyn və Əsəd adlı "tiranların" zamanında xristianlar orada rahat yaşayırdı. Amma "demokratiya" ora gələndən sonra orada böyük müharibələr başladı. İnsanlar soruşur: misal üçün, nəyə görə Azərbaycanda sərt dini qanunvericiliklər var? Mənim zənnimcə səhv tənqid edirlər. Azərbaycandan tək-tük adamlar var ki, nadir hallarda İslam ölkələrinə döyüşə gediblər. Lakin Avropa ölkələrinə nəzər salsaq görərik ki, bizə tolerantlıq və dini azadlıq nümunəsini təqdim etsələr də elə oradan da minlərlə insan Suriyaya oradakı qətliamda qatil qismində iştirak etmək məqsədi ilə gedirlər. Məqsədlərinə nail olduqdan sonra isə etdikləri vəhşilikləri foto və video lentə alaraq müsəlmanlıq adı altında dünyaya təqdim edirlər. Bunu müasir avropalılar edir. Ənənəvi müsəlmanlığa heç bir aidiyyatı olmayan şəxslər özlərini müsəlman adlandıraraq qətllər törədirlər.

Amma biz görürük ki, Azərbaycanın gözəl nadir nümunəsi var. Çünki, Rus Pravoslav Kilsəsinin mövqeyi burada doğurdan da təqdirə layiq şəkildədir. Dünyanda və bu regionda Azərbaycan və Rusiya Federasiyası əslində ən yaxşı dinlərarası dialoq səviyyəsinə malik olan ölkələrdir. Bizim ölkələr arasında olan isti münasibətlər dünən və ya 100 il bundan qabaq başlamayıb, bu qarşılıqlı ehtiram münasibətlərin tarixi çox qədim zamana söykənir.

Cənab Şaxtaxtinskinin əcdadlarından biri də 110 il bundan əvvəl müsəlman və xristian arasında olan dostluq münasibətlərini inkişaf etdirərək möhkəmləndirməyə çalışanlardan idi. Əsrlər boyunca burada nə milli zəmində, nə irqi zəmində, nə dini zəmində ayrı seçkilik mövcud deyildi. Həmçinin bu regionda dini zəmində də heç bir müharibələr baş vermirdi. Artıq başqa dünya ölkələrində də bu unikal modelə daha tez-tez ehtiyac duyulur. Çünki, Qərb tolerantlıq modeli daha işləmir və bir çox insanlarda bu dəhşət yaradır. Avropada tolerantlıq çox mənfi bir don aldığından insanlar atıq tolerantlığa xəstəlik kimi baxırlar. Amma Rusiya və Azərbaycanda qəbul olunmuş dəyərlər yüz illiklərin sınağından keçib və inkişaf etməkdədir. Buna görə mən sizin hamınızı Azərbaycan Respublikasının təcrübəsindən bəhrələnməyə çağırıram. Bu nümunə dünya üçün gözəl təcrübədir. Çünki, dini rəhbərlər bu cür konfranslarda məc-





buri şəkildə iştirak etmirlər. Onlar qeyri formal, hətta 10 illərlə ailəvi dostluq edirlər. Ümid edirəm ki, ömürlərinin sonuna qədər bu dostluqları davam edəcək. Məhz bu cür təcrübə Avropa, Amerika və digər dövlətlərin zənginləşməyinə şərait yaradacaq.

*Diqqətinizə görə təşəkkür edirəm.*




**Tbilisi İlahiyyat Akademiyasının rektoru, Protopresviter Georgi Zviadadze** çıxış etdi:

*Əziz dostlar, diplomatik korpusların nümayəndələri!*
*Hörmətli sədarət!*
*Cənab Şeyxülislam həzrətləri!*

Konfransın gedişi zamanı əhatəli, çox gözəl məruzələr və çıxışlar səsləndirildi. Dini dözümlülük, tolerantlıq haqqında geniş söhbətlər oldu. Təmsil etdiyim Gürcüstan Patriarxlığında da bu məsələ daim diqqət mərkəzindədir. Ölkəmin tarixinə nəzər salanda yəhudi icmasının ilk dəfə məhz qədim Gürcüstanda formalaşdığını görmək olar. Fəxrlə deyə bilərəm ki, bizdə heç antisemitizm meylləri olmayıb. Biz gürcülər ölkəmizdəki müsəlmanlarla da həmişə din və yanaşı yaşamışıq, bu dostluq münasibətləri bu gün də davam etməkdədir.





Dini dözümlülük və tolerantlıqdan danışanda Bütün Gürcüstanın Katolikos-Patriarxı və Gürcü Pravoslav Kilsəsinin dini rəhbəri II İliya həzrətləri ilə hörmətli Şeyxülislam Allahşükür Paşazadə arasındakı dostluq və qardaşlıq münasibətləri əsl nümunə ola bilər. Yeri gəlmişkən, onu da konfrans iştirakçıların diqqətinə çatdırım ki, Gürcüstanda Qafqazın Şeyxülislamı Allahşükür Paşazadəyə böyük hörmət və ehtiram bəsləyirlər. Dünən II İliya həzrətlərinin hörmətli Şeyxülislama ünvanladığı məktubu sizlərin qarşısında oxudum, orada səslənən fikirlərə qoşulur və öz adımdan da Allahşükür Paşazadə cənablarına minnətdarlığımı bildirirəm.

İki qonşu xalq arasındakı xoş münasibətlərə misal çəkərkən bir məsələni də qeyd edim. Gürcüstan Patriarxlığı ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanan niyyət protokoluna əsasən, ölkəmizdəki kilsə və məbədlərdə istifadə olunan maye qazın pulunu ARDNŞ öz üzərinə götürüb. Bu, təkcə bizim dindarlara deyil, bütün gürcü xalqına bir töhfədir.

*Əziz dostlar!*

Sevinirəm ki, belə bir gözəl konfransda sizlərlə bir aradayam. Dözümlülük çox vacib və qiymətli bir dəyərdir, onsuz dünyanın gələcəyini təsəvvür etmək mümkün deyil. Bayaq qeyd etdiyim kimi, Gürcüstanda bu sahədə mühüm addımlar atılıb, mənim ölkəm kiçik olsa da, ruhu çox böyükdür. Tolerantlıq bizim həyat tərzimizə çevrilib, hamı başa düşür ki, kilsə zorakılığın əleyhinədir.

Sevinirəm ki, Azərbaycan da bu məsələdə digər dövlətlərə nümunə ola bilir. Həqiqətən də Azərbaycanda bu sahədə böyük işlər görülür. Azərbaycan dövlətinin başçısı İlham Əliyev cənablarına, hökumət təmsilçilərinə, dini lider Şeyxülislam Allahşükür Paşazadəyə və ATƏT nümayəndələrinə bu vacib və aktual bir tədbir təşkil etdikləri üçün təşəkkürümü bildirirəm.




Sonuncu sessiya isə "Qloballaşan dünyada dini radikallaşma meyllərinin qarşısının alınması" mövzusuna həsr edilmişdi. ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, Baş layihə rəhbəri Andraş Hugyikin moderatorluğu ilə keçən iclasda **Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin müavini Siyavuş Heydərov** çıxış etdi:

*Əziz dostlar!*

Bugünkü konfransda qloballaşan dünya üçün olduqca aktual mövzu ilə bağlı, o cümlədən hazırkı paneldə dini radikallaşma meyllərinin qarşısının alınmasında dinlər və mədəniyyətlərarası dialoqun rolu və dövlət-din münasibətləri modelləri ilə əlaqədar dəyərli fikirlər səslənir.

Bildiyimiz kimi, XX əsrin sonu XXI əsrin əvvəlini dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra qlobal problemlərin yaranması və gərginləşməsi, xüsusilə əxlaqi-etik dəyərlərə lazımi diqqət yetirilməməsi nəticəsində





mənəviyyat problemlərinin kəskinləşməsi kimi də səciyyələndirmək olar.

Bundan başqa, dünya dinləri arasında mövcud fərqlərə əsaslanan sivilizasiyaların toqquşması nəzəriyyəsinin də meydana çıxması nəticəsində bəzi separatçı dairələr bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq, xüsusilə siyasi məqsədlərinə nail olmaq üçün din amilindən istifadə etməyə çalışırlar. Son illər dünyanın müxtəlif regionlarında baş verən etnik, dini və siyasi qarşıdurmaların, hərbi münaqişələrin təhlili göstərir ki, dinlər arasında dialoqun yaranması prosesinə qüsurlu yanaşmalar, o cümlədən ikili standartlar mövcuddur. Bunun nəticəsində ənənəvi stereotiplər xalqlar və dinlər arasında sülh və əməkdaşlığın, qarşılıqlı faydalı münasibətlərin əldə edilməsində hələ də ciddi maneə olaraq qalmaqdadır. Odur ki, bu problemin, xüsusilə radikallaşma meyllərinin yaranma səbəbləri köklü və dərindən araşdırılmalı, çıxış yolları və mexanizmləri işlənilməlidir. Bu baxımdan problemə iki aspektdən yanaşmaq istərdim.

Birincisi, təhlillərə əsasən deyə bilərik ki, dinlərarası dialoqun uğurunu ləngidən başlıca amillərdən biri geosiyasi və geoiqtisadi mənafelərin bu prosesə davamlı müdaxiləsidir. Belə olan halda dialoq güc mərkəzinin siyasi monoloquna, bir tərəfin din amilindən siyasi məqsədlər üçün istifadə etməklə digərləri üzərində təzyiq vasitəsinə çevrilir.

Son illər Yaxın Şərq regionunda din pərdəsi altında baş qaldıran münaqişələr, eləcə də dinin siyasiləşdirilməsi bu yanaşmanın acı və fəlakətli nəticəsidir. Təcrübə onu da göstərir ki, heç bir dövlət, hətta bu tipli münaqişələrdən bəhrələnməyə çalışan hökumətlər də belə bəşəri fəlakətlərdən qətiyyən sığortalanmayıblar.

İkincisi, heç bir din – İslam, xristianlıq, yəhudilik, buddizm və başqaları insanları zorakılığa, milli və dini ədavətə, radikalizmə, dözümsüzlüyə və terrora çağırmır. Müqəddəs kitablar insanlar arasında humanizm ideyalarını təbliğ edir. Odur ki, dialoq dedikdə heç də dinlər, məzhəb və təriqətlər arasında deyil, ilk növbədə onların daşıyıcısı olan insanlar arasında qarşılıqlı faydalı əlaqələrin humanizm prinsiplərinə söykənən birgəyaşayış normalarının işlənib hazırlanmasını, tətbiqini, möhkəmləndirilməsini və inkişaf etdirilməsini, xüsusilə dünyada ədalət prinsipinin qo-

runmasını və ona riayət olunmasını nəzərdə tutmalıyıq. Bəzi ölkələrdə məqsədyönlü şəkildə islamofobiya meyllərinin güclənməsi və siyasi dairələrin buna biganə qalması ciddi narahatlıq doğurur. Onlar bilməlidirlər ki, bu halların vaxtında qarşısının alınmaması gələcəkdə ölkənin təhlükəsizlik sisteminə ciddi təhdidlərlə nəticələnə bilər. Belə bir şəraitdə tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsindən bəhrələnmək, əlbəttə ki, vacibdir. Bu baxımdan qeyd edildiyi kimi, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Dövlət – din münasibətlərinin sivil, beynəlxalq normalara və demokratik prinsiplərə uyğun qurulmuş Azərbaycan modelinin ilk növbədə müxtəlif dinlərə etiqad bəsləyən ölkə vətəndaşlarının tarixən formalaşmış birgəyaşayış normalarına, etno-mədəni ənənələrə riayət etmələrinə söykənir.

Diqqətə layiq haldır ki, Azərbaycanda heç vaxt dini və irqi zəmində münaqişə hallarına rast gəlinməyib. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub-saxlanılmasında Azərbaycan xalqının, onun milli xüsusiyyətlərinin və İslam dininin misilsiz tarixi rolu danılmazdır. Bu gün tarixi-mədəniyyət abidələrinin, məscid və ziyarətgahlarla yanaşı yəhudi və xristian məbədlərinin bərpası və təmiri Azərbaycan gerçəkliyini əks etdirəm sağlam dini-mənəvi durumun göstəricisidir.

Bunu da əlavə etmək istərdim ki, ölkəmizin zorla cəlb olunduğu Ermənistan-Azərbaycan münaqişəsinə erməni tərəfi və onların xarici ölkələrdəki tərəfdarları reallıqda olduğu kimi, işğalçı müharibə deyil, məhz dini qarşıdurma çalarları vermək istəsələr də səyləri heç bir nəticə verməyib. Ermənistan Azərbaycan xalqının mentalitetindən irəli gələn başqa dinlərə və xalqlara qarşı dözümlülük, onlarla yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşama kimi spesifik xüsusiyyətlərindən sui-istifadə edərək dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparır. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında xalqımıza məxsus tarixi-dini abidələri də qriqoryanlaşdırlb və ya dağıdıb. Lakin Azərbaycan xalqı əsrlərdir olduğu kimi yenə də yüksək tolerantlıq nümayiş etdirərək digər millətlərə xas tarixi abidələrlə yanaşı, işğalı həyata keçirən Ermə-





nistanın da dini abidələrinə qayğı ilə yanaşır. Bakıda olan erməni kilsəsi dövlət tərəfindən bərpa edilərək sivil şəkildə qorunur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkarlıq siyasətini davam etdirməsi təkcə Azərbaycanda deyil, bütün regionda sülh və sabitliyin bərqərar olmasına, eləcə də tolerantlıq ənənələrinin möhkəmlənməsində ciddi problemlər yaradır. Ona görə də bu məsələ təkcə Azərbaycanı deyil, beynəlxalq təşkilatları, inkişaf etmiş dövlətləri, dünya ictimaiyyətini yaxından düşündürməli və təxirəsalınmaz tədbirlər görülməlidir.

Çıxışımın sonunda iki məqamı diqqətinizə çatdırmaq istərdim. Birincisi, tolerantlıq termini ilə bağlı yuxarıda söylədiyim tezislər bu anlayışın yenidən hüquq müstəvisində işlənməsinin vacibliyini göstərir. Terminin dözümlülük, digərləri ilə münasibətdə səbirli olmaq kimi mənəvi-etik kateqoriyalar üzərində stereotip şərhi bu gün nə ideoloji, nə hüquqi və nə də etno-mədəni münasibətlər baxımından özünü doğrultmur. Belə olan təqdirdə indiki reallıqlardan çıxış edərək bildirmək istərdim ki, tolerantlıq anlayışı hamı tərəfindən tanınan yeni hüquqi tərif tələb edir. Və bu yanaşma illuzor dözümlülüyə deyil, məhz ayrı-ayrı din və məzhəb nümayəndələri arasında birgəyaşayış prinsiplərinin formalaşdırılmasına yönəldilməlidir.

İkincisi, qeyd edildiyi kimi, dövlət-din münasibətlərində ortaq və optimal modelin axtarışı zamanın tələbidir. Bu gün biz bunu da müşahidə edirik ki, bir sıra siyasi dairələr tərəfindən öz ölkələrinin dövlət-din münasibəti modellərini digər ölkələrə, o cümlədən Azərbaycana ixrac etməyə çalışırlar. Biz bunları görürük və bunlara qarşı mübarizə aparmağa çalışırıq. Ancaq hər bir dövlət özünün tarixi təcrübəsinə, ənənələrinə, birgəyaşayış normalarına, xüsusilə ümumbəşəri dəyərlərə, beynəlxalq hüquqa uyğun modelini işləyib hazırlamalı və həyata keçirməlidir. Onu da vurğulamaq istərdim ki, hazırda Azərbaycanda dövlət-din münasibətləri modelinin daha da təkmilləşdirilməsi və səmərəsinin artırılması istiqamətində müvafiq işlər aparılır, normativ sənədlər üzərində işlənilir.

*Diqqətinizə görə təşəkkür edirəm.*




Söz **Avropa Ravvinləri Konfransının prezidenti, Ravvin Moşe Levinə** verildi:

*Hörmətli sədarət!*
*Möhtərəm konfrans iştirakçıları!*

Bu konfransın təşkilində göstərdikləri səylərə görə ATƏT-in təmsilçisi, səfir Şahtaxtinskiyə və Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadəyə öz minnətdarlığımı bildirirəm. Həmçinin qonaqpərvər və yüksək səviyyəli tolerantlıq modelini bizə təqdim edən Azərbaycan xalqına təşəkkürümü çatdırmaq istəyirəm.

İki ay əvvəl mən Avropa Şurasının Nazirlər Komitəsinin xətti ilə Azərbaycanda, onun paytaxtı Bakıda olmuşam. Həmin tədbirə din xadimləri də dəvət edilmişdi. Biz Qəzzada baş verənlər ətrafında söhbət apardıq.





Azərbaycandakı tolerantlığın ciddi əsasları var, burada digər dinlərin ardıcıllarına həmişə xoş münasibət göstərilib. Təsəvvür edin ki, yəhudilər Avropada zorakılıqla üzləşəndə Bakıda və Azərbaycanın ayrı-ayrı regionlarında da heç bir antisemit çıxış, əhval-ruhiyyə olmayıb. Bu gün də belədir, əsasən müsəlmanların yaşadığı bir ölkədə belə çıxışların olmadığı halda, Avropada, demokratiyanın mərkəzində antisemitizmlə mütəmadi rastlaşırıq.

Bununla bərabər mən, bizi dini dözümsüzlük fəlakətindən uzaqlaşdıracaq bir çox faktlardan da söhbət açmağa çalışacağam.

İlk növbədə Şərq xristianlarını nümunə olaraq göstərim ki, onlar tərəfindən bir çox yaşlı, qadın və uşaqlar məhz yəhudi olduqları üçün zorakılığa məruz qalmışlar. Avropada illərlə bir yerdə yaşamış insanların yəhudilərə qarşı münasibəti, onları cəmiyyətdən təcrid etmələri, əsir düşərgələrində zülmə məruz qoymaları və digər mənfi hallar qəbuledilməz idi. Bir dini rəhbər kimi qeyd etməliyəm ki, biz dini şüarlarla törədilən bütün zorakılıq hallarını pisləyirik. Həmçinin düşünürəm ki, biz dini radikallaşmaya və terrora qarşı birlikdə mübarizə aparmalıyıq.

Bu gün Fransada yəhudi məktəbləri var, düşünürəm ki, bu məktəblərdə həm müsəlman, həm də xristian din xadimlərinin dərsləri keçirilməli, uşaqlara digər dinlərlə tanışlıq, onlara qarşı dözümlülük aşılanmalıdır. Bu məsələdə dini rəhbərlər daha çox mühüm rol oynaya bilərlər.

İkinci məsələ isə siyasi xadimlərlə bağlıdır. Dinlərarası dialoqda məhz siyasətçilər də fəal iştirak edə bilərlər və etməlidirlər də. Çünki bu problemin yaranmasında onların günahı heç də az deyil.

Qeyd edim ki, bizim Fransada dini icma nümayəndələrinin təmsil olunduğu Şura fəaliyyət göstərir, tez-tez birgə müzakirələr aparırıq. Düşünürəm ki, belə qurumlar milli və regional səviyyələrdə də təşkil edilməli, bu cür müzakirələr daha geniş və əhatəli aparılmalıdır.

Digər təklifim dini rəhbərlərin təmsil olunduğu bir qrupun yaradılmasıdır ki, onlar milli və lokal səviyyədə fəaliyyət göstərməlidirlər. Onların vəzifəsi təhsil sahəsində təhlillər aparmaq və boşluqları müəyyən etmək və həmin istiqamətdə fəaliyyətlərini birləşdirməkdir.

Bir çox ölkələrdə antisemitizmə, nifrətə və islamofobiyaya qarşı qanunlar qəbul edilib. Düşünürəm ki, müəyyən şəbəkələr yaradılmalı, onlar bu faktların yayılmasının qarşısını alınması istiqamətində daim fəaliyyət göstərməlidirlər. Həmçinin dövlət tərəfindən də bunlara dəstək verilməlidir.

Niyyətim sizə qeyri-adi, möcüzəvi həll yolunu göstərmək deyil, lakin bizim birgə, əl-ələ fəaliyyətimizin müsbət nəticələri olacağına əminəm. Bu fəaliyyət həm dövlət, həm təhsil və həm də din xadimlər səviyyəsində təşkil edilməlidir.

Digər bir vacib bir məsələ dini terminlərin izahının aydınlaşdırılması ilə bağlıdır. Çünki bəziləri onlara müəyyən yozumlar və anlamlar verərək insanları çaşdırmağa səy göstərirlər. Biz belə hallara qarşı da münasibətimizi bildirməliyik.

*Diqqətinizə görə təşəkkürümü bildirirəm.*
*Sağ olun!*








**Fransanın Baş nazirinin yanında Milli Təhlükəsizlik və Ədliyyə İnstitutunun əməkdaşı Filip Kayolun** məruzəsi dinlənildi:

İlk olaraq, mən iki səbəbdən sizlərdən üzr istəyirəm: Mən astadan danışacağam və təkcə qabaqlayıcı tədbirlər deyil, eyni zamanda cəza tədbirləri haqqında danışacağam.

Mənim çıxışım, əsasən, bu günlərdə qəbul olunmuş yeni qanuna əsaslanacaqdır : bu, qanun bu il noyabrın 13-də qəbul edilib və onun əsas məqsədi terrorla mübarizə üçün nəzərdə tutulan tədbirlərin gücləndirilməsidir.

Son hadisələr, bu hərəkətlərin qarşısını daha yaxşı almaq və onlar ilə mübarizə aparmaq üçün qanunvericiliyimizdə yenidən baxılmalı və nəzərə alınmalı müəyyən çatışmazlıqların olduğunu göstərmişdir.

Terror təhlükəsi dəyişən bir haldır və onun müntəzəm olaraq terror münasibətlərinin gedişatı və inkişafına uyğunlaşdırılmasına və onların nəzərə alınmasına ehtiyacı var. Əgər 21 dekabr, 2012-ci il qanunu ilə gücləndirilmiş Fransız hüquqi arsenalı həm effektiv şəkildə, həm də İnsan Hüquqları və Konstitusiyasına hörmətlə yanaşmaqla terror aktlarına qarşı mübarizə apara bilərsə, son hadisələr (Fransız vətəndaşlarının və ya xarici vətəndaşların Suriyaya getmələri, Brüsseldə baş verən cinayətlər və qətllər...) göstərmişdir ki, qanunvericilik bu əməllərin xüsusiyyəti və onları törədənlərin davranışı ilə əlaqəli olan həmin narahatlıq doğuran hadisələri nəzərə almaq üçün yenidən uyğunlaşdırılmalıdır. Min nəfərə yaxın Fransız vətəndaşı Suriya və İraqdadır. Onlardan 40-ı həmin ölkələrdə həyatlarını itirmişdilər.

Bu qanun ərazinin tərk edilməsinə dair inzibati qadağa müəyyənləşdirir. Bu qadağa: Fransız vətəndaşlarını silahlı mübarizə məsələlərində səlahiyyət və üstünlük əldə etmək və ya özlərini daha da radikallaşdırmaq və təhlükəni nəticədə milli təhlükəsizliyə çevirmək üçün milli ərazidən kənara çıxan səfərlərdən fayda əldə etmələrinin qarşısını alacaqdır.

Hakimin nəzarəti ilə müəyyənləşdirilmiş zaman ilə məhdudlaşdırılacaqdır. Buna görə də, o, maksimum altı aylıq müddəti əhatə edəcəkdir, lakin maksimum iki il müddəti ilə yenilə bilər, istənilən halda, burada "terror təşkilatını tərk etmək və ya ona cəlb olunmaq istəyinə şahidlik edən uyğun elementlər olacaq".

Valideynlərin azyaşlı uşağın ərazini tərk etməsinə qarşı çıxmaları imkanı və ya pasportun ləğv edilməsi kimi mövcud tədbirlərdən əlavə, həddi-buluğa çatmış şəxslərin çıxıb getmələrinin qadağan edilməsinə imkan verəcək. Bu qadağa, silahlı münaqişənin öyrənilməsinin ideoloji cəlbetmə ilə ikiqat artırıldığı zonalara gənc Fransa vətəndaşlarının getməsi halının artması ilə üzləşmək zərurətindədir.

Daxili İşlər Nazirliyi 24 aprel, 2014-cü il tarixində bu cür dramatik halların qurbanına çevrilmiş ailələrə yardım platformasına dair yaşıl nömrə kampaniyasına başlamışdır. Milli çağrı nömrəsi radikal gənclərin





yaxın üzvlərinin bir-birinə siqnal ötürməsinə və ya kömək və məsləhət almasına icazə verir.

Parlamentarilər ilkin mətndə qadağanın şərtlərini bildirmişlər: şəxsiyyət vəsiqələrinin, eləcə də, pasportların alınması, nazir tərəfindən motivasiya olunmuş və yazılmış qərar, qadağanın ümumi uzunluğu iki aydır, daxili işlər nazirinin hüquqşünasın iştirakı ilə aidiyyəti şəxsləri dinləməli olduğu halda, 8 gün qısaldıla bilər.

*2-ci maddə: xarici vətəndaş üçün ərazidə inzibati qadağanı müəyyənləşdirir.* Qanunda bildirilir ki, hər bir aidiyyatı şəxs "onların iştirakı ilə Fransada şəxsi davranışına görə və təhlükəsizlik xidmətləri baxımından, cəmiyyətin əsas maraqlarına real, həqiqi və kifayət qədər ciddi təhlükə törədə bilər". Bu qadağa, "qeyri-ziddiyyətli prosedurdan sonra" daxili işlər naziri tərəfindən yazılmış və əsaslandırılmış qərarın predmetidir. Əgər bir şəxs Fransa ərazisindədirsə, bu zaman ölkəni tərk etmək üçün bir aydan artıq vaxtı var. Müraciət vasitəsi olaraq, qanunda bildirilir ki, xarici vətəndaş bir illik dövrdən sonra tədbirlər görülməsi üçün müraciət edə bilər. Həmin müraciətdən sonra dörd ay ərzində cavab verilməməsi avtomatik olaraq imtina və ya rədd edilmə kimi başa düşüləcəkdir.

Qanun, terrorizmə və terror aktlarının törədilməsi təxribatına qarşı mübarizəni gücləndirir.

Terror qruplarının "ən təsirli təlqinlərindən və fikirlərindən ibarət olan metodlar" mövcuddur. Fransa cihad üçün çağırış mesajlarına tolerantlıq göstərə bilməz və ya daha da aydınlıq gətirmək üçün bütün toxunulmazlıq hallarına əsaslanır. Bu mesajlar ideoloji şərtləndirməni göstərir və onlar terror aktlarının törədilməsi xarakterinə malikdir.

Qanun inzibati orqan üçün imkanlar açır, İnternet xidməti provayderlərindən terrorizmə çağırış edən saytlara girişin bloklanmasını tələb edir.

"24 saat ərzində bu məzmunlar silinmədikdə", inzibati orqan İnternet Provayderlərindən müvafiq veb-saytlara "girişin qarşısının alınmasını" tələb edəcəkdir. Bundan əlavə, bu orqana, həmçinin, "axtarış mexanizmlərindən və məlumat bazalarından" terror məzmunlu saytların adlarının çıxarılmasını tələb etmək imkanı veriləcəkdir. Bu saytların çıxarıl-

ması, bloklanması və siyahıdan silinməsi tələbi Cnil-in (İnformatika və Azadlıq üzrə Milli Komissiya) "səlahiyyətli üzvünə" bildiriləcəkdir. Bu şəxs, "tələblərin nizamlanmasını" təmin edəcək və bu əməl və ya hərəkət haqqında məlumatları dərc edəcək. Bu maddənin tətbiq üsulları sərəncamın predmeti olacaq.

"Bu vasitə asılılıq və ya tabelilik prinsiplərini təqdim edir: inzibati orqan, ilk növbədə, provayderlərdən tədbirlər görmələrini tələb etməzdən əvvəl ev sahiblərdən uzaqlaşdırma və kənarlaşdırmanı tələb edirlər. O, digər hallar arasında "Cnil-in səlahiyyətli şəxsinin müdaxiləsini təmin edir". İnternet saytların siyahıdan çıxarılması Senatın açıq iclasında hökumət düzəlişi ilə əlavə edilmişdir.

O, məhkəmə orqanı tərəfindən xarici ölkələrdəki informasiya serverlərində axtarış kontekstində məlumatların araşdırılmasını asanlaşdırır, belə ki, ədalət digərləri arasında yeni texnologiyalar ilə tədqiqat və araşdırmanın imkanlarını saxlayır.

Terrorizmin əfv edilməsinə və terror aktlarının törədilməsi təxribatına qarşı sanksiyaları gücləndirir.

*5-ci Maddə: terror aktlarının törədilməsi təxribatının və terrorizmin əfv edilməsinin cəzalandırılması.*

Bu hal, terror təxribatı və ya onun əfv edilməsini 5 illik cəzaçəkmə ilə cəzalandırır və 75000 avro cərimə tətbiq edir. Bu yaramaz hərəkətlərin İnternetdə törədilməsi ilə əlaqəli cəza və cərimələr daha ağırdır (7 il həbs və 100 000 avro cərimə).

Qanun, təcrid olunmuş terrorçuların artan hərəkətlərini nəzərə alır:

Terror cinayətlərinə hazırlıq hərəkətlərinin cəzalandırılması. 6-cı Maddə, bugünkü terror prosedurları üçün mühüm şəxs, terrorist birliyi ilə əlaqədar olaraq, kriminal sui-qəsd hərəkətlərinə müvafiq cinayət məcəlləsində əks olunan fikirləri daha da genişləndirir. Mətndə nəzərdə tutulur ki, "fərdi terrorist birliyi anlayışı Britaniya və Almaniya hüquq sistemlərində son məsələlər, eləcə də, avto-radikallaşmanın inkişafı, xüsusilə də, terror aktlarının törədilməsinə çağıran internet saytların ənənəvi məsləhətləri və ya baş verəcək yaxud törədiləcək əməllər və hərəkət-





lərə icazə verən üsul və vasitələrin təmin edilməsi ilə yaradılan real zərurətə cavab üçün nəzərdə tutulur";

Polis xidmətlərini müvafiq tədqiqat və araşdırma vasitələri ilə təmin etməklə, hətta fərdi birlik olsa belə, yerli qanunun ilkin versiyası bu hərəkətlərin və əməllərin yeni formasına cavab verilməsi vasitələrini təqdim edir.

Bu qanuna, həmçinin, terror aktlarının qarşısının alınması üçün inzibati işləri asanlaşdırmaq üçün nəzərdə tutulan bir sıra tədbirlər daxildir.

Qanun digər ölkələrlə tranzit beynəlxalq əməkdaşlığı gücləndiriləcəkdir.

Fransa, radikallaşma fenomeninin qarşısının alınması və azaldılmasında ixtisaslaşmış Avropa ekspertlərinin şəbəkəsində fəal şəkildə iştirak edir. Tərəfdaşları ilə birlikdə Fransa, Birliyi və beynəlxalq ictimaiyyəti azad və işğaldan qurtulmuş Suriya əraziləri üçün yardım və dəstək planına səfərbər edəcək.

2014-cü il yanvarın 1-dən etibarən təhlükəsizlik qüvvələri çoxsaylı həbslər həyata keçirmiş və ayrı-ayrı şəxslər Paris TGİ-nin anti-terror qüvvəsinin nəzarətinə verilmişdir. Onların effektiv fəaliyyəti nəticəsində terror qruplarının çoxsaylı cəlb etmə qrupları məhv edilmişdir.

Fransada bizim antiterror ilə əlaqəli hakimlərdən və prokurorlardan ibarət xüsusi məhkəməmiz var. Onların hamısı Parisdədirlər.

İstintaq aparan hakimlər, hal-hazırda nisbətən az, yüzdən az olmayan iş üzərində çalışırlar. Həmin işlərdə doxsan beşdən artıq nəfər ittiham olunur və onlardan altmış beşi məhkəmədən öncədən tutularaq saxlanılırlar. Mən iki yeni cəzanı əlavə etməliyəm: iki gənc "cihaddan" geri dönərkən məhkum edilmişdir.

Onlardan biri Qrenobldandır, Maliyə gedib və cəzanın müddəti 8 ildir.

İkincisi isə Abdel Fata kimi tanınan Florian Moreaudur, o Suriyaya getmiş və 7 illik cəza ilə məhkum edilmişdir.

Parlament tərəfindən yeni qanun terrorla mübarizəyə qarşı yönəldilmiş tədbirlərin gücləndirilməsi məqsədini daşıyır.

Effektiv və təsirli tədbir 2014-cü ilin aprelində başlanılmışdır: internet və ya sosial şəbəkə vasitəsilə radikallaşmanın qurbanı olan ailələrə yardım platforması çərçivəsində qaynar xətt. Milli yerli çağrı nömrəsi radikal gənclərin bir-birinə siqnal ötürməsinə və kömək və məsləhət almasına imkan yaradır.

Biz, Fransada həmin gənclərin yaxınlarına və onların özlərinə cavab vermək və mümkün olarsa, kömək etmək üçün yüz Prefekturada bir çox insanları təlimatlandırmışıq.

Mən, həmçinin universitetdə yeni imamları təlimatlandırmaq təşəbbüslərini qeyd etmək istərdim və Avropa Ravvinləri Konfransının prezidenti, Rabbi Moşhe Levinin sayəsində bizim gənclər üçün əhəmiyyətli olan bu məlumatlardan yenicə xəbərimiz olub.

*Hörmətli konfrans iştirakçıları,* ümumi işimizin xeyrinə belə toplantılarda bir araya gəlmək, fikir mübadiləsi aparmaq çox gözəldir. Məhz bunları nəzərə alıb Bakıda keçirilən bu konfransı əhəmiyyətli hadisə sayıram.

*Hamınıza uğurlar diləyirəm.*








Sonra **Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təmsilçisi İdrat Fətullayev** çıxışı etdi:

Əziz və hörmətli konfrans iştirakçıları! Mən də öz çıxışıma ilk növbədə QMİ rəhbərliyinə və ATƏT-in Bakı Layihə Əlaqələndiricisinə belə bir konfransı təşkil etdiklərinə görə minnətdarlığımı bildirməklə başlamaq istəyirəm.

Bugünkü mövzu radikallaşma meyllərinin qarşısının alınması ilə bağlıdır. Öncə qeyd edim ki, belə bir problemə qarşı təkbaşına mübarizə aparmaq qeyri-mümkündür. Ona görə də bu problemin müzakirəsinə ekspertlərin, nazirlik nümayəndələrinin cəlb olunmasını təqdirəlayiq hal kimi qiymətləndirirəm.

Son dövrlərdə cəmiyyətdə geniş müzakirə olunan və ciddi narahatlıq doğuran məsələlərdən biri də ölkədə radikallaşma meyllərinin artması, ekstremist ideyaların yayılması, gənclərin bu yad ideyaların təsirinə məruz qalaraq radikal dini qruplaşmalara qoşulması və Əfqanıstan-Pakistan zonasındakı, eləcə də Suriyadakı münaqişələrə cəlb olunmasıdır. Tarixə bir qədər nəzər salıb qeyd etməliyəm ki, yaxın keçmişdə radikal-ekstremist xarakterli dini ideyaların Azərbaycana gətirilməsi ötən əsrin 80-ci illərinin sonları və 90-cı illərin əvvəllərinə təsadüf edir. Həmin dövrlərdə ölkədə mövcud olmuş hərc-mərclik, ictimai-siyasi sistemin dəyişdiyi bir vaxtda yaranmış hüquqi bir boşluq, dövlət orqanlarının və iqtisadiyyatın iflic vəziyyətə düşməsi, erməni işğalı nəticəsində meydana çıxmış qaçqınlar və digər humanitar problemlər, habelə müxtəlif separatçılıq təzahürləri, cəmiyyətdə yaranmış çaşqınlıq və gələcəyə inamsızlıq radikal-ekstremist yönümlü dini təriqətlərin yayılmasına, ideoloji təxribat və pozuculuq fəaliyyətinə əlverişli şərait yaratmışdı. Müstəqillik dövründə Azərbaycanda bəzi xarici dövlətlərin, eləcə də dini ekstremist təşkilatların himayəsi ilə fəaliyyət göstərdikləri ehtimal olunan humanitar təşkilatlar qaçqın və köçkünlərə yardım göstərmək adı altında ölkənin əksər bölgələrində fəaliyyətə başlamışlar. Onlar ilk səylərini leqal təbliğat mərkəzləri kimi yeni məscidlərin tikilməsi, köhnələrinin bərpası, dini tədrislə məşğul olmaq adı altında məscidlərin nəzdində və müstəqil şəkildə mədrəsələrin və kursların yaradılmasına yönəltmişdilər. Bununla da Azərbaycanda din pərdəsi altında insanları öz təsirləri altına salmaq məqsədilə radikal ideyalarının yayılması üçün öz gələcək fəaliyyətlərinin zəruri infrastrukturunun yaradılmasının əsasını qoymuşlar. Bu qurumlar gələcəkdə paralel olaraq dini ekstremizmin və fanatikliyin sosial bazasını təşkil edəcək kontingentin formalaşdırmaq məqsədilə yardım və digər şirnikləşdirmələr, dini dəyərlərin dirçəldilməsi adı altında yeni tikilmiş məscidlərdə fəaliyyət göstərmək üçün dini icmaların yaradılması və gənclərin dini mədrəsələrə cəlb olunması işini həyata keçirir, humanitar yardım adı ilə ayrılan vəsaitin çox hissəsini bu





fəaliyyətə sərf edirdilər. İlkin dövrlərdə məscid və mədrəsələrdə ibadət və dini tədris məhz həmin təşkilatların nümayəndələri tərəfindən aparıldı. Məqsəd isə lazımi sosial bazanın formalaşdırmaqla yanaşı gələcəkdə aparılacaq pozğunçuluq işini davam və rəhbər işi üçün şəxslərin seçilməsi idi. Bu yolla seçilən həmin gənclər sonra xarici ölkələrin tədris mərkəzlərinə göndərilir, onların bütün maliyyə xərcləri ödənilirdi. Tədrisi bitirib qayıdan gənclər qarşısında Azərbaycanda radikal düşüncələrin təbliği, tərəfdar toplanılması, növbəti gənclərin seçilməsi işinin davam etdirilməsi kimi tapşırıqlar qoyulurdu. Qeyd olunan istiqamətdə görülən işlərin əsas məqsədi isə radikal ideyaların yayılması üzrə fəaliyyəti həyata keçirəcək kontingentin formalaşdırılması və təşkilatlandırılması idi. Göstərilən fəaliyyətin davamı və tərkib hissəsi kimi külli miqdarda zərərli radikal təriqətlərə, həmçinin dini dözümsüzlüyü təbliğ edən ədəbiyyat və ləvazimatların qeyri-qanunu şəkildə ölkəmizə gətirilməsi, məscid və mədrəsələrə cəlb olunmuş dindarlar arasında yayılması həyata keçirilirdi. Belə ədəbiyyatların yayılması həm də məscid və mədrəsələrə cəlb olunmayan əhali arasında təbliğ işinin aparılmasına imkan verirdi. Dini ədəbiyyatlar əsasən xarici ölkələrdən hazır şəkildə və yaxud elektron daşıyıcılarla Azərbaycana gətirilir, çoxaldılaraq yayılırdı. 90-cı illərin sonunda humanitar təşkilatlar öz əsl niyyətlərini həyata keçirmək üçün dini təbliğatla kifayətlənməyərək respublikamızda terror təşkilatlarının özəklərini yaratmaq istiqamətində fəallaşmağa cəhd göstərmişlər. Həmin xeyriyyə təşkilatlarının uzun müddət Azərbaycanda azad şəkildə yaşayan, humanitar yardım kimi ölkəmizə ayrılmış vəsaitin hesabına şəxsi mənfəət toplayan, respublikada radikal təbəqənin formalaşdırılması işinə rəhbərlik edən əcnəbi vətəndaşların bir çoxunun beynəlxalq terror şəbəkəsinin üzvləri ilə əlaqələri barədə təkzibedilməz faktlar əldə olunmuşdur. Bu isə müstəqilliyinin ilk illərində Azərbaycanı beynəlxalq terror şəbəkəsinin əhatə dairəsinə cəlb olunması prosesinin başlanğıcı idi. Qeyd olunanları əsas tutaraq, xeyriyyəçilik pərdəsi altında radikal ideyaların yayılması Azərbaycana qarşı aparılan təxribat-pozuculuq

fəaliyyətinin qarşısının alınması məqsədilə MTN tərəfindən keçirilmiş tədbirlər nəticəsində 7 xarici humanitar təşkilatın fəaliyyəti dayandırılmış, bu təşkilatların 4 əməkdaşı cinayət məsuliyyətinə cəlb edilmiş, 6 əməkdaşı beynəlxalq terrorçu qurumlarla əlaqələrinə görə axtarışda olduqları üçün saxlanılaraq öz ölkələrinin hüquq-mühafizə orqanlarına təhvil verilmiş, 43 əməkdaşı tərəfimizdən respublikadan xaric edilmişdi. 2000-ci illərin əvvəllərində Əfqanıstan-Pakistan zonasında, Şimali Qafqazda baş verən hadisələrin təsiri ilə Azərbaycanda radikal dini ideyaların yayılması daha geniş vüsət alaraq icma və camaatlar adı altında yerli özəklərin yaranması ilə nəticələndi. Bu proseslər indi də davam etməkdədir. Artıq radikal dindarlar fəaliyyətin metodlarını və idarəetmənin çoxmərhələli sisteminə, üzvlərinin dini-ideoloji, fiziki-hərbi və peşəkar hazırlığının təmin edilməsinə, strateji əhəmiyyətli sahələrdə yerləşdirilməsinə, mövcud dövlət quruluşunun və loyal dindarların nüfuzdan salınmasına çalışırdılar. Bu zaman üzvlərinin radikallaşdırılması üzrə tədbirlər xüsusi qeyd olunmalıdır. Məqsəd isə Azərbaycanda mövcud dövlət quruluşunu devirməklə hakimiyyəti ələ keçirməyə qadir olan sosial bazanın formalaşdırılması idi. Həmin dövrlərdən radikalların strateji obyektlərə, neft sektoruna nüfuz etdirərək təbliğatlarını genişləndirmək, özəklərini yaratmaq cəhdləri müşahidə edilir. Vaxtı ilə tərəfimizdən fəaliyyətlərinin qarşısı alınmış "Ceyşullah", "Hizbut-təhrir", "əl-Qaidə Qafqaz", "Camaət əl-muvahhidun", "Meşə qardaşları" və "Sumqayıt camaatı" kimi dini-ekstremist qrupların təcrübəsi göstərir ki, proseslərin bu istiqamətdə inkişafı neft-qaz infrastrukturunda radikallaşma meyllərinin daha da artması ilə nəticələnə bilər. Radikallar arasından məsuliyyətə cəlb edilmiş şəxslərin cəzaçəkmə müəssisələrində dini ekstremizmin təbliği ilə məşğul olmaları, yerlərdəki qruplaşmalara rəhbərliyi davam etdirmələri, habelə müxtəlif regionlarda qanunsuz silahlı birləşmələrdə iştirakına görə əvvəllər məhkum edilmiş şəxslərin yenidən fəallaşması müşahidə olunur. Son illər radikalların Silahlı Qüvvələrə nüfuz etməyə, hərbiçilər arasında zərərli ideyaları yaymaq cəhdləri də





müşahidə edilməkdədir. Bu məqsədlə onlar hərbi hissələrin şəxsi heyəti ilə əlaqələr qurur, ekstremist məzmunlu ədəbiyyatlar yayır, özlərinə tərəfdarlar toplayırlar. Yaxın Şərqdə, xüsusilə Suriyada cərəyan edən hadisələrlə bağlı radikalların fəallaşması, sosial şəbəkələrdə təbliğat kampaniyasını genişləndirmələri müşahidə olunmaqdadır. Cihadın təhrif olunmuş mahiyyəti, fəlsəfəsi, əsası, məramı, üstünlükləri, mərhələləri haqqında geniş məlumat verən dini kitabların yayılması diqqəti cəlb edir. Kitablarda müsəlmanların cihadı bütün dəyərlərdən üstün tutulması, ona canı, malı və pulu ilə qoşulması əsas ideya kimi göstərilir. Cihadçının istənilən İslam ölkəsində döyüşməyə hazır olması, hətta bu məqsədlə övladın valideyndən, qadının ərindən icazə almasına ehtiyacın olmadığı vurğulanır. Radikallar internet şəbəkəsindəki beynəlxalq terrorçu qurumlara məxsus saytlardakı materialların təbliğat və tədris, konsperasiya və informasiya təhlükəsizliyi qaydaları, kustar yolla partlayıcı və zəhərləyici maddələrin hazırlanması üsullarının öyrənilməsindən geniş istifadə edirlər. Hazırda dini ekstremistlər öz iş metodlarını təkmilləşdirməklə terrorçu təşkilatların fəaliyyət forma və üsullarına uyğunlaşdırır, nəzarətdən yayınmaq üçün daha konsperativ iş metodlarından istifadə edirlər. Onlar əvvəllər olduğu kimi diqqəti cəlb edən kütləvi şəkildə toplaşmaq metodundan əl çəkərək ev, məhəllə prinsipi ilə təşkil olunmuş camaatlar adı altında kiçik qruplarda, icmalarda birləşir, ədəbiyyatların gizli yolla yayılmasına çalışırlar. Artıq onlar xarici görkəmlərini dindarlara xas görkəmə salmağa vadar etmir, sıralarına ali məktəb tələbələri, idmançıları cəlb etmək işinə xüsusi fikir verirlər.

Radikal qruplaşmaların bir çox üzvlərinin əvvəlki illərdə konkret məsuliyyətə cəlb olunduqlarına baxmayaraq cihada çağırışlardan imtina etməmiş, radikal metodlarla silahlı mübarizə aparmaq, terror və təxribat törətmək cəhdlərini davam etdirirlər. Eyni zamanda müxtəlif qaynar nöqtələrdə cihada qoşulmaq və ya hərbi-dini təlimlər keçmək məqsədilə Azərbaycanı tərk edən radikalların sayı da təəssüflər olsun ki, artmaqdadır. "əl-Qaidə" terrorçu təşkilatının rəhbəri Əyman əz-Zəvahiri 2011-

ci ilin sonunda verdiyi fətvada Başər Əsədə qarşı müxalifət hərəkatını cihad kimi qiymətləndirdikdən və mücahidləri oraya getməyə istiqamətləndirdikdən sonra radikalların Suriyaya axını başlamışdı və bu proses indi də davam etməkdədir. Bu çağırışın təsiri altına düşmüş bəzi azərbaycanlı radikallar da 2012-ci ildən etibarən Türkiyədə iş axtarmaq, xaricdə dini təhsil almaq və s. bu kimi bəhanələrlə ölkəmizi tərk edərək Suriyaya getməyə və orada İŞİD-ə, "Əhraruş-Şam", "Ceyşul-mühacirun" və "Cəbhətun-Nusra" kimi terrorçu təşkilatlara qoşulmağa başlamışlar. Bu ilin aprelində qeyri-qanuni silahlı birləşmələrdə iştirak etməyə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayət məsuliyyəti sərtləşdirildikdən sonra MTN tərəfindən görülmüş tədbirlər nəticəsində Suriyada qeyri-qanuni silahlı birləşmələrin tərkibində vuruşmuş 29 nəfər cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Bu gün Azərbaycan hakimiyyəti siyasi və iqtisadi baxımdan kifayət qədər güclüdür və geniş imkanlara malikdir. Radikal dini qruplaşmalar bu gün dövlətçiliyimizi sarsıda biləcək gücdə deyillər. Lakin problemin ciddiliyini və aktuallığını nəzərə alaraq cəmiyyətdə radikallaşma meyllərinin qarşısının alınması, dini sahəyə dövlət nəzarətinin effektiv təşkili məqsədilə aidiyyəti orqanları səfərbər etməklə birgə tədbirlərin həyata keçirilməsi zəruridir. Zənnimcə, aşağıda qeyd olunan təkliflər bu istiqamətdə görüləcək kompleks tədbirlərin tərkib hissəsi kimi baxıla bilər.

- geniş izləyici auditoriyasına malik olunması nəzərə alınmaqla telekanallarda mütəxəssis və ilahiyyatçı alimlərin iştirakı ilə dini mövzularda Azərbaycan respublikasının dövlət siyasəti və dövlətçilik maraqlarına uyğun diqqəti cəlb edə biləcək söhbətlərin və teledebatların təşkili,
- dini ekstremizm və radikallığın əsl mahiyyətinin açılması,
- dini ədəbiyyatların nəşrinə, idxalına və yayılmasına nəzarətin gücləndirilməsi,
- dini təhsil sahəsinə real dövlət nəzarəti mexanizminin işlənib hazırlanması,





- bəzi xarici dövlətlərin dini ekstremist dairələrlə və qeyri-ənənəvi təriqətlərin nümayəndələri tərəfindən idarə olunan və maliyyələşdirilən təşkilatların, habelə təhsil müəssisələrinin fəaliyyətinə nəzarətin gücləndirilməsi, radikal dini təbliğatla məşğul olduqda isə dayandırılması,
- dini ekstremizmə qarşı effektiv mübarizəni təşkil edə bilmiş xarici ölkələrin təcrübəsinin öyrənilib istifadə edilməsi,
- təbliğat işinin, xüsusən də dini sahədə dövlət mövqeyinin işıqlandırılması işinin mərkəzləşdirilmiş şəkildə aparılması,
- müvafiq nəşrlərin, film və videoçarxların aidiyyəti orqanlarla məsləhətləşmələr aparılaraq hazırlanması,
- Silahlı Qüvvələrin və qanunvericilikdə yaradılmış digər silahlı birləşmələrin şəxsi heyəti arasında, cəzaçəkmə müəssisələrində radikal dini baxışların yayılmasının qarşısının alınması,
- hərbi vətənpərvərliyin tərbiyəsi.

Diqqətinizə görə minnətdaram. Gələcək işlərinizdə sizə uğurlar arzulayıram. Çox sağ olun!




Sonra söz **Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin sektor müdiri Elşən Hüseynova** verildi:

*Hörmətli xanımlar və cənablar!*

90-cı illərin əvvəllərində müstəqillik qazanmış Azərbaycan Respublikası keçmiş Sovet sisteminin inkar etdiyi bütün dəyərlərə həssaslıqla yanaşmağa başladı. Bunların içərisində on illər boyu qadağan edilmiş, Azərbaycanın kimliyinin ayrılmaz parçası olan İslam dini ilə yanaşı, əsrlər boyu burada mövcud olmuş dünyəvi dinlərdən olan iudaizm və xristianlıq da vardı. Dünyanın müxtəlif ölkələrindən, müxtəlif dini məzhəb və cərəyanların, sektalarının nümayəndələri ölkəmizə müxtəlif adlar altında (burada humanitar, yardımdan tutmuş, mədəniyyət mərkəzləri, fondları qismində) axışaraq illər boyu yaranmış boşluğu özlərinə sərf edən formada doldurmağa çalışdılar. Zaman keçdi, ölkəmizin iqtisadi və siyasi cəhətdən güclənməsi ilə yanaşı, İslam dini ilə yanaşı,





digər dünyəvi dinlərdə bütün gerçəkləri ilə cəmiyyətimizdə hiss edilməyə başladı. Müstəqilliyin ilk illərində dinə olan fərqli münasibət, yavaş-yavaş yerini müxtəlif məzhəb və cərəyanların, sektaların simasında yaranan reallıqlara buraxdı. Belə ki, cəmiyyət getdikcə daha aydın hiss etməyə başladı ki, din bir tarix, bir həyat tərzi, müxtəlif ayinlərin icrasını özündə birləşdirən folklor nümunəsi və ya sadəcə didaktik dəyərlər məcmusu olmayıb, bir sistem, nizamlı nəhəng ideologiyadır. Bu fikir nə qədər bir mənalı qarşılanmasa da bir həqiqətdir. Yəni bu gün dinin mahiyyətini hansısa bir məzhəbin, qrupun ayağına yazmaq, sadəcə əsas problemi görməkdən qaçmaq deməkdir.

Artıq cəmiyyət olaraq din həyatımızda özünə məxsus yer tutduğunu qəbul edirik. Bu gün o ictimai sahəni sürətlə qət edir. Bütün bunlarla yanaşı, din ilk növbədə yeniyetmə və gənclərin ən çox maraq dairəsinə daxil olmuşdur. Respublikamızda fəaliyyət göstərən dini ibadət yerlərində həyata keçirilən mərasimlər və həmin ayinlərdə iştirak edənlərin tərkibinə diqqət yetirsək bunun əyani şahidi olarıq. Bu həyat tərzinin və ya dünyagörüşün gənclər tərəfindən ciddi qarşılanması, cəmiyyətin və dövlətin xeyrinə olan məqamları da inkar etmək olmaz. ilk növbədə onlarda vətənpərvərlik, ailəyə sədaqət, valideynlərə hörmət və ehtiram göstərmək, elmə, təhsilə xüsusi diqqət, sağlam həyat tərzi keçirmək, ən nəhayət digər millətlərdən, dinlərdən olan insanlara dost münasibət göstərmək kimi ülvi və bəşəri hissləri tərbiyə edir, formalaşdırır. Zamanında cəmiyyət din haqqında kifayət qədər məlumatsız olması, əsasən mövhumat, xurafat xarakterli, nağılvari və saxta məlumatlarla, "zəngin" təsəvvürlərlə "silahlanmış" insanlar onlara təqdim edilən yeni məlumatları, xüsusilə müxtəlif dini cərəyanların ideologiyasını özündə ehtiva edən ədəbiyyatları, məqalələri həssaslıqla və tələbkarlıqla mütaliə etməyə başladılar. Məlumatların bol olması, onların hansının xeyirli, hansının zərərli olması fikrindən uzaq olan, əslində isə buna hazır olmaması sonda bir sıra problemlərə yol açdı. Eyni zamanda cəmiyyətdə kifayət qədər nüfuzlu və savadlı din xadimlərinin olmaması bu axının qarşısında dayanmağı mümkünsüz etdi. Nəticədə xarici ölkələrdən gələn çoxsaylı "din xadimləri" özlərinin maraq dairəsindən çıxış edərək müxtəlif zərərli

təlimləri yaymağa başladılar. Burada təəssüf olsun ki, yenə ən ciddi zərbə gənclərimizə dəydi. Saf və ülvi hisslərlə mənəvi dünyalarını zənginləşdirmək istəyən, haqqa tapınmaq, onun buyurduğu əməlləri icra etmək, cəmiyyət və ailə üçün nümunəvi insan olmaq yolunu seçən gənclər dini məlumatsızlıq nəticəsində müxtəlif radikal cərəyanların və sektaların təsirinə düşməyə başladı. Bu o zaman baş verirdi ki, keçmiş SSRİ məkanında separatizmlə dini radikalizm birləşərək vətəndaş müharibəsini alovlandırmışdı. Nəticədə həmin dövrdə dini radikallıq üçün əlverişli mühit formalaşmağa başladı. Ümumiyyətlə bölgədə ictimai-siyasi və hərbi vəziyyət dəyişən kimi qeyd etdiyimiz təmayüllərdə fəallaşmağa başlayır.

Radikalizm - qarşı tərəflə razı olmamaq, başqalarının görüşünü kökündən rədd etmə və onları düşmən elan etməkdir. Qısaca desək bu insanların əsas prinsipi "bizim kimi düşünməyənlər bizim düşmənlərimizdir" prinsipidir.

Əslində radikalizm bütün zamanlarda və toplumlarda müxtəlif şəkillərdə təzahür etmişdir. Yəni diqqətlə nəzər salsaq görərik ki, radikallıq əslində dinlərin və ya digər ideologiyaların mahiyyətindən deyil, onların mənsublarının düşüncəsindən, psixologiyasından və ya tərbiyəsindən qaynaqlanmaqdadır.

Bu kimi qruplar paranoik bir əhval ruhiyyədə olaraq ətraflarındakı bütün problemləri özlərinə qarşı təhlükə və təhdid olaraq qəbul edirlər. Həyatda hər şey onlar üçün iki şeydən ibarətdir, ya ağdır, ya qara, ya dostdur, ya düşmən, ya yaxşıdır, ya da pis. Onlar sadəcə öz getdikləri yolu yeganə həqiqət hesab etməkdə və buna iddiası olan digərlərinə yaşamaq haqqı tanımamaqdadırlar. Bu qruplar gücsüz olduqları zamanlarda bu hallarını sadəcə sözdə elan etsələr də gücləndikləri və əllərinə real qüvvə keçdiyi vaxt digərlərini sadəcə məhv etməyi düşünürlər.

Öz qənaətlərini dinin özü elan edərək ona inanmayanları kafir və batil elan edirlər. Fəqət diqqətlə baxdığımız zaman tabe olduqları yolun bir məzhəb, bir təfəkkür məhsulu olduğu aydınca görünür.

Radikalizmin əsas xüsusiyyətləri əslində biri digərini doğuran hallardır. Yəni dinin və ya hər hansı bir dünya görüşünün ehkamlarının arxa





planını, mahiyyətini ruhunu anlaya bilmədiyiniz zaman onun zahirindən fərqli bir görüşü qəbul etmək sizə çox çətin olacaqdır. Beləliklə bir məsələ haqqında fərqli qənaətləri incələmək və onlardan faydalanmaq imkansız hala gəlir.

Bilmək lazımdır ki, radikalizm təkcə dini qrupların və ya hansısa ideologiyaların doğurduğu səbəb deyil. Çox zaman müşahidə olunur ki, cəmiyyət və dövlət idarə mexanizmlərinin özləri dini qrup və ya ideologiyalara radikal bir münasibət içərisində olurlar. Dini, toplum üçün təhlükə görmək, onun sosial sahədə təsirini bacardıqca azaltmağa çalışmaq, bütün dini camaat və təriqətləri cəmiyyət üçün təhlükə zənn etmək əslində bir növ radikalizmdir.

Hesab edirəm ki, dinin sosial sahədən təcrid olunmasına çalışmaq, dini camaatların varlığını faciə olaraq görmək heç zaman məsələnin həll yolu demək deyil. Məsələyə belə münasibət əks nəticə verir, yəni din ictimai sahəyə daha radikal tonlarda və daha nəzarət edilməz bir şəkildə təcəllə edir.

Radikalizmi doğuran əsas səbəblər hansılardır? Yuxarıda bu səbəblərdən birinə toxunduq. Bu qarşı tərəfdən özünə qarşı şiddət görmə və ya başqa ifadə ilə desək qarşı tərəfin "oyun qaydalarını" pozmasıdır. Yəni cəmiyyət dini qruplara gəldiyi zaman söz azadlığı, özünü ifadə azadlığı, insan haqları kimi vəzifələri unutması, onların hamısına ikinci qrup vətəndaş münasibətinin göstərməsi radikallaşmanın əsas səbəblərindən biridir.

Digər bir səbəb isə ölkədə müəyyən dini zümrənin cəmiyyətdən təcrid edilməsidir. Radikalizmi ortaya çıxaran fikrimizcə ən böyük səbəb isə cəmiyyətdə dini sahədə ciddi maarifçilik işinin olmaması, sosial-iqtisadi vəziyyətin qənaətbəxş olmaması, siyasi sabitsizlik, insanlarda gələcəyə inamın az olması və s. problemlərdir. Bu barədə artıq çox söhbətlər açıldığından əlbəttə ki, biz yeni bir şey demirik. ölkəmizə gəldikdə isə yuxarıda sadalanan problemlər sırasında yalnız bu gün cəmiyyətə müəyyən nüfuzu olan, qərarı hamı tərəfindən (və ya dindar zümrənin böyük hissəsi tərəfindən) qəbul edilən din xadimlərinin sayının azlığıdır. Etiraf etmək lazımdır ki, ölkəmizdə bu sahədə müəyyən problemlər qalmaq-

dadır. Ölkədə dini nüfuzu olan insanların media və digər vasitələrlə aparıcı qrupların liderləri kimi topluma tanıdılması kimi ciddi bir fürsət əldən buraxılmışdır.

Bu gün dini təhsilin istənilən səviyyədə olmaması və ya bu yöndə təhsil almış kadrların düzgün istiqamətləndirilməməsi də dini doğru anlamama və anlatmamağa gətirib çıxarır. Bu da radikalizmi doğuran səbəblərdəndir. Ölkədə orta məktəblərdə din tədris olunmur. Halbuki, dünyanın bir sıra aparıcı dövlətlərinin təhsil proqramlarında dünya dinlərinin tədrisinə xüsusi saatlar ayrılır. Bu barədə hələ 1996-cı ildə Azərbaycan Gənclərinin I Forumunda Ümummilli Lider Heydər Əliyevin çıxışında da bu məsələ xüsusilə vurğulamışdı.

Digər əsas səbəblərdən birincisi kimi dini kadrların yetərli olmaması göstərilir. Amma ölkədə bu gün müəyyən sayda formalaşmış kadrlardan məqsədəuyğun istifadə olunur. Bu kadrlara lazımı diqqətin olmaması bir çox hallarda onların özlərinin radikal cərəyanlara meyl etməsinə səbəb olur. Nəzər almalıyıq ki, ilahiyyata diqqətsizlik fizika, riyaziyyat, və s. kimi sahələrə diqqətsizlikdən daha dəhşətli nəticələr doğurur. Çünki, din (xüsusən də İslam) ideoloji mahiyyəti olan bir sahədir.

Yeri gəlmişkən, bir məsələnin üzərinə qayıtmaq istərdim. Belə ki, gənclər arasında yad dini təsirlərin qarşısının alınmasında xaricdə dini təhsil alma tendensiyasının zəifləməsi də mühüm rol oynayır. Belə ki, Azərbaycanda hazırda mövcud dini təhsil müəssisələrinin rəqabətə davamlı olmaması, dini dairələrdə nüfuzlu təhsil hövzəsi kimi qəbul edilməməsi dini meylli gənclərin xaricə üz tutmasına səbəb olur. Xaricdə dini təhsil alaraq yad mühitdə dünyagörüşü formalaşan həmin gənclərin bir çoxu geri döndükdən sonra zərərli təbliğat aparır, gənclər arasında dini təbliğat mənbəyi kimi məhz onlar çıxış edirlər. Hesab edirik ki, gənclərin zərərli dini ideologiyaların təsirinə düşməsinin qarşısını almaq üçün bu sahəyə müvafiq dövlət strukturları tərəfindən nəzarət gücləndirilməlidir. Bu istər orta və ali təhsil müəssisələrində dini biliklərin verilməsi olsun, istər yerli dini təhsil müəssisələrinin səviyyəsinin və nüfuzunun yüksəldilməsi və gənclərin dini təhsil almaq üçün xaricə deyil, yerli təhsil müəssisələrinə üz tutmasına nail olmaq mexanizmləri üzərində





ciddi, düşünülməlidir. Bunun üçün mütləq yerli dini təhsil müəssisələrinin elmi və texniki potensialı gücləndirilməli, dövlət tərəfindən buna birbaşa dəstək verilməlidir. Eyni zamanda Azərbaycanda dini elmi- tədqiqat mərkəzinin yaradılması da yaxşı olardı. Bu da son nəticədə respublikamızda qeyd edilən sahədə dini-elmi mövzuda tədqiqat işlərinin geniş vüsət almasına, onun elmi bazasının formalaşmasına böyük təkan vermiş olardı.

Gənclər arasında düzgün dini biliklərin formalaşması prosesini nəzarətdə saxlamaq və onların zərərli dini təsirlərə düşməməsi üçün təxirəsalınmaz işlər həyata keçirilməlidir. Bu istiqamətdə Gənclər və İdman Nazirliyi olaraq bir sıra tədbirlər görülür. Belə ki, qeyri-formal təhsil metodu vasitəsi ilə gənclərin dünyəvi təhsilə cəlb olunması, onların asudə vaxtlarının daha da maraqlı və səmərəli keçirilməsi, mədəni-maarif tədbirlərinin təşkili, həyat səviyyəsinin yüksəldilməsi, gənclərin intellektual səviyyəsinin artırılması, gənclərin fərdi inkişafına şəraitin yaradılması, beynəlxalq əlaqələrin dəstəklənməsi, regionlarda gənclər üçün sosial xidmət şəbəkəsinin - gənclər evi-mərkəzlərinin inşa edilib istifadəyə verilməsi və s. istiqamətlərdə tədbirlər həyata keçirilir.

Ümid edirəm, konfrans hər birimiz üçün faydalı olacaq və dini tolerantlığın təşviqində, gənclər arasında radikalizm meyllərinin aradan qaldırılması istiqamətində birgə yolların aranması üçün olduqca faydalı olacaq. Bu qlobal problemin birgə həlli üçün öz töhfəsini də verəcək.

*Diqqətinizə görə çox sağ olun.*




Sonra isə Beynəlxalq konfransın rəsmi bağlanış mərasimi keçirildi. **Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə** mərasimdə nitq söylədi:

*Möhtərəm konfrans iştirakçıları!*

Bu gün burada bir araya gəlməyimizin dünya miqyasında üzləşdiyimiz bəzi problemlərin həlli yolunda əməkdaşlıq sahəsində yeni mərhələyə vəsilə olmasını və qlobal problemlərin - terrorizmin, radikalizmin, ekstremizmin və separatizmin aradan qaldırılması üçün dinlərarası və mədəniyyətlərarası münasibətlərin inkişafına xidmət edən tarixi əhəmiyyətli bir hadisəyə çevrilməsini Ulu Tanrıdan diləyirəm.

Mədəniyyətlər, dinlər arası dialoq, multikultural mühitin mövcud olmadığı cəmiyyətdə əmin-amanlıq ola bilməz, əmin-amanlıq olmayan yerdə isə tərəqqi, inkişaf mümkün deyil. Bizləri bəşər ailəsinin üzvləri kimi birləşdirən, bir-birimizə bağlayan dəyərlər, bizi fərqləndirən, ayıran amillərdən qat-qat möhkəm, dərin və mühümdür.





Azərbaycan dövləti hər zaman bu dəyərlərin qorunması, inkişaf etdirilməsi istiqamətində əməli addımlar atır, bu yöndə fəaliyyəti vacib sayır. Dövlət başçımız Prezident İlham Əliyev dünya miqyasında multikulturalizm ideyalarının fəal müdafiəçisi, təbliğatçısıdır. Onun təşəbbüs və himayəsi sayəsində keçirilən ənənəvi Beynəlxalq Mədəniyyətlərarası, Humanitar Forumlar bu ideyalara sadiqliyimizin bariz təcəssümüdür.

Biz müasir dövrün qlobal bəlalarından xilas olmaq və insanlığın rifahı naminə birlik və tolerantlığımızı daima qoruyub saxlamalı, mədəniyyətlər və dinlərarası dialoqu inkişaf etdirməliyik. Xalqlarımızın, xüsusən, gəncliyin tolerant, müxtəlif mədəniyyətlərə ehtiram, habelə vətənpərvərlik ruhunda, vətən təəssübünü dəyərləndirmək iqtidarında tərbiyəsini təmin etməliyik. Gənclərin müxtəlif vasitələrlə şirnikləndirilib başqa dövlətlərin ərazisində ideoloji qılaf daxilində gedən siyasi qarşıdurma və müharibələrə cəlb olunması yolverilməzdir. Bu baxımdan, yetişməkdə olan nəsillərin daha sağlam mənəvi həyat sürmələri yönündə səylərimizi birləşdirməliyik. Bu yolla çoxmədəniyyətli və çoxkonfessiyalı dünyamızın birliyini və sabitliyini qoruyub saxlaya bilərik. Biz bütün dünya dinlərinin dəyərlərini, müqəddəs şəxsiyyətlərini, rəmzlərini məqsədyönlü və qərəzli hücumlardan qorumalı, millətlərarası və dinlərarası qarşıdurma yaratmaq istəyənlərin məkrli niyyətlərini puça çıxarmalı, ekstremizmin, ksenofobiyanın qarşısını birgə səylərlə almalıyıq.

Bu yöndə səylərimizi koordinasiya etmək olduqca vacibdir. Odur ki, fəaliyyətimizin konsepsiyasının işlənib hazırlanması dövrümüzün ictimai-sosial sifarişidir. Dini mərkəz olaraq ATƏT-lə birgə keçirdiyimiz bugünkü tədbiri göstərilən istiqamətdə uğurlu addım kimi dəyərləndirmək olar. Biz əvvəllər də dini mərkəzlərin beynəlxalq təşkilatlarla, o cümlədən, BMT, UNESCO, Avropa Şurası ilə əməkdaşlığının vacibliyini bildirmiş, Qafqaz Müsəlmanları İdarəsinin həmin təşkilatların nəzdində xüsusi nümayəndəliklərinin yaradılması yönündə ilk addımları atmışıq.

Azərbaycanda milli və bəşəri dəyərlərə hər zaman böyük önəm verilibdir. Şükürlər olsun ki, Azərbaycan iqtisadi, siyasi, diplomatik sahədə uğurları ilə yanaşı nümunəvi dini-mənəvi həyatı ilə də dünyanın diqqət mərkəzindədir. Vətəndaşlarımızın demokratik azadlıqları, funda-

mental insan hüquqları, o cümlədən dini etiqad azadlığı təmin olunmuşdur. Ölkəmizdə dövlət-din münasibətləri konstruktiv, səmərəli əməkdaşlıq, qarşılıqlı etimad və ehtiram zəminində inkişaf edir. Ümidvaram ki, iki gün davam edən tədbir bütün iştirakçı və qonaqları əmin etdi ki, Azərbaycanda mövcud tolerantlıq modeli bütün dünya, o cümlədən, ATƏT məkanı üçün olduqca dəyərlidir. Biz, Azərbaycan xalqı olaraq, bütün dünya ilə bu təcrübəni bölüşməyə, bəşəriyyətin mənəvi mədəniyyət xəzinəsinə öz töhfəmizi bəxş etməyə hazırıq. Bu elə bir dəyərdir ki, bölüşdükcə daha da artır və daha artıq dəyərə malik olur.

Tədbirimizin təşəbbüskarı olmuş ATƏT-in Bakı ofisinin layihə koordinatoru, səfir cənab Ələsgər Şahtaxtinskiyə öz minnətdarlığımı bildirir, gələcəkdə də bu yöndə səylərin davamlı olmasını arzu edirəm. Bir daha vurğulayıram ki, dini mərkəz olaraq, Qafqaz Müsəlmanları İdarəsi hər zaman belə təşəbbüsləri dəstəkləməyə, bu yöndə əməli addımlar atmağa hazırdır.





**UNESCO üzrə Azərbaycan Milli Komissiyasının birinci katibi Günay Əfəndiyeva** çıxış edərək ölkəmizin qədim tolerantlıq ənənələrindən danışdı, ənənənin bu gün uğurla davam etdiyini və dünya üçün nümunə sayıldığını diqqətə çatdırdı. O, bildirdi ki, UNESCO-nun Azərbaycan üzrə Milli Komissiyası fəaliyyət göstərdiyi 20 il ərzində ilk dəfə olaraq ATƏT-in Bakı Layihə Əlaqələndiricisi ilə müştərək tədbir keçirir. Bu, faktın özü ölkəmizdəki tolerantlıq mühitini simvolizə edir. Günay Əfəndiyeva tədbirin yüksək səviyyədə keçirilməsindəki xidmətinə görə Şeyxülislam Allahşükür Paşazadəyə təmsil etdiyi qurumu adından "Sülh ağacı" mükafatını təqdim etdi.






**ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, səfir Ələsgər Şahtaxtinski** tədbirə yekun vuraraq aparılan müzakirələri faydalı adlandırdı, təşkilatçılara və qonaqlara minnətdarlığını çatdırdı, belə tədbirlərin davamlı olmasını arzuladı.

Sonda Beynəlxalq konfrans iştirakçılarının şərəfinə ziyafət verildi.





***INTERNATIONAL CONFERENCE***

***ON THE THEME OF "STRENGTHENING RELIGIOUS TOLERANCE" (AZERBAIJAN'S MODEL, CHALLENGES IN THE OSCE REGION AND BEYOND ITS BORDERS)***

***BAKU, NOVEMBER 17- 18, 2014***

*Published by the decision of The Scientific-Religious Council of the Caucasus Muslims Board.*

*Members of Organizing Committee established in connection with the organization and holding of the conference according to the order dated on October 22, 2014 of Sheikh-ul-Islam Allahshukur Pashazade, the Chairman of Caucasian Muslims Office:*

*Sabir Hasanli (Chairman of Organizing Committee), Salman Musayev, Mrs. Gamar Javadli, Fuad Nurullayev, Simran Hasanov, Mugaddas Payizov, Rahima Dadashova, Zulfugar Farzaliyev, Alirza Gafarov, Isa Vakilov.*

*Responsible for the publication*
***Zulfugar Farzaliyev***
Head of Publishing Division of CMO

*Editors*
***Etibar Jabrayiloghlu***
Deputy Head of Publishing Division of CMO

***Hilal Aghamoghlanov***
Leading specialist of Publishing Division of CMO

*Author of photos*
***Hamid Baghirov***

*Print Coordinator*
***Haji Akif Gismatoghlu***





# *INTRODUCTION*

Azerbaijan, further strengthening its position among world countries in recent years, has hosted several international events. The capital of the country that has achieved rapid and sustainable development has declared messages that are considered important for the whole world at several summits, global forums and conferences held in Baku, as well as, in our different regions.

Caucasian Muslims Office contributes to this important work. As a historic religious center of the Caucasus, CMO has held various events by the support of Azerbaijan and active participation of international organizations in recent years.

Baku Summit of World Religious Leaders held on April 26 and 27, 2010, the II meeting of the Advisory Council of CIS Muslims held on April 15, 2013 and International scientific – practical conference "CIS Muslims are the supporters of peace and sustainable development" realized on April 16-17 of the same year are just among these events.

Caucasian Muslims Office acting as a supporter of peace, stability and inter-religious dialogue not only in the region, but also in whole world is continuing its efforts in this field. International conference held on the theme of "Strengthening religious tolerance (Azerbaijani model, Challenges in the OSCE region and beyond its borders)" on November 17- 18, 2014 proves it once more. This event jointly organized by Caucasian Muslims Office with the Azerbaijani government, Baku Project Coordinator of OSCE and National Commission of Azerbaijan Republic for UNESCO was dedicated to International Day for Tolerance.

International conference can be considered as an important meeting in terms of the promotion of tolerance in the country.

Azerbaijani President Ilham Aliyev's accepting the members of Supreme Religious Council of the Caucasus Peoples coming to Baku in order to attend at International Conference and addressing a letter of congratulations to the participants of the event is an indication of the value given to the importance of the meeting.

It is said in the letter of congratulation by the President Ilham Aliyev, stating the relevance and importance of such events, sent to the participants of International conference: "...Today, complex ethno- political processes, efforts in making religion a toll of political ambitions, increase in radicalism and extremism which we have witnessed in many countries shows that there is no any alternative of the relations of friendship and tolerance among various religions and sects as there is no any alternative to multiculturalism in our world that is in search of peace and tranquility.

Holding such a useful event in Baku in which influential international organizations, state and government officials, well-known religious leaders, scientists and experts participate is of great importance. I believe that the international conference devoted to such an urgent topic will set its work in the presence of fruitful discussions and give its valuable contribution to the development of human values such as inter-religious and intercultural dialogue, solidarity, tolerance and mutual understanding..."

The speeches made at International conference and discussions conducted in business condition during two days once more proved the importance of holding such meeting often in modern period.

Guests arriving in Baku from different countries of the world in order to participate in the international event closely get familiarized with modern Azerbaijan's achievements. They highly appreciated the multicultural condition and atmosphere of tolerance in our country that has an ancient and rich culture.







## *RECEIVING MEMBERS OF THE SUPREME RELIGIOUS COUNCIL OF THE CAUCASUS PEOPLES*

*President Ilham Aliyev received the members of Supreme Religious Council of the Caucasus Peoples who participated in the International conference on the theme of "Strengthening religious tolerance (Azerbaijani model, Challenges in the OSCE region and beyond its borders)".*

Welcoming the participants of the meeting, President Ilham Aliyev said:

- I am glad to see you again in Baku. You are welcome! I am very pleased that our meetings are held regularly, we often meet in Baku and other regions of Azerbaijan. And of course, now, you participate in the international conference that discusses the issues of religious tolerance. At present, it is very important issue in our region, in the whole world,

Middle East and Europe. Azerbaijan makes efforts for having a greater understanding between the representatives of various religions and peoples. We hold regular events. We have held four International Humanitarian Forums on the theme of religious solidarity and tolerance. This is the main topic. We have held two International Conferences on Intercultural Dialogue. As well as, we held the Summit of world religious leaders in Baku. That's, Azerbaijan plays an important role in this direction taking into consideration its historical, geographical position and today's realities.

Of course, security and peace issues unities us. These are our common topics in Caucasus. Caucasus is our common home. The security, development and progress of Caucasus is our common care. The role of religious leaders is of great importance in terms of education of younger generation in the spirit of our traditions and cooperation, as well as, considering the recommendations of elders and religious leaders reliable. We should protect and further strenghen these traditions. The youth of our republics should be grown up in the spirit of religious and national traditions. Our traditions are based on kindness, peace, and brotherhood. Islam is a religion of peace. The efforts in the mass media of the world on artificially blackening our religion, equate Islam to terrorism and extremism disturb us very seriously. This background of information is also further strengthened by the irresponsible statements of some politicians that support those who don't want the restoration of peace in the world. Therefore, this conference is another chance for us to deliver our views, positions, point of views and religious values to the wider world community and obtain mutual understanding and respect. At that time, the world would be more secure.

Mutual respect, international law, justice and religious values are an important basis for the development of the world in a positive direction. Unfortunately, we see its opposite. We will strengthen security and cooperation, as well as, development in Caucasus by our joint efforts. Once more, I sincerely greet you. I hope that you participation in this conference will be pleasant and useful.



ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Layihə Əlaqələndiricisi

The Chairman of the Coordinating Council of the North Caucasian peoples, Mufti of the Republic of Karachay-Cherkessia of Russian Federation, Ismayil Berdiyev said in his speech:

- Thank you very much, Ilham Heydar oghlu! We are really pleased to come here. As, we love Azerbaijan. Baku turns more beautiful day by day. Each time, we face with innovations, and think that what else can be done?! You come and see a completely different landscape.

Islam Berdiyev stating there is a rapid pace of development in Azerbaijan and a large mosque is built in the capital city noted that the works done is related to Ilham Aliyev's family: "Sheikhulislam was in the house of Kaaba with Your Father, and then He went there with You. All these works come from this".

President Ilham Aliyev: - "I highly appreciate our friendship, personal relations and Your relationships with our Sheikh.

We have lived together for centuries in peace and friendship and will live in this way in future. Of course, we should protect this value. We are doing our best for our part to bring our people closer, as well as, for religious and cultural values forming the basis of the development of our country.

I remembered our previous meetings during this meeting. We jointly participated in the opening ceremony of Bibiheybat mosque after its expansion, restoration and in fact, reconstruction, then in the opening of Ajdarbey mosque after its repair and in the opening ceremony of the most ancient mosque of Azerbaijan in Shamakhi. And also, I hope that the opening of the largest mosque constructed in Baku will be held with our participation. I am sure that our relations will be further strengthened in future.

Chairman of the Caucasian Muslims Office, Sheikh ul-Islam Allahshukur Pashazade: - Mr. President!

You are doing a lot of works for Islam, religion and people. I would like to mention National Leader Heydar Aliyev on this day of tolerance. As he always gathered us on this day, met with us, talk to us and direct

us. As, His Excellency Heydar Aliyev laid the foundation of this tolerance. This tradition is also continued today. As You said before, this is the value given by You to your descendent, Islam and morality. Therefore, I would like to express my gratitude to You. Today, Caucasian Muslims Office is doing many works to the extent possible with Your moral support. Today, Azerbaijani government, Caucasian Muslims Office holds such a conference together with the representations of OSCE and UNESCO in our country for the first time.

And this is an example of freedom of religion, conscience and tolerance in Azerbaijan. And this is a condition created by You for us. Therefore, we express our gratitude to You.

President Ilham Aliyev: "Thank you very much. I once more express my gratitude to You for your role in the activity of strengthening the stability, security and development in Caucasus".

